Hüccətül-İslam vəl-muslimin Şeyx Məhəmmədəli
Mosuli

# RAMAZAN AYININ ƏMƏLLƏRİ

“Alul-Beyt (ə)” müəssisəsi
Moskva – 2016

بسم الله الرحمن الرحيم

إسم الكتاب : أعمال و أدعية شهر رمضان المبارك
تأليف : حجة الإسلام والمسلمين الشيخ محمد علي الموصلي
تصحيح: روشن اسلاموف
تحرير: نساء حسينلي أفسل الدين قيزي
الناشر: مؤسسة آل البيت (ع) موسكو
الطبعة:الثالثة ٢٠١٦ م
العدد: ٢٠٠٠
المطبعة:باكو

“Elm və təhsil”
Bakı – 2016

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin DK-320/M saylı, 11.04.2016-cı il tarixli məktubuna əsasən nəşrinə razılıq verilmişdir.*

**Kitabın adı: Ramazan ayının əməlləri**

**Müəllif: Hüccətül-İslam vəl-müslimin Şeyx Məhəmmədəli Mosuli**

**Redaktor: Rövşən İslamov**

**Korrektor: Hüseynli Nisə Əfsələd-din qızı**

**Nəşr edən: "Alul-Beyt (ə)" müəssisəsi**

**Çap növbəsi: 3**

**Sayı: 2000**

## Ön söz

**Bismillahir-rəhmanir-rəhim.**
**Əlhəmdulillahi Rəbbil-aləmin. Vəssəlatu vəssəlamu əla seyyidina Muhəmmədin və alihit-tahirin.**

Musəlman baci və gardaşlarımızın xahişini nəzərə alaraq əlinizdəki "Ramazan ayının əməlləri" adli kitabını yenidən çap etməyi qərara aldiq. Kitab yenidən çapa hazırlanarkən texniki səhvlər aradan galdırılmış və orucla bağlı yeni hokmlər əlavə olunmuşdur.

Allahdan bu muqəddəs ayda bütün musəlmanların əməllərini qəbul etməsini təvəqqe edirik!

**Cəmadiul-ula ayı, 1437 – ci h.q. ili**
**2016 Milad ili**
**Moskva**

## Giriş

## Bismillahir-rəhmanir-rəhim

İslam aləmində mübarək Ramazan ayı möminlər tərəfindən böyuk və şərəfli garşılanır. Çünki bu ay, ən müqəddəs ibadətlərdən hesab olunur. Ramazan ayı Allah dərgahında o biri aylardan üstündür.

Ramazan ayında əzəmətli fəzilətlər və mühüm hadisələr ən əsas yeri tutur. Bu hadisələr içərisində insanlara sevinc bəxş edəni də, kədərləndirici olanı da vardır ki, onları Sizin üçün qeyd etmək məqsədəuyğun olardı.

Ən ümdəsi, insana hidayət yolu göstərən, onu dünya və axirət əzabından xilas edən və nəticə etibarilə, İslamın əbədi möcüzəsi olan Qurani-kərimdir.

İkincisi, ibadəti min aydan üstün olan, Rəsulullah (s)-ın ümmətinə rəhmət olaraq göndərilmiş, Allahın təyin etdiyi mübarək Qədr gecəsidir.

Insana sevinc bəxş edən hadisələrdən; şanlı Bədr döyüşünün və İmam Həsən (ə)-ın mövludunun bu aya təsadüf etməsidir.

Kədərləndirici hadisələrə gəldikdə isə, qadinlardan Allaha və peyğəmbərinə ilk olaraq iman gətirən, möminlərin anasi Xanım Xədiceyi-Kübranın, kişilərdən isə möminlərin əmiri, həzrət Peyğəmbər (s)- in sadiq qardaşı, haqqı batildən ədalətlə ayıran, axirət gününün şəfaətçisi imam Əli (ə)- ın vəfatının məhz bu aya təsaduf etməsidir. Belə ki, o həzrət (ə)- in zərbətləndiyi an səmadan “And olsun Allaha ki, hidayətin sütunu çökərək dağıldı” sədasının ucalması da adi bir hal deyildi. Bu hadisələrə irəlidə geniş yer verəcəyik.

Beləliklə müxtəlif şəkildə tərtib edilən bu kitabçanın nəşr olunması üçün, elm şəhəri Nəcəf-əşrəf şəhərində

yerləşən, Cəfəri məzhəbinin ali dini mərcəyi-təqlid müctəhidi Ayətullah-Uzma Seyid Əli Hüseyni Sistaninin dəftərxanası böyük və əvəzolunmaz fəaliyyət göstərmişdir. Bu fəaliyyətdən məqsədləri dünyada əməllərini şəriətə uyğun olaraq icra etmək və bunun müqabilində axirət savabına nail olmalarıdır. Allahdan diləyirik ki, mübarək Ramazan ayında onların bu əməllərini və sizlərin də ibadət və arzularınızı Öz dərgahında qəbul olunmuş hesab etsin.

**Hüccətül-İslam vəl-muslimin**
**Şeyx Muhəmmədəli Mosuli**

## Orucun hökmləri[1]

Oruc – insanın Allah-təalaya bəndəlik edib Onun əmrini yerinə yetirmək məqsədilə sübh azanından şam azanına qədər, sonradan qeyd olunacağı kimi, səkkiz əməldən çəkinməsidir.

### Niyyət

**Məsələ 1525:** İnsanın orucun niyyətini qəlbindən keçirməsi və ya məsələn, "sabah oruc tutacağam" – deyərək, niyyət etməsi lazım deyildir. Sadəcə olaraq Allah-taalaya bəndəlik və Onun əmrinə itaət etmək məqsədilə sübh azanından şam azanına qədər orucu batil edən işlərdən özünü qorusa, kifayətdir. Bu müddət ərzində oruc olduğuna yəqin etmək üçün sübh azanından bir az əvvəl və şam azanından bir az sonraya qədər orucu batil edən əməllərdən özünü saxlamalıdır.

**Məsələ 1526:** İnsan Ramazan ayının hər gecəsi sabahkı günün orucunu niyyət edə bilər.

**Məsələ 1527:** Agah şəxs üçün Ramazan ayının orucunun son niyyət vaxtı sübh azanı vaxtıdır. Belə ki, vacib ehtiyata əsasən, sübh vaxtı oruc niyyəti ilə yanaşı orucu batil edən əməllərdən, hətta ürəyindən keçirmiş olsa belə, çəkinməlidir.

**Məsələ 1528:** Orucu batil edən əməlləri görməyən şəxs şam azanına vaxt az qalmış olsa belə, günün hər hansı vaxtında müstəhəb orucu niyyəti edərsə, orucu düzgündür.

**Məsələ 1529:** Ramazan ayının orucunda və həmçinin vaxtı müəyyən olan vacib orucda sübh azanından əvvəl oruc niyyəti etmədən yatan şəxs günortadan əvvəl oyanıb niyyət

---

[1] Kitabda qeyd olunan şəriət hökmləri Ayətullah-Uzma Seyid Əli Hüseyni Sistani cənablarının fətvalarına uyğundur və onun "İzahlı şəriət məsələləri kitabı"-ndan iqtibas edilmişdir.

etsə, orucu düzgündür. Amma zöhrdən sonra yuxudan oyanarsa, ehtiyata əsasən, “mütləq qürbət” niyyəti ilə günün qalanını orucu batil edən əməllərdən çəkinməli və həmin günün orucunu da qəza etməlidir.

**Məsələ 1530:** Qəza və ya kəffarə orucu tutmaq istəyən şəxs onu niyyətində müəyyən etməlidir. Məsələn, “qəza orucu və ya kəffarə orucunu tuturam” – deyə niyyət etməlidir. Amma Ramazan ayında “Ramazan ayının orucunu tuturam” – deyə, niyyət etməsi lazım deyildir. Hətta Ramazan ayı olduğunu bilməsə və ya unudub başqa bir oruc niyyəti etsə, onun orucu Ramazan ayının orucundan hesab edilir. Nəzir və bu kimi oruclarda nəzir niyyəti lazım deyildir.

**Məsələ 1531:** Əgər Ramazan ayının olduğunu bilsə və qəsdən Ramazan ayından başqa bir orucun niyyətini etsə, niyyət etdiyi oruc hesaba alınmaz və həmçinin Ramazan ayının orucu da sayılmaz. Əgər həmin niyyət “qürbət” niyyəti ilə zidd olsa, hətta ziddiyyətli olmasa belə, ehtiyata əsasən, Ramazan ayının orucu hesab olunmaz.

**Məsələ 1532:** Əgər məsələn, ayın birinci gününün niyyəti ilə oruc tutsa, sonra ayın ikinci yaxud üçüncü günü olduğunu başa düşsə, orucu düzgündür.

**Məsələ 1533:** Əgər sübh azanından əvvəl niyyət etdikdən sonra huşsuz olsa və gün ərzində özünə gəlsə, vacib ehtiyata əsasən, həmin günün orucunu tamamlamalı və əgər tamamlamasa, onun qəzasını yerinə yetirməlidir.

**Məsələ 1534:** Əgər sübh azanından əvvəl, niyyət etdikdən sonra məst olarsa və həmin günün ortasında ayılarsa, vacib ehtiyata əsasən, həmin günün orucunu tamamlamalı və qəzasını da yerinə yetirməlidir.

**Məsələ 1536:** Əgər sübh azanından əvvəl niyyət edib yatsa və şamdan sonra ayılsa, orucu düzgündür.

**Məsələ 1537:** Ramazan ayı olduğunu bilməsə və ya unutsa, belə ki, zöhrdən əvvəl Ramazan ayı olduğunu bilsə,

əgər orucu batil edən bir iş görmüşdürsə, orucu batildir. Amma şam azanına qədər orucu batil edən əməllərdən çəkinməli və Ramazan ayından sonra da, həmin günün orucunu qəza etməlidir. Əgər günortadan sonra Ramazan ayı olduğunu anlasa, vacib ehtiyata əsasən, "rəca" məqsədi ilə oruc niyyəti etməli, Ramazan ayından sonra da qəzasını tutmalıdır. Amma zöhrdən əvvəl anlasa və orucu batil edən bir əməl görməsə, oruc niyyəti etməlidir və orucu da düzgündür.

**Məsələ 1538:** Əgər uşaq Ramazan ayında sübh azanından əvvəl yetkinlik yaşına (həddi büluğa) çatsa, oruc tutmalıdır. Əgər azandan sonra yetkinlik yaşına çatsa, həmin günün orucu vacib deyildir. Amma müstəhəb orucu niyyəti etsə, müstəhəb ehtiyata əsasən, onu tamamlasın.

**Məsələ 1539:** Meyitin orucunu tutmaq üçün əcir olan və ya üzərində kəffarə orucu olan şəxs müstəhəb oruc tutsa, eybi yoxdur. Amma üzərində Ramazan ayının qəza orucu olan şəxs müstəhəb oruc tuta bilməz. Əgər unutqanlıq üzündən müstəhəb oruc niyyəti etsə və zöhrdən əvvəl xatırlasa, müstəhəb orucu pozulsa da, niyyətini qəza orucuna çevirə bilər. Amma zöhrdən sonra agah olsa, ehtiyata əsasən, orucu batildir. Əgər şam azanından sonra xatırlasa orucu düzgündür.

**Məsələ 1540:** Əgər insana Ramazan ayının orucundan başqa, müəyyən bir oruc vacib olsa, məsələn, müəyyən bir günü oruc tutmasına dair nəzir etsə, əgər sübh azanına kimi qəsdən niyyət etməsə, orucu batildir. Əgər həmin günün orucunun ona vacib olduğunu bilməsə ya unudsa və zöhrdən əvvəl yadına düşsə, orucu batil edən bir əməl etməmişsə, niyyət etsə, orucu düzgündür. Əgər zöhrdən sonra yadına düşsə, Ramazan ayının orucunda deyilən ehtiyata riayət etməlidir.

**Məsələ 1541:** Əgər vacib olan, lakin günü müəyyən olmayan oruc üçün – kəffarə orucu kimi – qəsdən zöhrə

yaxınlaşana qədər niyyət etməsə, eybi yoxdur. Hətta niyyətdən əvvəl oruc tutmamaq qərarına gəlsə yaxud oruc tutub-tutmamaqda tərəddüd etsə, əgər orucu batil edən əməllərdən etməmişsə və zöhrdən əvvəl niyyət etsə, orucu düzgündür.

**Məsələ 1542:** Əgər kafir Ramazan ayında, zöhrdən əvvəl müsəlman olsa və sübh azanından həmin vaxta kimi orucu batil edən bir əməl etməyibsə, vacib ehtiyata əsasən, “ma fiz-zimmə” (üzərində olan oruc) niyyəti ilə günün sonuna qədər özünü orucu batil edən əməllərdən saxlamalıdır. Əgər belə etməsə, qəzasını yerinə yetirməlidir.

**Məsələ 1543:** Əgər bir şəxs Ramazan ayının günü zöhrdən əvvəl sağalsa və həmin vaxta qədər orucu batil edən bir şey etməmişsə, vacib ehtiyata əsasən, oruc niyyəti edib həmin günün orucunu tutmalıdır. Amma zöhrdən sonra sağalsa, həmin günün orucu ona vacib deyildir və sonradan qəzasını yerini yetirməlidir.

**Məsələ 1544:** İnsan Şaban ayının sonuncu, Ramazan ayının isə birinci günü olduğunda şəkk etsə, həmin günü oruc tutması vacib deyildir. Əgər oruc tutmaq istəsə, Ramazan ayı orucunun niyyətini edə bilməz. Amma “Ramazan ayıdırsa, Ramazan ayının orucu və Ramazan ayı deyilsə, qəza və bu kimi oruclardan sayılsın!” – deyə niyyət etsə, orucunun düzgün olması uzaq nəzər deyil, amma yaxşı olar ki, qəza və bu kimi oruc niyyəti etsin. Əgər sonradan Ramazan ayı olduğu məlum olsa, Ramazan ayından hesab olunar. Əgər mütləq oruc niyyəti etsə və sonradan Ramazan ayı olduğu məlum olsa, yenə də kifayət edər.

**Məsələ 1545:** Əgər insan Şaban ayının sonuncu, Ramazan ayının isə birinci günü olduğunda şəkk etsə və həmin günü qəza, müstəhəb və bu kimi oruc niyyəti ilə oruc tutsa və gün ərzində Ramazan ayı olduğunu anlasa, Ramazan ayının orucu üçün niyyət etməlidir.

**Məsələ 1546:** Əgər Ramazan ayının orucu kimi müəyyən olan vacib bir orucda “orucumu batil edim, yoxsa etməyim?” – deyə tərəddüd etsə və yaxud orucunu batil etmək qərarına gəlsə, əgər yenidən oruc niyyəti etməsə, orucu batildir. Əgər yenidən oruc niyyəti etsə, vacib ehtiyata əsasən, həmin günün orucunu tamamlamalı və sonradan da qəzasını tutmalıdır.

**Məsələ 1547:** Müstəhəb olan və ya kəffarə orucu kimi vaxtı müəyyən olmayan vacib bir orucda, əgər orucu batil edən bir əməl etmək niyyətində olarsa və ya belə bir əməli edib-etməmək barədə tərəddüdə düşərsə, əgər həmin əməli etməyibsə və vacib orucda zöhrdən əvvəl və müstəhəb orucda isə şam azanından əvvəl yenidən oruc niyyəti edərsə, orucu düzgündür.

## Orucu batil edən əməllər

**Məsələ 1548:** Səkkiz əməl orucu batil edir:

**1.** Yemək və içmək.

**2.** Cinsi yaxınlıq (cima).

**3.** İstimna (istimna, “ononizm” – insanın başqası ilə cinsi yaxınlıq etmədən, spermanın xaric olmasına səbəb olan bir iş etməsinə deyilir. Onun qadında gerçəkləşməsi 344-cü məsələdə bəyan olundu).

**4.** Vacib ehtiyata əsasən, Allah, Peyğəmbər(s) və onun canişinlərinin(ə) adından yalan demək.

**5.** Vacib ehtiyata əsasən, tozu boğaza çatdırmaq.

**6.** Sübh azanına kimi cənabət, heyz və nifas halında qalmaq.

**7.** Axıcı (maye) vasitələrlə imalə etmək.

**8.** Bilərəkdən qusmaq.

Bunlar gələcək məsələlərdə izah olunacaq.

## 1. Yemək və içmək

**Məsələ 1549:** Əgər oruc tutan şəxs oruc tutduğunu bildiyi halda, qəsdən bir şey yesə ya içsə, orucu batil olar; istər çörək və su kimi yeyilib-içilməsi adi olsun, istərsə də torpaq və ağac şirəsi kimi yeyilməsi adi olmasın, istər az, istərsə də çox olsun. Hətta əgər diş fırçasını ağzından çıxarıb yenə ağzına salsa və onun rütubətini udsa, orucu batil olar. Amma fırçanın rütubəti "xarici rütubətdir" – deyilməyəcək şəkildə ağızın suyunda aradan gedərsə, onu udmağın eybi yoxdur.

**Məsələ 1550:** Yemək yeyərkən sübh olduğunu bilsə, ağzından tikəni çıxarmalıdır. Əgər bilərəkdən udsa, orucu batildir və sonradan deyiləcək göstərişə əsasən, kəffarə də vacib olar.

**Məsələ 1551:** Əgər oruc tutan şəxs bir şeyi səhvən yesə və ya içsə, orucu batil olmaz.

**Məsələ 1552:** İynə və sistem – iynə bədəni gücləndirmək (qida) üçün yaxud sistem şəkərli-duzlu olsa belə – orucu batil etmir. Həmçinin təngənəfəslik (astma) üçün istifadə olunan dərman da eyni hökmü daşıyır. Əgər dərmanın təkcə ağ ciyərə daxil etsə, orucu batil etməz. Eləcə də gözə və ya qulağa dərman tökmək, hətta dadı boğaza çatsa belə, orucu batil etməz. Əgər dərmanı buruna töksə və dərman boğaza çatmasa orucu batil etmir.

**Məsələ 1553:** Əgər oruc tutan şəxs, dişinin arasında qalan bir şeyi bilərəkdən udarsa, orucu batil olar.

**Məsələ 1554:** Oruc tutmaq istəyən şəxsə azandan əvvəl dişlərini təmizləmək lazım deyildir. Amma dişlərinin arasında qalan yemək qırıntısının gündüz boğazına gedəcəyini bilərsə, onu təmizləməlidir.

**Məsələ 1555:** Agız suyunu udmaq, turş və buna bənzər şeyi fikirləşməklə ağzına yığılan suyu udmaq orucu batil etmir.

**Məsələ 1556:** Sinə və başdan gələn bəlğəmi, ağız boşluğuna çatmamış udmağın eybi yoxdur. Amma ağız boşluğuna çatsa, müstəhəb ehtiyata əsasən, onu udmasın.

**Məsələ 1557:** Əgər oruc tutan şəxs susasa və su içmədiyi təqdirdə, öləcəyindən yaxud ona bir zərər toxunacağından ya da dözülməz bir çətinliyə düşəcəyindən qorxsa, bu işlərin qorxusunu aradan aparacaq qədər su içə bilər. Hətta ölüm və bu kimi qorxulu hallarda içməsi vacibdir və bu zaman onun orucu batil olur. Əgər Ramazan ayıdırsa, lazım ehtiyata əsasən, ondan artıq su içməməli və günün qalanında orucu batil edən əməllərdən çəkinməlidir.

**Məsələ 1558:** Adətən, yeməyin boğaza yetişməsinə səbəb olmayan uşaq və quş üçün yeyintini çeynəmək və ya yeməyin dadına baxmaq, təsadüfən boğaza yetişsə belə, orucu batil etməz. Amma insan əvvəlcədən yeməyin boğaza çatacağını bilsə, orucu batil olar və onun qəzasını tutmalı və həmçinin ona kəffarə də vacibdir.

**Məsələ 1559:** İnsan zəifliyi üzündən orucunu yeyə bilməz. Amma onun zəifliyi adətən dözülməsi mümkün olmayacaq dərəcədədirsə, orucunu yeməsinin eybi yoxdur.

## 2. Cinsi yaxınlıq (Cima)

**Məsələ 1560:** Cinsi yaxınlıq orucu batil edir; hətta yalnız dəllək kəsən qədər daxil olsa və sperma gəlməsə belə!

**Məsələ 1561:** Əgər dəllək kəsən yerdən az miqdar daxil olsa və sperma da gəlməsə, oruc batil olmaz. Amma sünnət yeri olmayan şəxsdə sünnət yerindən az miqdarı daxil olsa belə, orucu batil olur.

**Məsələ 1562:** Əgər bilərəkdən cinsi yaxınlıq etmək istəsə və dəllək kəsən yerə qədər daxil olub-olmadığında şəkk etsə, bunun hökmü 1547-ci məsələyə müraciət

etməklə aydın olar. Əgər batil edən bir əməl etməyibsə ona kəffarə vacib deyildir.

**Məsələ 1563:** Əgər insan oruc olduğunu unudub cinsi yaxınlıq etsə, yaxud onu cinsi yaxınlığa məcbur etsələr, belə ki, bu iş onun ixtiyarından kənar olsa, onun orucu batil olmaz. Amma cinsi yaxınlıq zamanı yadına düşsə, yaxud məcburiyyət onun üzərindən götürülsə, dərhal cinsi yaxınlığı tərk etməlidir və əgər tərk etməsə, orucu batildir.

### 3. İstimna

**Məsələ 1564:** Əgər oruc tutan istimna etsə (istimnanın mənası 1548-ci məsələdə deyildi) orucu batil olar.

**Məsələ 1565:** Əgər insandan ixtiyarsız sperma xaric olsa, orucu batil deyildir.

**Məsələ 1566:** Oruc tutan şəxs gündüz yatacağı təqdirdə, "möhtəlim"-i yuxuda spermanın xaric olacağını bilsə, yatmamaqla əziyyətə düşməsə də, yatması caizdir. Amma yataraq "möhtəlim" olsa, orucu batil olmaz.

**Məsələ 1567:** Əgər oruc tutan sperma xaric olarkən yuxudan ayılsa, onun xaric olmasının qarşısını alması vacib deyildir.

**Məsələ 1568:** Oruc tutub möhtəlim olan şəxs sidiyə çıxmaqla spermanın qalanının kanaldan xaric olacağını bilsə belə, sidiyə çıxa bilər.

**Məsələ 1569:** Möhtəlim olmuş oruc tutan şəxs kanalda sperma qaldığına və qüsldən əvvəl sidiyə çıxmasa, qüsldən sonra ondan sperma xaric olduğunu bilərsə, müstəhəb ehtiyata əsasən, qüsldən əvvəl sidiyə çıxsın.

**Məsələ 1570:** Sperma çıxarmaq məqsədilə zarafat edən və ya özü ilə oynayan şəxsdən sperma gəlməsə, yenidən oruc niyyəti etməsə, orucu batildir. Əgər oruc niyyəti etsə, vacib ehtiyata əsasən, orucunu tamamlayıb, qəzasını da tutmalıdır.

**Məsələ 1571:** Əgər oruc tutan şəxs sperma çıxarmaq məqsədi olmadan, məsələn, öz həyat yoldaşı ilə mazaqlaşsa ya zarafatlaşsa, özündən sperma xaric olmayacağına əmindirsə, təsadüfən ondan sperma xaric olsa belə, orucu düzgündür. Amma spermanın xaric olacağına əmin deyilsə, sperma xaric olacağı təqdirdə, orucu batildir.

### 4. Allah və Peyğəmbər(s) adından yalan demək

**Məsələ 1572:** Oruc tutan şəxs danışmaq, yazmaq, işarə etmək və bu kimi hər hansı bir yolla Allah, Peyğəmbər(s) və on iki imamlardan(ə) birinin adından bilərəkdən yalan desə, hətta sonra dərhal "yalan dedim" – deyərək tövbə etsə belə, vacib ehtiyata əsasən, orucu batildir. Həmçinin xanım Fatimeyi-Zəhra(ə), digər peyğəmbərlər(ə) və onların vəsiləri(ə) adından da yalan demək müstəhəb ehtiyata əsasən, həmin hökmü daşıyır.

**Məsələ 1573:** Əgər bir şəxs doğru və ya yalan olduğunu bilmədiyi və "hüccət" olmasına dəlil olmayan bir rəvayəti nəql etmək istəsə, vacib ehtiyata əsasən, onu elə nəql etsin ki, Peyğəmbər(s)-ə və imamlara(ə) nisbət verməsin.

**Məsələ 1574:** Əgər doğru olmasına etiqad etdiyi bir şeyi Allah, ya Peyğəmbər(s) adından nəql etsə və sonra yalan olduğunu anlasa, orucu batil olmaz.

**Məsələ 1575:** Əgər bir şeyin yalan olduğunu bilərək, onu Allaha və Peyğəmbər(s)-ə nisbət versə və sonra dediyinin düzgün olduğunu başa düşsə, bu halda əgər bu işin orucu batil etdiyini bilirmişsə, vacib ehtiyata əsasən, orucu tamamlamalı və qəzasını da tutmalıdır.

**Məsələ 1576:** Əgər başqasının uydurduğu yalanı bilərəkdən Allaha, Peyğəmbər(s)-ə və onun canişinlərinə(ə) nisbət versə, vacib ehtiyata əsasən, orucu batil olur. Amma yalanı uyduran şəxsin adından nəql etsə, eybi yoxdur.

**Məsələ 1577:** Əgər oruc tutandan "Peyğəmbər(s) belə buyurubmu?" – deyə soruşsalar, "yox" əvəzinə bilərəkdən

"bəli" desə, yaxud "bəli" əvəzinə bilərəkdən "yox" desə, vacib ehtiyata əsasən, orucu batil olur.

**Məsələ 1578:** Əgər Allahın və Peyğəmbər(s)-in adından düz söz deyib, sonra "yalan demişəm" – desə, və ya gecə onların adından bir yalan deyib, ertəsi gün oruc halında "dünən dediyim söz doğrudur" – desə, ehtiyata əsasən, orucu batil olur. Amma məqsədi verdiyi xəbərin təfsilatını bəyan etməkdirsə, orucu batil olmur.

### 5. Tozu boğaza çatdırmaq

**Məsələ 1579:** Vacib ehtiyata əsasən, qəliz tozu boğaza çatdırmaq orucu batil edir. İstər un kimi yeyilməsi halal olan bir şeyin tozu olsun, istərsə də torpaq kimi yeyilməsi haram olan şeyin tozu olsun.

**Məsələ 1580:** Qəliz olmayan tozu boğaza çatdırmaq orucu batil etmir.

**Məsələ 1581:** Əgər külək vasitəsilə qəliz toz əmələ gəlsə, insan bunu bilib, bacardığı halda ondan qorunmasa və həmin toz boğazına yetirşsə, vacib ehtiyata əsasən, orucu batil olar.

**Məsələ 1582:** Vacib ehtiyata əsasən, oruc tutan siqaret, tənbəki tüstüsünü və bu kimi şeyləri boğaza çatdırmasın.

**Məsələ 1583:** Əgər diqqətsizlikdən toz, tüstü və bu kimi şeylər oruc tutanın boğazına yetişsə, boğazına yetişməyəcəyinə yəqin və ya xatircəmliyi olmuşdursa, orucu düzgündür. Amma boğazına yetişməyəcəyini güman etmişdirsə, yaxşı olar ki, həmin günün orucunu qəza etsin.

**Məsələ 1584:** Əgər oruc olduğunu unudub, diqqətsizlik etsə və ya özündən asılı olmayaraq toz və bu kimi şeylər boğazına yetişsə, orucu batil olmaz.

**Məsələ 1585:** Başı bütövlükdə suya batırmaq orucu batil etməz, lakin bu iş şiddətli məkruhdur.

## 6. Sübh azanına cənabətli, heyz və nifas halında qalmaq

**Məsələ 1586:** Əgər cənabətli şəxs Ramazan ayında bilərəkdən sübh azanına qədər qüsl etməsə, yoxsa vəzifəsi təyəmmüm olan halda bilərəkdən təyəmmüm etməsə, həmin günün orucunu tamamlamalı və başqa bir gündə oruc tutmalıdır. Həmin günün qəza, yoxsa "cəza" orucu olması məlum olmadığından həm həmin günün orucunu Ramazan ayından, həm də həmin günün yerinə tutacaq orucu "üzərində qalmış oruc" (ma fiz-zimmə) niyyəti ilə tutmalı, qəza niyyəti də etməməlidir.

**Məsələ 1587:** Ramazan ayının orucunun qəzasını tutmaq istəyən şəxs sübh azanına qədər bilərəkdən cənabətli halda qalsa, o günü oruc tuta bilməz. Əgər bilərəkdən olmasa, həmin gün oruc tuta bilər, baxmayaraq ki, onu tərk etmək ehtiyata uyğundur.

**Məsələ 1588:** Ramazan ayının gecəsi cənabətli olan bir şəxs bilərəkdən vaxt daralıncaya qədər qüsl verməsə, təyəmmüm edib oruc tutmalıdır və orucu düzgündür.

**Məsələ 1589:** Əgər cənabətli şəxs Ramazan ayında qüslünü unutsa və bir gündən sonra yadına düşsə, həmin günün orucunun qəzasını tutmalıdır. Əgər bir neçə gündən sonra yadına düşsə, cənabətli olduğunu yəqin bildiyi bütün günlər üçün qəza etməlidir, məsələn, əgər üç, ya dörd gün cənabətli qaldığını bilməsə, üç günün orucunu qəza etməlidir.

**Məsələ 1590:** Ramazan ayının gecəsi qüsl və təyəmmümdən heç biri üçün vaxtı olmayan şəxs özünü cənabətli etsə, orucu batildir, ona qəza və kəffarə də vacibdir.

**Məsələ 1591:** Əgər qüsl üçün vaxt olmadığını bilə-bilə özünü cənabətli etsə yaxud vaxt ola-ola bilərəkdən vaxt daralıncaya qədər qüslü təxirə salsa, günahkar olmasına baxmayaraq təyəmmüm etsə, orucu düzgündür.

**Məsələ 1592:** Ramazan ayının gecəsi cənabətli şəxs yatdığı təqdirdə, sübhə qədər oyana bilməyəcəyini bilsə, vacib ehtiyata əsasən, qüsl etmədən yatmamalıdır. Əgər qüsl etməzdən əvvəl ixtiyari olaraq yatsa və sübhə qədər oyanmasa, həmin günün orucunu tamamlamalıdır, ona qəza və kəffarə də vacib olur.

**Məsələ 1593:** Cənabətli şəxs Ramazan ayının gecəsi yatdıqdan sonra oyansa və yenidən yatdığı təqdirdə, sübh azanından əvvəl oyanacağına ehtimal versə, yata bilər.

**Məsələ 1594:** Ramazan ayının gecəsi cənabətli şəxs yatdığı təqdirdə, sübh azanından əvvəl oyanacağına yəqin etsə yaxud əmin olsa, əgər oyandıqdan sonra qüsl etmək qərarında olub, bu qərarla yatsa və sübhə qədər yuxudan durmasa, orucu düzgündür.

**Məsələ 1595:** Ramazan ayının gecəsində cənabətli olan şəxs yatacağı təqdirdə sübh azanından əvvəl oyanacağına əmin olmasa, əgər oyandıqdan sonra qüsl etməli olduğundan qəflətdə olub, yenidən yatsa və sübh azanına qədər oyanmasa, ehtiyata əsasən, həmin orucun qəzası ona vacib olur.

**Məsələ 1596:** Ramazan ayının gecəsində cənabətli olan şəxs bilsə yaxud ehtimal versə ki, yatsa, sübh azanında oyanacaq, bu halda oyanandan sonra qüsl edəcəyini qərara alsa və bu niyyətlə yatsa və sonra yuxudan oyanmasa, həmin günün orucunu tamamlamalı, həm qəza etməli, həm də kəffarə verməlidir. Həmçinin vacib ehtiyata əsasən, oyanacağından sonra qüsl edib-etməmək barəsində tərəddüd etsə də, həmin hökmü daşıyır.

**Məsələ 1597:** Cənabətli şəxs Ramazan ayının gecəsi (bir dəfə) yatıb-oyandıqdan sonra ikinci dəfə yatacağı təqdirdə sübh azanından əvvəl oyanacağına əmin olsa və ya ehtimal versə, habelə oyandıqdan sonra qüsl etmək qərarında olsa, əgər yenidən yatsa və sübh azanına qədər oyanmasa, həmin günün orucunu qəza etməlidir. Əgər

ikinci yuxudan oyandıqdan sonra üçüncü dəfə yatıb, sübh azanına qədər oyanmasa, həmin günün orucunu qəza etməlidir və müstəhəb ehtiyata əsasən, kəffarə də versin.

**Məsələ 1598:** İnsanın möhtəlim olduğu yuxu birinci yuxu hesab olunur. Buna əsasən, əgər oyandıqdan sonra yenidən yatsa və sübh azanına qədər oyanmasa, ötən məsələdə deyildiyi kimi, həmin günün orucunu qəza etməlidir.

**Məsələ 1599:** Əgər oruc tutan gündüz möhtəlim olsa, dərhal qüsl etməsi vacib deyildir.

**Məsələ 1600:** Ramazan ayında sübh azanından sonra oyanıb möhtəlim olduğunu görsə, azandan əvvəl möhtəlim olduğunu anlasa belə, orucu düzgündür.

**Məsələ 1601:** Ramazan ayının orucunun qəzasını tutmaq istəyən şəxs sübh azanından sonra oyanıb, möhtəlim olduğunu görüb, sübh azanından əvvəl möhtəlim olduğunu anlasa, həmin günü Ramazan ayının orucunun qəzası niyyəti ilə oruc tuta bilər.

**Məsələ 1602:** Əgər qadın sübh azanından əvvəl heyz yaxud nifasdan pak olsa və bilərəkdən qüsl etməsə və ya vəzifəsi təyəmmüm olduğu halda təyəmmüm etməsə, həmin günün orucunu tamamlamalı və qəzasını da tutmalıdır. Əgər Ramazan ayının qəzasında da bilərəkdən qüsl və ya təyəmmüm etməsə, vacib ehtiyata əsasən, həmin günü oruc tuta bilməz.

**Məsələ 1603:** Ramazan ayının gecəsində heyz və ya nifasdan pak olan qadın vaxt daralana qədər bilərəkdən qüsl etməsə, təyəmmüm etməlidir və (bu halda) tutduğu orucu da düzgündür.

**Məsələ 1604:** Əgər qadın Ramazan ayında sübh azanından əvvəl heyz yaxud nifasdan pak olsa və qüsl etməyə vaxtı olmasa, təyəmmüm etməlidir, amma sübh azanına kimi oyaq qalması lazım deyil. Vəzifəsi təyəmmüm olan cənabətli şəxsin də hökmü belədir.

**Məsələ 1605:** Əgər Ramazan ayında sübh azanına yaxın heyz və ya nifas qanından pak olsa, qüsl və təyəmmümdən heç biri üçün vaxtı qalmasa, orucu düzgündür.

**Məsələ 1606:** Əgər qadın sübh azanından heyz və ya nifas qanından pak olsa yaxud gün ərzində heyz ya nifas qanı görsə, axşama yaxın olsa da, orucu batildir.

**Məsələ 1607:** Əgər qadın heyz yaxud nifas qüslünü unudsa, bir və ya bir neçə gündən sonra yadına düşsə, tutduğu oruclar düzgündür.

**Məsələ 1608:** Əgər qadın Ramazan ayında sübh azanından əvvəl heyz və ya nifas qanından pak olsa və qüsl etməkdə səhlənkarlıq edib, sübh azanına qədər qüsl etməsə və vaxt daraldığı zaman təyəmmüm etməsə, – ötən məsələdə deyildiyi kimi – həmin günün orucunu tamamlamalı, qəzasını da tutmalıdır. Amma səhlənkarlıq etməsə və məsələn, qadınlar hamamının açılmasını gözləsə, üç dəfə yatıb azana qədər qüsl etməsə belə, təyəmmüm etməkdə də səhlənkarlıq etməsə, orucu düzgündür.

**Məsələ 1609:** "Kəsirə" istihazəli qadın üzərinə vacib olan qüslləri 394-cü məsələsində deyildiyi şəkildə istihazə hökmlərinə əməl etməsə də, orucu düzgündür. Həmçinin "mütəvəssitə" istihazəli qadın qüsl etməsə belə, orucu düzgündür.

**Məsələ 1610:** Bədəninin bir yerini meyitin bədəninə toxunduran şəxs məssi-meyyit (meyitə toxunmaq) qüslü vermədən oruc tuta bilər. Əgər oruc halında meyitə toxunsa da, orucu batil olmaz.

## 7. İmalə etmək

**Məsələ 1611:** Axıcı (maye) vasitə ilə imalə etmək, çarəsizlik üzündən və müalicə üçün olsa da, orucu batil edər.

## 8. Qusmaq

**Məsələ 1612:** Oruc tutan bilərəkdən qussa, əgər xəstəlik və bu kimi səbəblər vasitəsilə çarəsizlik üzündən olsa da, orucu batildir. Amma ixtiyarsız və ya səhvən qussa, eybi yoxdur.

**Məsələ 1613:** Əgər gecə bir şey yesə və bu yemək vasitəsilə gündüz ixtiyarsız olaraq qusacağını bilsə, orucu düzgündür.

**Məsələ 1614:** Oruc tutan şəxs bacarırsa, qusmağının qarşısını alsın və əgər onda bu hal yaransa, onun qarşısını alması lazım (vacib) deyildir.

**Məsələ 1615:** Oruc tutan şəxsin boğazına milçək getsə və yemək deyilməyəcək qədər boğazdan aşağı enmişsə, onu çıxarmaq lazım deyil və orucu da düzgündür. Amma əgər bu qədər aşağı getməmişsə, qusmaqla olsa belə, onu çıxarmalıdır. Amma qusmağın ona zərəri, ya artıq məşəqqəti olsa, çıxarması lazım deyil. Bu halda onu qusub çıxarmasa və udsa, orucu batil olar. Əgər onu qusub çıxarsa da, orucu batil olur.

**Məsələ 1616:** Əgər oruc tutan səhvən bir şeyi udsa və mədəsinə çatmamış oruc olduğunu yadına salsa, aşağıda olduğundan yemək adlanmayacaq qədər onu mədəsinə daxil etsə, onu bayıra çıxarması lazım deyil və orucu da düzgündür.

**Məsələ 1617:** Əgər gəyirməklə bir şeyin boğazından çıxacağına yəqin etsə, bu, qusmaq adlanacaq tərzdədirsə, bilərəkdən gəyirməməlidir, amma yəqin olmasa , eybi yoxdur.

**Məsələ 1618:** Əgər oruc tutan şəxs gəyirdikdə boğazına və ya ağzına bir şey gəlsə, onu çölə tökməlidir. Əgər ixtiyarsız udsa, orucu düzgündür.

## Orucu batil edən əməllərin hökmləri

**Məsələ 1619:** Əgər insan bilərəkdən və ixtiyari olaraq orucu batil edən bir iş görsə, orucu batildir. Əgər bilərəkdən olmasa, eybi yoxdur. Amma cənabətli olan şəxs 1602-ci məsələdə deyildiyi kimi, yatıb sübh azanına qədər qüsl verməsə, orucu batil olar. Amma orucu batil edən əməllərdən bəzisinin orucu batil etdiyini bilməsə, bu bilməməzlikdə səhlənkarlıq etməsə və bu barədə şübhəsi də olmasa, yaxud şəriət dəlilinə istinad edərək həmin işi görsə, yemək, içmək və cinsi yaxınlıqdan başqa işlərdə orucu batil olmaz.

**Məsələ 1620:** Əgər oruc tutan səhvən orucu batil edən əməllərdən birini etsə və orucunun batil olması inancı ilə bilərəkdən ikinci dəfə həmin işlərdən birini yerinə yetirsə, ötən məsələdəki hökm ona da aid olar.

**Məsələ 1621:** Əgər oruc tutan şəxsin boğazına zorla bir şey töksələr, orucu batil olmaz. Amma onu orucunu yemək, içmək və ya cinsi yaxınlıqla məcbur etsələr, məsələn, "yemək yeməsən, malına və canına zərər verəcəyik" – desələr, o da zərərin qarşısını almaq üçün bir şey yesə, orucu batil olar. Bu üç əməldən başqalarında da vacib ehtiyata əsasən, batil olar.

**Məsələ 1622:** Oruc tutan şəxs boğazına nəyisə tökəcəklərini və ya onu orucunu açmağa məcbur edəcəklərini bilsə, həmin yerə getməməlidir. Əgər getsə və çarəsizlik üzündən orucu batil edən işlərdən görsə, orucu batil olar. Əgər boğazına zorla bir şey tökərlərsə, vacib ehtiyata əsasən, eyni hökmü daşıyır.

## Oruc tutan şəxsə məkruh olan əməllər

**Məsələ 1623:** Bir neçə əməl oruc tutan şəxsə məkruhdur. Bunlar aşağıdakılardır:

**1.** Dadı və qoxusu boğaza yetişdiyi təqdirdə gözə dərman tökmək və sürmə çəkmək.

**2.** Qan almaq və hamama getmək kimi orqanizmin zəifləməsinə səbəb olan hər bir əməl.

**3.** Buruna dərman tökmək, əgər boğazına çatmasını bilməsə; amma boğazına çatacağını bilsə, bu əməl caiz deyildir.

**4.** Ətirli bitkiləri iyləmək.

**5.** Qadının suda oturması.

**6.** Fitil (Şam) işlətmək.

**7.** Bədəndə olan paltarı islatmaq.

**8.** Diş çəkdirmək və ağızdan qan gəlməyə səbəb olan hər hansı bir işi görmək.

**9.** Yaş çöplə dişləri fırçalamaq.

**10.** Lüzumsuz olaraq ağıza su və ya bu kimi maye almaq.

Həmçinin insanın spermanın gəlməsi məqsədi olmadan öz arvadını öpməsi və ya şəhvətini təhrik edən hər hansı bir iş görməsi məkruhdur.

## Qəza və kəffarə vacib olan yerlər

**Məsələ 1624:** Əgər bir şəxs Ramazan ayının orucunu yemək, içmək, cinsi yaxınlıq, istimna və ya sübh azanına qədər cənabətli qalmaqla batil etsə, bunu bilərəkdən, ixtiyarı ilə, məcburiyyət və çarəsizlik üzündən olmasa, ona qəza etməkdən əlavə, kəffarə də vacib olur. Müstəhəb ehtiyata əsasən, bu söylənənlərdən qeyrisi ilə orucunu batil edərsə, qəza etməkdən əlavə, kəffarə də versin.

**Məsələ 1625:** Əgər bir şəxs orucunun batil olmadığına qəti etiqadı olduğu halda, qeyd edilənlərdən birini yerinə yetirsə, ona kəffarə vacib olmaz. Həmçinin yetkinlik yaşının əvvəllərində olan uşaqlar kimi, orucun onlara vacib olduğunu bilməyənlərin də hökmü belədir.

## Orucun kəffarəsi

**Məsələ 1626:** Ramazan ayında orucu yeyən şəxsin kəffarəsi ya bir qul azad etmək, ya sonrakı məsələdə deyiləcək göstərişə əsasən, iki ay oruc tutmaq, ya altmış yoxsulu doyuzdurmaq, ya da hər birinə 750 qramdan ibarət bir müdd təam, yəni, buğda, arpa, çörək və bu kimi şey verməkdir. Əgər bunlar onun üçün mümkün olmasa, mümkün olduğu qədər sədəqə verməli, bu da mümkün olmasa, tövbə etməlidir. Vacib ehtiyata əsasən, hər vaxt imkanı olsa, kəffarəni ödəməlidir.

**Məsələ 1627:** Ramazan ayının iki ay kəffarəsini tutmaq istəyən şəxs bu ayı bütün və sonrakı ayın bir gününü (yəni, 31 gün) ardıcıl tutmalıdır. Əgər onun qalanı ardıcıl olmasa, eybi yoxdur.

**Məsələ 1628:** İki ay Ramazan ayının kəffarəsini tutmaq istəyən şəxs ardıcıl tutmalı olduğu otuz bir günün ərzində "Qurban" bayramı kimi oruc tutulması haram və yaxud oruc tutulması vacib olan bir günə təsadüf edəcəyi bir vaxtda kəffarə orucunu tutmağa başlamamalıdır.

**Məsələ 1629:** Ardıcıl olaraq oruc tutmalı olan şəxs onların arasında üzrsüz olaraq bir gün oruc tutmasa, oruclarını yenidən ardıcıl tutmalıdır.

**Məsələ 1630:** Əgər ardıcıl olaraq oruc tutmalı olduğu günlər arasında heyz, nifas və ya məcburi səfərə çıxmaq kimi qeyri-ixtiyari bir üzrlə qarşılaşsa, üzrü aradan qalxdıqdan sonra orucları yenidən tutması vacib deyil, əksinə üzrü aradan qalxdıqdan sonra orucların qalanını yerinə yetirsin.

**Məsələ 1631:** Əgər orucunu haram bir işlə batil etsə, istər həmin iş şərab və zina kimi əslində (zatən) haram olsun, istərsə də insana ümumi zərər yetirən halal təam yemək və ya öz əyalı ilə heyz halında cinsi yaxınlıq etmək kimi müəyyən bir səbəb üzündən haram olsun, bir kəffarə kifayətdir. Amma müstəhəb ehtiyata əsasən, cəm kəffarəsi

versin, yəni, bir qul azad etsin, iki ay oruc tutsun, altmış yoxsulu doyuzdursun və yaxud onların hər birinə bir müdd buğda, arpa, çörək və bu kimi şeylər versin. Əgər ona hər üçünü vermək çətin olsa, onların hər hansı biri mümkündürsə, onu da versin.

**Məsələ 1632:** Əgər oruc tutan şəxs bilərəkdən Allah və Peyğəmbər(s)-in adından yalan danışsa, kəffarəsi yoxdur, amma müstəhəb ehtiyata əsasən, kəffarə versin.

**Məsələ 1633:** Əgər oruc tutan Ramazan ayının bir günündə bir neçə dəfə yeyib-içsə, cinsi yaxınlıq etsə və ya istimna etsə, onların hamısı üçün bir kəffarə vacibdir.

**Məsələ 1634:** Əgər oruc tutan cinsi yaxınlıq və istimnadan başqa orucu batil edən əməllərdən birini etsə, sonra isə öz halalı (həyat yoldaşı) ilə yaxınlıq etsə, hər ikisi üçün bir kəffarə kifayətdir.

**Məsələ 1635:** Əgər oruc tutan şəxs orucu batil edən halal əməllərdən birini etsə, məsələn, su içsə, sonra isə orucu batil edən haram bir əməl etsə, məsələn, haram yemək yesə, bir kəffarə kifayətdir.

**Məsələ 1636:** Əgər oruc tutan şəxs gəyirməklə ağzına gələn bir şeyi bilərəkdən udsa, vacib ehtiyata əsasən, orucu batil olar; onun həm qəzasını tutmalı, həm də kəffarəsini verməlidir. Əgər həmin şey, yeyilməsi haram olanlardandırsa, məsələn, gəyirdiyi zaman ağzına qan və ya yemək halından çıxmış bir yemək maddəsi gəlsə və onu udsa, yaxşı olar ki, cəm kəffarəsi versin.

**Məsələ 1637:** Müəyyən bir gündə oruc olacağını nəzir edən şəxs, həmin günün orucunu bilərəkdən batil etsə, kəffarə verməlidir. Onun kəffarəsi nəzirin hökmlərində izah olunacaq.

**Məsələ 1638:** Əgər oruc tutan şəxs, sözünə əmin olmadığı bir şəxsin "iftar vaxtıdır" – deməsi ilə orucunu yesə, sonra isə iftar vaxtının olmadığını bilsə və ya iftar olub-olmadığında şəkk etsə, ona həm qəza, həm də kəffarə vacib olur. Əgər

onun sözünün dəlil olmasına inansa, yalnız qəza etməsi lazımdır.

**Məsələ 1639:** Bilərəkdən orucunu batil edən şəxs zöhrdən sonra səfərə çıxsa, yaxud kəffarədən boyun qaçırmaq üçün zöhrdən əvvəl səfərə çıxsa, onun üzərindən kəffarə götürülmür. Hətta əgər zöhrdən əvvəl bir səfərə getməli olsa, yenə də ona kəffarə vacibdir.

**Məsələ 1640:** Oruc tutan şəxs bilərəkdən orucunu pozduqdan sonra heyz, nifas və ya xəstəlik kimi bir üzrlə qarşılaşsa, müstəhəb ehtiyata əsasən – xüsusilə dərman vasitəsilə heyz yaxud xəstəliyi icad etmiş olsa – kəffarə versin.

**Məsələ 1641:** Əgər Ramazan ayının birinci günü olduğunu yəqin edib, bilərəkdən orucunu batil etsə, sonra Şaban ayının axırıncı günü olması məlum olsa, ona kəffarə vacib deyil.

**Məsələ 1642:** Əgər insan Ramazan ayının sonuncu, yoxsa Şəvval ayının birinci günündə olduğunda şəkk edərək bilərəkdən orucunu pozsa, sonra isə Şəvval ayının birinci günü olduğu məlum olsa, ona kəffarə vacib deyildir.

**Məsələ 1643:** Oruc tutan şəxs Ramazan ayında oruc olan arvadı ilə cinsi yaxınlıq etsə, əgər arvadını bu işə məcbur etmişdirsə, həm özünün, həm də ehtiyata əsasən, arvadının kəffarəsini verməlidir. Əgər arvadı cinsi yaxınlığa razı olmuşdursa, hər birinə bir kəffarə vacib olur.

**Məsələ 1644:** Əgər qadın oruc tutan ərini özü ilə cinsi yaxınlığa məcbur etsə, ona ərinin orucunun kəffarəsini vermək vacib deyildir.

**Məsələ 1645:** Əgər oruc tutan şəxs Ramazan ayında öz arvadını cinsi yaxınlığa məcbur etsə və yaxınlıq əsnasında arvadı razı olsa, hər birinə bir kəffarə vacib olar. Müstəhəb ehtiyata əsasən, kişi iki kəffarə versin.

**Məsələ 1646:** Əgər oruc tutan şəxs mübarək Ramazan ayında oruc tutub yatmış arvadı ilə cinsi yaxınlıq etsə, ona

bir kəffarə vacibdir və arvadın orucu düzgündür, kəffarə də ona vacib deyildir.

**Məsələ 1647:** Əgər kişi öz arvadını yaxud arvad öz ərini cinsi yaxınlıqdan başqa orucu batil edən əməllərdən birini etməyə məcbur etsə, onların heç birinə kəffarə vacib deyildir.

**Məsələ 1648:** Səfərə çıxdığı yaxud xəstələndiyi üçün oruc tutmayan şəxs oruc tutmuş arvadını cinsi yaxınlığa vadar edə bilməz. Amma onu məcbur etsə, kişiyə kəffarə vacib deyildir.

**Məsələ 1649:** İnsan kəffarəni yerinə yetirməkdə səhlənkarlıq etməməlidir. Amma dərhal onu yerinə yetirmək lazım deyildir.

**Məsələ 1650:** Əgər insana kəffarə vacib olsa və bir neçə il onu yerinə yetirməsə, ona bir şey əlavə edilməz.

**Məsələ 1651:** Bir günün kəffarəsi üçün altmış yoxsula təam verməli olan şəxs altmış yoxsulun hamısını tapa bilsə, onların payını azaldıb həmin qədər kəffarəni onlara verə bilməz, məsələn, otuz yoxsulun hər birinə iki müdd təam verərək bununla kifayətlənə bilməz. Lakin yoxsulun hər bir əhli-əyalı üçün kiçik olsalar da, həmin yoxsula bir müdd təam verə bilər. Yoxsul şəxs də ailənin vəkaləti və ya onlara – səğir olsa – qəyyumluq haqqına əsasən, qəbul edə bilər. Əgər altmış nəfər yoxsul tapa bilməsə, məsələn, otuz nəfər yoxsul tapsa, hər birinə iki müdd təam verə bilər. Amma vacib ehtiyata əsasən, hər vaxt imkanı olsa, digər otuz yoxsulun hər birinə də bir müdd təam versin.

**Məsələ 1652:** Ramazan ayının orucunun qəzasını tutan şəxs zöhrdən sonra bilərəkdən orucu batil edən əməllərdən birini etsə, on yoxsulun hər birinə bir müdd təam verməlidir və əgər verə bilməsə üç gün oruc tutmalıdır.

## Orucun yalnız qəzası vacib olan yerlər

**Məsələ 1653:** İnsana bir neçə halda (əvvəldə işarə edilən hallardan başqa) ancaq orucun qəzası vacibdir və kəffarə vacib deyildir:

**1.** Ramazan ayı gecəsində cənabətli olan şəxs 1595-ci məsələdə deyildiyi kimi, sübh azanına qədər ikinci yuxudan oyanmasa.

**2.** Orucu batil edən bir iş görməsin və oruc niyyəti də etməsin, ya riya etsin, ya oruc olmamasını niyyət etsin və həmçinin 1546-cı məsələdə geniş şəkildə deyildiyi kimi, orucu batil edən əməllərdən birini görməyi niyyət etsin.

**3.** Ramazan ayında cənabət qüslünü unudub cənabət halında bir gün, ya bir neçə gün oruc tutarsa.

**4.** Ramazan ayında sübh olub-olmadığını araşdırmadan orucu pozan bir əməli etdikdən sonra sübh olduğu məlum olarsa.

**5.** “Sübh olmayıb” – deyən bir şəxsin sözünə əsaslanıb orucu batil edən əməllərdən birini yerinə yetirdikdən sonra sübh olduğu məlum olarsa.

**6.** Ona “sübh oldu” – deyən şəxsin sözünə əmin olmadığı və ya zarafat etdiyini güman etdiyi halda, özü də araşdırmadan orucu batil edən bir əməli yerinə yetirdikdən sonra sübh olduğu məlum olarsa.

**7.** Sözü onun üçün şəriət baxımından dəlil-sübut sayılan, yaxud səhvən onun verdiyi xəbərin dəlil olmasına inanan bir şəxsin sözünə əsaslanaraq iftar edərsə və sonra iftar vaxtı olmadığı məlum olarsa.

**8.** İftar vaxtı olduğunu yəqin edib və bundan əmin olaraq iftar edərsə, sonra da hələ iftar vaxtı olmadığı məlum olarsa; əgər buludlu və bu kimi havada axşam olduğunu güman edib iftar edərsə, sonradan axşam olmadığı məlum olarsa, bu zaman ehtiyata əsasən, orucun qəzası vacibdir.

**9.** Susuzluqdan məzməzə edərsə, yəni, ağzında suyu dolandırarsa və bu zaman ixtiyarsız olaraq udarsa; amma oruc olduğunu unudaraq suyu udarsa və ya susuzluqdan başqa bir əməl üçün məzməzə edərsə, məsələn, dəstəmaz kimi məzməzə etməyin müstəhəb olduğunu nəzərə alıb məzməzə edərsə və ixtiyarsız olaraq suyu udarsa, qəzası yoxdur.

**10.** Bir şəxs ikrah (məcburiyyət), ya zərurət və ya təqiyyə üzündən iftar etsə, ikrah və təqiyyə üzündən etsə; ikrah və təqiyyə hallarına yemək, içmək və cinsi yaxınlıq aiddir, həmçinin vacib ehtiyata əsasən, bunlardan qeyrisində də (qəza vacibdir).

**Məsələ 1654:** Əgər sudan başqa bir şey ağzına alıb ixtiyarsız udsa yaxud suyu burnuna çəkib ixtiyarsız udsa, qəza ona vacib deyildir.

**Məsələ 1655:** Çox məzməzə etmək oruc olan şəxsə məkruhdur. Əgər məzməzə etdikdən sonra ağzının suyunu udmaq istəsə, yaxşı olar ki, ağzının suyunu üç dəfə çölə töksün.

**Məsələ 1656:** Əgər insan məzməzə etdiyi zaman ixtiyarsız olaraq yaxud unutqanlıq üzündən boğazına su gedəcəyini bilsə, məzməzə etməməlidir, amma bu halda məzməzə etsə və su boğazına getməsə, vacib ehtiyata görə, onun qəzası lazımdır.

**Məsələ 1657:** Əgər Ramazan ayında araşdırdıqdan sonra sübhün olması ona məlum olmasa və orucu batil edən bir iş görsə, sonra sübh olması məlum olsa, qəza lazım deyildir.

**Məsələ 1658:** İnsan axşamın olub-olmadığına şəkk etsə, iftar edə bilməz. Lakin sübhün olub-olmadığına şəkk edərsə, araşdırma aparmadan əvvəl də orucu batil edən bir iş görə bilər.

## Qəza orucunun hökmləri

**Məsələ 1659:** Dəli şəxs ağıllanarsa, dəlilik zamanı tutmadığı orucları qəza etməsi vacib deyildir.

**Məsələ 1660:** Əgər kafir müsəlman olsa, kafir olduğu vaxtın orucunun qəzasını tutması vacib deyildir. Amma bir müsəlman kafir olsa və ikinci dəfə dönüb müsəlman olsa, kafir olduğu günlərin orucunu qəzasını tutmalıdır.

**Məsələ 1661:** İnsan sərxoşluq üzündən – hətta məst edici maddəni müalicə məqsədilə qəbul etsə belə – tutmadığı orucu qəza etməlidir.

**Məsələ 1662:** Üzürlü olduğu üçün bir neçə gün oruc tuta bilməyən şəxs sonradan üzrünün nə zaman aradan qalxdığına şəkk edərsə, ehtimal verdiyi çox miqdarın qəzasını tutması vacib deyildir. Məsələn, Ramazan ayından əvvəl səfərə çıxıb, Ramazan ayının beşinci günü, yoxsa altıncı günü səfərdən qayıtdığını bilməsə və ya məsələn, Ramazan ayında səfərə çıxıb, Ramazan ayından sonra səfərdən qayıdarsa, amma Ramazan ayının iyirmi beşində, yoxsa iyirmi altısında səfərə çıxdığını bilməsə, hətta, çox miqdarı yəni, altı günü qəza etmək müstəhəb ehtiyat olsa belə, hər iki təqdirdə, az miqdarı yəni, beş günü qəza edə bilər.

**Məsələ 1663:** Əgər bir neçə Ramazan ayının qəza orucu qalsa, insan hansının qəzasını əvvəl tutsa, eybi yoxdur. Amma sonuncu Ramazan ayının qəzasının vaxtı dar olsa, məsələn, sonuncu ayından beş gün qəzası qalmış olsa və beş gün də Ramazan ayına qalarsa, yaxşı olar ki, əvvəl sonuncu Ramazan ayının qəzasını tutsun.

**Məsələ 1664:** Üzərinə bir neçə Ramazan ayının orucunun qəzası vacib olan bir şəxs tutduğu orucun hansı Ramazan ayının qəzası olduğunu müəyyən etməsə, gecikdirdiyi üçün üzərinə vacib olan kəffarrə ondan götürülsün deyə, son ilin Ramazan ayının qəzası olaraq hesab olunmaz.

**Məsələ 1665:** Ramazan ayının orucunun qəzasını tutan şəxs günortadan əvvəl orucunu batil edə bilər, amma orucunun qəzasının vaxtı dar olarsa, yaxşı olar ki, batil etməsin.

**Məsələ 1667:** Yaxşı olar ki, meyitin qəza orucunu tutmuş şəxs, zöhrdən sonra orucunu batil etməsin.

**Məsələ 1668:** Əgər insan xəstə, heyz və yaxud nifas olduğundan Ramazan ayının orucunu tutmasa və tutmadığı orucları qəza edə biləcək bir zaman keçməmiş ölərsə, həmin orucların qəzası yoxdur.

**Məsələ 1669:** Əgər bir insan xəstələndiyi üçün Ramazan ayının orucunu tuta bilməsə və onun xəstəliyi gələn ilin Ramazan ayına qədər uzansa, tutmadığı orucların qəzası ona vacib deyil, gərək hər gününə bir müdd (750 qram) təam, yəni, buğda, arpa, çörək və bu kimi şeylər fəqirə verilməlidir. Amma başqa bir üzürə görə, məsələn, səfərə çıxdığı üçün oruc tutmasa və onun üzürü gələn orucluğa kimi qalsa, tutmadığı orucları qəza etməlidir və vacib ehtiyata əsasən, hər bir gün üçün də fəqirə bir müdd təam versin.

**Məsələ 1670:** Xəstəlik üzündən Ramazan ayının orucunu tutmayan şəxsin xəstəliyi Ramazan ayından sonra sağalsa, amma sonradan başqa bir üzürün yaranması nəticəsində sonrakı Ramazan ayına qədər qəzasını tuta bilməsə, tutmadığı orucları qəza etməlidir və vacib ehtiyata əsasən, hər gün üçün bir müdd təam da fəqirə versin. Həmçinin Ramazan ayında xəstəlikdən başqa bir üzrü olarsa və Ramazan ayından sonra üzrü aradan qalxarsa, xəstəlikdən oruclarının qəzasını gələcək Ramazan ayına qədər tuta bilməsə də, hökm eynidir.

**Məsələ 1671:** Əgər Ramazan ayında bir üzrə görə oruc tutmasa, Ramazan ayından sonra üzrü aradan getsə və gələn Ramazan ayına kimi bilərəkdən qəza orucunu

tutmasa, orucunu qəza etməli və hər bir gün üçün də fəqirə bir müdd təam verməlidir.

**Məsələ 1672:** Əgər orucun qəzasında səhlənkarlıq etsə, vaxt da dar olsa və vaxt darlığında bir üzr qarşıya çıxsa, qəzasını tutmalıdır və ehtiyata əsasən, hər bir gün üçün fəqirə bir müdd təam versin. Həmçinin üzrü aradan gedəndən sonra oruclarını qəza etməyi qərara alan, amma qəza etməzdən əvvəl vaxt darlığında üzrlə üzləşənin də hökmü belədir.

**Məsələ 1673:** Əgər insanın xəstəliyi bir neçə il davam etsə, sağaldıqdan sonra axırıncı Ramazan ayının qəzasını tutmalı və əvvəlki illərin hər bir günü üçün fəqirə bir müdd təam verməlidir.

**Məsələ 1674:** Hər gün üçün fəqirə bir müdd təam verməli olan şəxs bir neçə günün kəffarəsini bir fəqirə verə bilər.

**Məsələ 1675:** Ramazan ayının orucunu bir neçə il gecikdirsə, qəzasını tutmalı və birinci ilin təxirinə görə, hər bir gün üçün fəqirə bir müdd təam verməlidir. Amma sonrakı neçə illərin təxiri üçün ona bir şey vacib deyildir.

**Məsələ 1676:** Əgər Ramazan ayının orucunu bilərəkdən tutmasa, onun qəzasını yerinə yetirməli və hər bir gün üçün iki ay oruc tutmalı, ya altmış fəqirə təam verməli, ya da bir qul azad etməlidir. Əgər gələn Ramazan ayına kimi həmin orucun qəzasını yerinə yetirməsə, vacib ehtiyata əsasən, hər gün üçün bir müdd təam da kəffarə olaraq fəqirə verməlidir.

**Məsələ 1677:** Əgər Ramazan ayının orucunu bilərəkdən tutmasa və gündə neçə dəfə cinsi yaxınlıq ya istimna etsə, kəffarə təkrar olunmayacaq. Həmçinin orucu batil edən digər əməllərdən bir neçə dəfə görərsə, məsələn, bir neçə dəfə xörək yesə, bir kəffarə kifayətdir.

**Məsələ 1678:** Ata vəfat edəndən sonra ən böyük oğul vacib ehtiyata əsasən, onun Ramazan ayının qəza orucunu,

1365-ci məsələdə namazın hökmlərində qeyd edilən qayda ilə əmələ gətirməlidir və əgər vərəsələr razı olsalar, hətta meyitin malından hər gün üçün bir müdd (750 qram) təam fəqirə verə bilərlər.

**Məsələ 1679:** Əgər ata Ramazan ayının orucundan başqa bir vacib orucu tutmasa, nəzir orucu kimi, yaxud əcir olub tutmasa, onun qəzası ən böyük oğula lazım (vacib) deyildir.

## Müsafirin orucunun hökmləri

**Məsələ 1680:** Səfərdə dördrükətli namazları iki rükət qılmalı olan müsafir oruc tutmamalıdır. Namazını tamam qılan müsafir peşəsi səfər olan və ya səfəri günah səfəri olan şəxs kimi səfərdə oruc tutmalıdır.

**Məsələ 1681:** Ramazan ayında səfərə çıxmağın eybi yoxdur, amma bu, orucdan boyun qaçırtmaq üçün olsa, məkruhdur və həmçinin Ramazan ayında mütləq səfər həmin hökmdədir. Həcc, ümrə və digər zəruri səbəblər üzündən olan səfərlər istisnadır.

**Məsələ 1682:** Əgər Ramazan ayının orucundan başqa müəyyən olan bir oruc insana vacib olsa, əgər icarə ya bu kimi şeylə vacib olmuşsa ya "etikaf"-ın üçüncü günü olsa, həmin gün səfər edə bilməz və əgər səfərdə olsa, belə ki, mümkündürsə, on gün bir yerdə qalmaq niyyəti etsin və həmin günü oruc tutsun. Amma həmin günün orucu nəzirlə vacib olmuşsa, zahirən, həmin gün səfər etmək caizdir və "qəsdi iqamət" (on gün qalmaq niyyəti) vacib deyildir. Lakin yaxşı olar ki, əlacsız olmayana qədər səfərə çıxmasın və əgər səfərdədirsə, "qəsdi iqamət" etsin. Amma and içmək və ya əhd etməklə vacib olubsa, vacib ehtiyata əsasən, səfər etməməli, əgər səfərdə olsa, "qəsdi iqamət" etməlidir.

**Məsələ 1683:** Əgər insan müstəhəb oruc tutacağını nəzir etsə, amma gününü müəyyən etməsə, onu səfərdə tuta bilməz. Amma səfərdə müəyyən bir gündə oruc olacağını

nəzir etsə, onu səfərdə tutmalıdır. Həmçinin müəyyən bir gündə, istər səfərdə olsun, istərsə də olmasın, oruc tutacağını nəzir etsə, həmin gün səfərdə olsa da, oruc tutmalıdır.

**Məsələ 1684:** Müsafir dilək istəməkdən ötrü Mədineyi-Münəvvərədə üç gün müstəhəb oruc tuta bilər, vacib ehtiyata əsasən, həmin üç gün çərşənbə (3-cü gün), cümə axşamı (4-cü gün) və cümə günü (5-ci gün) olsun.

**Məsələ 1685:** Müsafirin orucunun batil olmasını bilməyən şəxs səfərdə oruc tutarsa və gün ərzində məsələnin hökmünü başa düşərsə, orucu batil olar və əgər axşama kimi başa düşməsə, orucu düzgündür.

**Məsələ 1686:** Əgər müsafir səfərdə olduğunu unutsa ya müsafir orucunun batil olmasını unutsa və səfərdə oruc tutsa, ehtiyata əsasən, orucu batildir.

**Məsələ 1687:** Əgər oruc tutan şəxs zöhrdən sonra səfərə çıxsa, ehtiyata əsasən, orucunu tamamlamalıdır və bu halda onun qəzası deyildir. Əgər zöhrdən əvvəl səfər etsə, vacib ehtiyata əsasən, xüsusi ilə gecədən səfər niyyəti olsa, həmin günü oruc tuta bilməz. Amma hər halda "həddi-tərəxxüs"ə yetişməzdən əvvəl oruc batil edən bir iş görməməlidir. Əks təqdirdə, ona kəffarə vacib olar.

**Məsələ 1688:** Müsafir zöhrdən əvvəl vətəninə və ya on gün qalmaq istədiyi bir yerə yetişərsə, istər dan yeri sökülməmişdən əvvəl səfərə çıxsın, istərsə də oruc tutub səfərə çıxsın, orucu batil edən bir iş görməmişdirsə, ehtiyata əsasən, həmin gün oruc tutmalıdır və bu halda onun qəzası yoxdur. Əgər orucu batil edən bir əməl etmişdirsə, həmin günün orucu ona vacib deyildir, sonradan onun qəzasını tutmalıdır.

**Məsələ 1689:** Əgər müsafir zöhrdən sonra öz vətəninə ya on gün qalmaq istədiyi bir yerə yetişsə, ehtiyata əsasən, orucu batildir və onun qəzasını tutmalıdır.

**Məsələ 1690:** Müsafir və oruc tutmağa üzrü olan bir kəsin Ramazan ayının günü cinsi yaxınlıq etməsi, yemək və içməklə özünü tamamilə doyuzdurması məkruhdur.

## Oruc tutması vacib olmayan şəxslər

**Məsələ 1691:** Qocalığına görə oruc tuta bilməyən və ya oruc tutmaqla əziyyətə düşən şəxsə oruc tutmaq vacib deyildir. Amma ikinci halda fəqirə hər gün üçün bir müdd təam – buğda, arpa, çörək və bu kimi şeylər – verilməlidir.

**Məsələ 1692:** Qocalığa görə oruc tutmayan şəxs Ramazan ayından sonra oruc tuta bilərsə, müstəhəb ehtiyata əsasən, tutmadığı orucların qəzasını yerinə yetirsin.

**Məsələ 1693:** Əgər insanda susuzluq xəstəliyinə tutulsa və susuzluğa dözə bilməsə və ya ona çox çətin olsa, oruc ona vacib deyildir. Amma ikinci halda hər gün üçün yoxsula bir müdd təam verməlidir. Əgər sonradan oruc tuta bilsə, qəza etməsi vacib deyildir.

**Məsələ 1694:** Doğum vaxtı yaxınlaşan qadının özünə ya bətnindəki uşağa oruc zərər yetirsə, oruc ona vacib deyildir və hər gün üçün fəqirə bir müdd təam verməli və hər iki halda tutmadığı orucların qəzasını tutmalıdır.

**Məsələ 1695:** Uşağa süd verən qadının, istər uşağın anası, istər dayəsi, istərsə də təmənnasız süd verən qadın olsun, südü az olsa və oruc tutması özünə və ya əmizdirdiyi uşağa zərəri olsa, oruc tutmaq ona vacib deyildir. Hər gün üçün bir müdd təam fəqirə verməlidir. Hər iki halda tutmadığı orucları qəza etməlidir. Amma vacib ehtiyata əsasən, bu hökm uşağa ancaq bu yolla süd verməyə aiddir, amma uşağa başqa yolla süd vermək mümkündürsə, məsələn, uşağa süd verməkdə bir neçə qadın iştirak etsə yaxud əmzik və şüşə qab ilə süd vermək mümkün olsa, bu hökmün sübut olunması mübahisəlidir.

## Ayın əvvəlinin sübut olunması yolları

**Məsələ 1696:** Ayın əvvəli dörd yolla sübut olunur:

**1.** İnsan özü ayı görsün.

**2.** Sözlərindən yəqinlik və ya xatircəmlik hasil edilən bir qrup şəxsin "ayı gördük" – deməsi ilə və ya yəqinlik yaxud əqli mənşəyi olan xatircəmlik hasil olan hər hansı bir məlumatla.

**3.** İki ədalətli kişinin, "gecə ayı gördük" – deməsi ilə; amma ayın sifətini bir-birinə əks deyərlərsə, ayın əvvəli sübut olunmaz. Həmçinin insan onların səhvə yol verdiyinə yəqin edərsə ya xatircəm olarsa və ya onların verdiyi şəhadətin bir-birinə zidd (yaxud bir-birinə zidd hökmündə) olarsa, ayın əvvəli sübut olunmaz, məsələn, əgər şəhər əhalisinin çox hissəsi ayı görmək üçün baxdıqları halda iki ədalətli kişidən başqa heç bir kimsə ayı gördüyünü iddia edərsə, başqaları isə görməsə, belə ki, ayın yerini bilmək və iti görmək və digər xüsusiyyətlərdə birinci iki ədalətli şəxs kimi olan iki ayrı ədalətli şəxs onların arasında olarsa, hava da açıq-aydın olarsa, həmin iki nəfərin görməsinə ehtimal olunan bir maneə də olmasa, bu halda ayın əvvəli iki nəfər ədalətli şəxsin şəhadəti ilə sübut olunmaz.

**4.** Şaban ayının əvvəlindən otuz gün keçərsə, Ramazan ayının əvvəli sübut olunur və Ramazan ayının əvvəlindən otuz gün keçməsi ilə də Şəvval ayının əvvəli sübut olunur.

**Məsələ 1697:** Şəriət hakiminin hökmü ilə ayın əvvəli sübut edilməz. Amma onun hökmündən və ya ayın (əvvəli) olmasının sübut edilməsi ilə ayın görünməsinə xatircəmlik hasil olsa, (ayın əvvəli sübut olunar).

**Məsələ 1698:** Ayın əvvəli astronomların deməyi ilə sübut olunmur, amma insan onların dediklərindən yəqinlik hasil edərsə yaxud əmin olarsa, onların sözünə əməl etməlidir.

**Məsələ 1699:** Ayın yüksəkdə olması və ya gec batması əvvəlki gecənin ayın ilk gecəsi olmasına dəlil deyil.

Həmçinin ayın kənarda şəfəqin görünməsi ayın ikinci gecəsi olmasına dəlil deyildir.

**Məsələ 1700:** Əgər bir şəxsə Ramazan ayı sübut olunmadığı üçün oruc tutmasa və sonradan əvvəlki gecənin ayın əvvəli olduğunu anlayarsa, həmin günün orucunu qəza etməlidir.

**Məsələ 1701:** Əgər bir şəhərdə ayın əvvəli sübut olunsa, bu, üfüqü həmin şəhərlə eyni olan digər şəhərlərə də aid olar. Burada üfüqün müştərəkliyindən məqsəd odur ki, əgər birinci şəhərdə ay görünsə, ikinci şəhərdə də bulud kimi maneə olmasa, görünəcəkdir. Bu da o zaman gerçəkləşir ki, ikinci şəhər birinci şəhərin qərbində yerləşərsə, en xətt üzrə ona yaxın olsun. Əgər onun şərqində yerləşərsə, en xəttinin yaxınlığı ilə yanaşı perpendikulyar xətt üzrə də çox fərq olmasın.

**Məsələ 1702:** Ramazan ayının sonuncu günü, yoxsa Şəvval ayının birinci günü olduğunu bilməyən şəxs, oruc tutmalıdır. Amma gün ərzində Şəvval ayının birinci günü anlayarsa, orucunu açmalıdır.

**Məsələ 1703:** Əgər həbsdə olan şəxs Ramazan ayı olmasını yəqin edə bilməsə, gümanına əməl etməlidir. Amma daha güclü güman əldə edə bilsə, zəif gümana əməl edə bilməz. Ən güclü ehtimalı əldə etmək üçün bacardığı qədər çalışmalıdır. Əgər heç bir yolla mümkün olmasa, ehtimalın qüvvətlənməsinə səbəb olarsa, püşkdən ən son çıxış yolu kimi istifadə etməlidir. Əgər gümana əməl etmək mümkün deyilsə, Ramazan ayı olduğunu ehtimal edib bir ayı oruc tutmalıdır. Amma həmin ayı nəzərində saxlamalıdır ki, əgər sonradan onun Ramazan ayından sonrakı ay məlum olarsa, ona bir şey vacib olmaz. Amma Ramazan ayından əvvəl olduğu məlum olarsa, Ramazan ayının oruclarının qəzasını tutmalıdır.

## Haram və məkruh oruclar

**Məsələ 1704:** "Qurban" və "Fitr" bayramlarında oruc tutmaq haramdır. Həmçinin Şabanın sonuncu günü, yoxsa Ramazanın birinci günü olmasını bilməyən şəxsə Ramazan ayının birinci gününün niyyəti ilə oruc tutması haramdır.

**Məsələ 1705:** Əgər qadının müstəhəb oruc tutması ilə ərinin ondan ləzzət almaq haqqı aradan getsə, oruc ona haramdır. Həmçinin vacib olan, amma vaxtı müəyyən olmayan oruc tutsa, məsələn, vaxtı müəyyən olmayan nəzir orucu kimi, bu halda vacib ehtiyata əsasən, (ərin haqqı aradan gedərsə) orucu batildir və nəzir orucunu əvəz etməz. Habelə vacib ehtiyata görə, əgər əri onun müstəhəb yaxud vaxtı müəyyən olmayan vacib oruc tutmasını qadağan edərsə, hətta ərinin haqqı ilə ziddiyyəti olmasa belə, hökm eynidir. Müstəhəb ehtiyata əsasən, qadın ərinin icazəsi olmadan müstəhəb oruc tutmasın.

**Məsələ 1706:** Övladın müstəhəb oruc tutması ata-ananın övlada şəfqəti üzündən əziyyət və incimərsinə səbəb olarsa, haramdır.

**Məsələ 1707:** Əgər oğul atanın və ya ananın icazəsi olmadan müstəhəb oruc tutsa və gün ərzində atası ona icazə verməsə, əgər onun onlarla müxalifəti şəfqətdən yaranan əziyyətinə səbəb olacaqsa, iftar etməlidir. (orucunu açmalıdır).

**Məsələ 1708:** Orucun diqqəti cəlb edən bir zərər verməyəcəyini bilən şəxsə həkim "sənə orucun zərəri vardır" – desə də, oruc tutmalıdır. Əgər bir şəxs orucun ona diqqəti cəlb edəcək bir zərər verəcəyinə yəqin və ya güman edərsə, həkim "zərəri yoxdur" – desə də, ona oruc tutmaq vacib deyildir.

**Məsələ 1709:** Əgər insan orucun ona diqqəti cəlb edəcək bir zərər yetirəcəyinə yəqin etsə ya əmin olsa və ya ehtimal versə və bu ehtimaldan qorxu yaransa, belə ki, onun ehtimalı ağıl sahiblərinin nəzərində haqlı olsa, ona

oruc tutmaq vacib deyil. Hətta həmin zərər onun həlakətinə yaxud hansısa bir bədən üzvünün qüsurlu olmasına səbəb olarsa, oruc tutması haramdır. Bundan başqa hallarda “rəca” niyyəti ilə oruc tutsa və sonradan diqqəti cəlb edəcək bir zərərin olmadığı məlum olsa, orucu düzgündür.

**Məsələ 1710:** Orucun ona zərəri olmadığına inanan şəxs, oruc tutarsa və axşamdan sonra orucun ona diqqəti cəlb edəcək dərəcədə zərər verdiyini anlasa, vacib ehtiyata əsasən, onun qəzasını yerinə yetirməlidir.

**Məsələ 1711:** Qeyd edilən oruclardan başqa, digər haram oruclar da vardır ki, onlar haqda geniş kitablarda izahat verilmişdir.

**Məsələ 1712:** “Aşura” gününün orucu və insanın “Ərəfə” günü və ya “Qurban” bayramı olmasında şəkk etsə, həmin günün orucu məkruhdur.

## Müstəhəb oruclar

**Məsələ 1713:** İlin bütün günlərinin orucu, deyilmiş olduğu haram və məkruh olan günlərdən başqa günlər müstəhəbdir. Aşağıda sadalayacağımız günlərdə oruc tutmaq daha çox tövsiyə olunmuşdur:

**1.** Hər ayın birinci və sonuncu cümə axşamı günü və ayın onundan sonra birinci çərşənbə günü; bu günlərdə oruc tuta bilməyən şəxsin həmin günlərin orucunu qəza etməsi müstəhəbdir. Əgər insan əsla oruc tuta bilmirsə, müstəhəbdir ki, hər bir günün müqabilində fəqirə bir müdd təam ya 12/6 noxud sikkəli gümüş versin.

**2.** Hər ayın 13-cü, 14-cü və 15-ci günləri;

**3.** Rəcəb və Şaban ayları tamamilə yaxud bu iki ayın bir qədərini, hətta bir gündə olsa belə.

**4.** Novruz bayramı günü.

**5.** Şəvval ayının 4-dən 9-a kimi.

**6.** Zil-qədə ayının 25-ci və 29-cu günləri.

**7.** Zil-hiccə ayının 1-ci günündən 9-cu gününə (“Ərəfə” gününə) qədər; amma zəiflikdən “Ərəfə” gününün dualarını oxuya bilməsə, həmin gününün orucu məkruhdur.

**8.** “Qədir-Xum” bayramı günü (Zil-hiccə ayının 18-ci günü).

**9.** “Mübahilə” günü (Zil-hiccə ayının 24-cü günü).

**10.** Məhərrəm ayının 1-ci, 3-cü və 7-ci günləri.

**11.** Həzrət Peyğəmbər(s)-in mövlud günü (Rəbiul-əvvəl ayının 17-ci günü).

**12.** Cəmadiul-əvvəl ayının 15-ci günü.

**13.** Həzrət Peyğəmbər(s)-in “Besət” (Peyğəmbər olaraq göndərilidiyi gün) günü (Rəcəb ayının 27-ci günü).

Müstəhəb oruc tutan şəxsin onu sona çatdırması vacib deyildir. Hətta əgər mömin qardaşı onu yeməyə dəvət edərsə, dəvəti qəbul edib gün əsnasında, günortadan sonra olsa belə, iftar etməsi müstəhəbdir.

## İnsanın orucu batil edən əməllərdən çəkinməsi müstəhəb olan hallar

**Məsələ 1714:** Beş nəfərin Ramazan ayında oruc tutmasalar da, orucu batil edən əməllərdən çəkinməsi müstəhəbdir:

**1.** Səfərdə orucu batil edən əməllərdən edib zöhrdən əvvəl vətəninə yaxud on gün qalmaq istədiyi yerə çatan müsafir.

**2.** Zöhrdən sonra vətəninə yaxud on gün qalmaq istədiyi bir yerə çatan müsafir.

**3.** Zöhrdən sonra sağalan xəstə və həmçinin zöhrdən əvvəl sağalan və orucu batil edən bir iş görən şəxs; amma orucu batil edən bir iş görməyibsə, vacib ehtiyata əsasən, oruc tutmalıdır.

**4.** Gün ərzində heyz və nifas qanından pak olan qadın.

**5.** Əvvəlcə orucu batil edən bir iş görüb, sonra müsəlman olan kafir.

**Məsələ 1715:** Oruc tutan şəxsin şam və xiftən namazlarını iftardan əvvəl qılması müstəhəbdir. Amma bir şəxs onu gözləyərsə və ya yeməyə meyli çox olduğundan son dərəcə diqqətlə namaz qıla bilmirsə, yaxşı olar ki, əvvəlcə iftar etsin. Ancaq mümkün qədər namazı fəzilətli vaxtında qılsın.

## Ramazan ayının fəzilətləri

**يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ**

**"Ya əyyuhəl-ləzinə amənu kutibə ələykumus-siyamu kəma kutibə ələl-ləzinə min qəblikum lə`əl-ləkum təttəqun."**

**"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" (Bəqərə - 183)**

Ayə bilavasitə bu ibadətin tərbiyəvi və eyni zamanda insanı yetişdirməkdə olan müstəsna rolunu qısa bir cumlə ilə, lakin çox əhatəli şəkildə bəyan edir; **"(bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"**

Bəli, oruc pəhrizkarların ruhunun tərbiyəsi üçün ən təsirli amillərdəndir. Belə ki, insan bu ibadəti yerinə yetirməklə maddi ləzzətlərdən cəkindiyi kimi, xüsusilə yay fəslində, məhrumiyyət və çətinliklər də yaşamış olur.

İmam Cəfər Sadiq (ə)- dan nəql olunan bir hədisdə deyilir: "Ayədə, Allahın möminlərə "ey möminlər"- deyə etdiyi müraciətin ləzzəti, bu ibadətin çətinliyini aradan aparır."

Oruc ibadəti də digər ibadətlər kimi, Allah-təalanın mülkünə əsla bir şey artırmır. Əksinə, orucun bütün fayda və mənfəəti onu icra edən abid üçündür.

Sağlamlığında heç bir qüsuru olmayan şəxsə, cismini və ruhunu tərbiyə etməsi üçün ildə bir ay oruc tutmaq vacibdir.

Oruc tutan şəxs aclıqla, susuzluqla və nəfsani istəklərdən çəkinməklə əməli şəkildə sübut edir ki, o, heyvan kimi yeməyə və şəhvətə bağlı deyil. Həmçinin insan nəfsini cilovlayıb şəhvani hislərinə hakim ola bilər. Həqiqətən də, orucun ən böyük təsiri onun ruhani və mənəvi yönəmidir. Bir sözlə oruc insanı heyvani aləmdən mələklər aləminə ucaldır.

Mübarək Ramazan ayının üstünlüyü və orucun bu aya təyin olmasının səbəbi bu ayın başqa aylardan üstün olması və Quranın Ramazan ayında nazil olmasıdır. Həmçinin dini mənbələrdə qeyd olunub ki, bütün səmavi kitablar; Tövrat, İncil, Zəbur və Quran bu ayda nazil olub.

İmam Cəfər Sadiq (ə.s) buyurmuşdur: "Tovrat Ramazan ayının 6-da, İncil 12-də, Zəbur 18-də və Quran Qədr gecəsində nazil olmuşdur."

Bu ardıcıllıqla Mübarək Ramazan ayı həm səmavi kitabların gədiyi, həm də təlim-tərbiyə ayıdır. Çünki tərbiyələndirmənin doğru-düzgün təlim proqramı olmadan gerçəkləşməsi mümkün deyil. Məhz buna görə də, orucun mənəvi və cismani tərbiyə proqramı səmavi təlimatlarla yanaşı olmalıdır ki, insan cismini və ruhunu günahın çirkabından qoruya bilsin. Elə isə, səmimi niyyət və pak qəlblə Allah-təaladan sizi bu ayda oruc tutmaq və Quran oxumaqda müvaffəq etməsini diləyin! Bədbəxt o kəsdir ki, belə bir əzəmətli ayda Allahın sonsuz rəhmət və mərhəmətindən məhrum olur.

**"Nümunə" təfsiri, Bəqərə - 183, ixtisarla**

## Həzrət Peyğəmbər (s)- in Ramazan ayının gəlişi ilə bağlı söylədiyi xütbə

Ey insanlar! Həqiqətən Allah ayı öz rəhmət, bərəkət və əfvilə sizə üz tutub. Bu elə bir aydır ki, Allah dərgahında ən yaxşısı, gecələri gecələrin ən yaxşısı, saatları saatların ən yaxşısıdır. Bu o aydır ki, sizlər Allahın ziyafətinə çağırılmışsınız və Allahın kəramət əhlindən qərar verilmişsiniz. Hətta, bu ayda sizin nəfəsləriniz zikr kimi hesab olunur. Bu ayda yuxunuz ibadət yuxusu, yaxşi əməlləriniz qəbul, etdiyiniz dualar müstəcab olar. Elə isə düzgün niyyətlərlə, günah və pis sifətlərdən paklanmış qəlblərlə Allahdan istəyin ki, Quran oxumaq və oruc tutmaqda sizi mevəffəq etsin. Həqiqətən də, bədbəxt o şəxsdir ki, bu əzəmətli ayda Allahın əfvindən məhrum olur. Bu ayda acliq və susuzluqla Qiyamət gününün acliq və susuzluğunu yada salın. Öz fəqir və miskinlərinizə sədəqə verin. Yaşlılarınıza hörmət, uşaqlarınıza rəhm, yaxınlarınıza nəvaziş edin. Deyiləsi lazım olmayan danışıqlardan dilinizi saxlayın. Baxılması haram olan şeylərə gözünüzü yumun və eşidilməsi haram olan sözlərə qulaqlarınızı bağlayın. Yetimlərlə nəvazişlə rəftar edin ki, camaat da sizdən sonra yetimlərinizlə nəvazişlə rəftar etsin. Günah etməkdən əl çəkib Allah yoluna qayıdın. Namaz qıldığınız vaxt əllərinizi acıb dua edin. Çünki namaz vaxtları ən fəzilətli saatlardır. Allah-Təala bu vaxtlarda Öz bəndələrinə rəhmətlə nəzər edər və Onu çağıranda onlara cavab verər, naümid etməz və dualarını müstəcab edər.

Ey insanlar! Həqiqətən sizin bədənləriniz sizə əmanət verilmişdir. Öz bədəninizdən bağışlanmaq üçün xərcləyin. Beliniz günahdan ağırlaşıb. Yüngülləşməsi üçün səcdələri uzadın. Çünki Haqq-təala bu ayda namaz qılan və səcdə edənlərə əzab etməməyə və onları Cəhənnəm atəşi ilə qorxutmamağa and içmişdir.

Ey insanlar! Sizlərdən hər kim bu ayda oruc tutan möminə iftar versə, Allah onun üçün bir qul azad etməyin savabını yazar və bütün keçmiş günahlarını bağışlayar. Səhabələrdən bəziləri dedilər ki, “Ya Rəsulullah bizim çoxumuzun buna qudrəti çatmır”. Həzrət buyurdu: “Yarım xurma ilə, bir şərbət su ilə, imkanınızın çatdığı şeylər ilə oruc tutan möminlərə iftar versəniz Cəhənnəm atəşindən qorunmuş olarsınız”.

Ey insanlar! Hər kim bu ayda öz xasiyyətini yaxşılaşdırarsa, ayaqların (qorxudan) əsdiyi vaxt Sirat körpüsündən asan keçər. Hər kim bu ayda öz kəniz və qullarını azad etsə, Allah da Qiyamət günü onu öz qəzəbinə düçar etməz. Hər kim bu ayda atasız yetimlərə hörmət etsə, Allah da onu Qiyamət günü hörmətli edər. Hər kim bu ayda öz qohumları ilə əlaqə yaradıb, xoşrəftar olsa, Allah da Qiyamət günü onu Öz rəhmətilə sirab edər. Hər kim bu ayda öz qohumlarına yaxşılıq etməyi əsirgəməsə, Allah da Qiyamət günü Öz rəhmətini ondan əsirgəməz. Hər kim bu ayda müstəhəb namaz qılarsa, Allah da onu Cəhənnəm odundan qoruyar. Hər kim bu ayda vacib namazlarını əda etsə, Allah ona digər aylarda qıldığı 70 vacib namazın savabını əda edər. Hər kim bu ayda mənə çoxlu salavat göndərərsə, əməl tərəziləri yüngül gəldiyi vaxt Allah Qiyamət günü onun əməl tərəzisini ağır edər. Hər kim bu ayda bir Quran ayəsi oxusa, başqa aylarda oxuduğu bütöv Quranın savabını alar.

Ey insanlar! Həqiqətən bu ayda Cənnət qapıları açıqdır. Allahdan qapıların sizin üçün bağlanmamasını diləyin. O cümlədən, bu ayda Cəhənnəm qapıları da bağlıdır. Allahdan cəhənnəm qapılarının sizin üzünüzə açılmamasını diləyin. Bu ayda şeytanlar zəncirlənmiş olarlar. Dua edin ki, Allah onların şərrindən sizi uzaq etsin.

## Mübarək Ramazan ayının duası

Bismilləhir-rəhmanir-rəhim

Ya Əliyyu, ya Əzim, ya Ğafuru, ya Rəhim. Əntər-rəbbul əzim. Əlləzi ləysə kəmislihi şey, və huvəs-səmiul bəsir. Və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur. Və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə. Və huvə şəhru Raməzan. Əlləzi ənzəltə fihil Quran. Hudən linnasi və bəyyinatin minal huda vəl-furqan. Və cə`əltə fihi ləylətəl-qədr. Və cə`əltəha xeyrən min əlfi şəhr. Fəyazəl mənni və la yumənnu ələyk. Munnə ələyyə bifəkaki rəqəbəti minən-nar. Fimən təmunnu ələyhi. Və ədxilnil-cənnətə, birəhmətikə ya ərhəmər rahimin.

Əllahummə ədxil əla əhlil quburis-surur. Əllahummə əğni kullə fəqir. Əllahummə əşbi kullə cai`. Əllahumməksu kullə uryan. Əllahumməqzi dəynə kulli mədin. Əllahummə fərric ən kulli məkrub. Əllahummə ruddə kullə ğərib. Əllahummə fukkə kullə əsir. Əllahummə əslih kullə fasidin min umuril muslimin. Əllahumməşfi kullə məriz. Əllahummə suddə fəqrəna biğinaikə. Əllahummə ğəyyir su-ə halina bihusni halik. Əllahumməqzi ənnəd-deynə və əğnina minəl fəqri. İnnəkə əla kulli şeyin qədir.

## Ramazan ayının gündəlik duaları

**1-ci günün duası:** Əllahumməcəl siyami fihi siyaməs-saiminə və qiyami fihi qiyaməl qaimin. Və nəbbihni fihi ən naumətil ğafilinə və həb li curmi ya ilahəl aləmin. Və`fu ənni ya afiyən ənil mucrimin.

**2-ci günün duası:** Əllahummə qərribni fihi ilə mərzatikə və cənnibni fihi min səxətikə və nəqimətikə və vəffiqni fihi liqiraəti ayatikə birəhmətikə ya ərhəmər-rahimin.

**3-cü günün duası:** Əllahummər-zuqni fihiz-zihnə vəttənbihə. Və baidni fihi minəs-səfəhati vət-təmvihi.

Vəc`əl li nəsibən min kulli xəyrin tunzilu fihi bicudikə ya əcvədəl əcvədin.

**4-cü günün duası:** Əllahummə qəvvini fihi əla iqaməti əmrikə və əziqni fihi hələvətə zikrikə. Və auzi`ni fihi liədai şukrikə bikərəmikə. Vəhfəzni fihi bihifzikə və sitrikə ya əbsərən nazirin.

**5-ci günün duası:** Əllahumməc`əlni fihi minəl-mustəğfirinə. Vəc`əlni fihi min ibadikəs-salihinəl-qanitinə. Və`cəlni fihi min auliyaikəl-muqərrəbinə birə`fətikə ya ərhəmər-rahimin.

**6-ci günün duası:** Əllahummə la təxzulni fihi litə`ərruzi mə`siyətikə və la təzribni bisiyəti nəqimətikə. Və zəhzihni fihi min mucibati səxətikə bimənnikə və əyadikə ya muntəha rəğbətər-rağibin.

**7-ci günün duası:** Əllahummə əinni fihi əla siyamihi və qiyamihi və cənnibni fihi min həfəvatihi və asamihi vərzuqni fihi zikrəkə bidəvamihi bitaufiqikə ya hadiyal-muzillin.

**8-ci günün duası:** Əllahummər-zuqni fihi rəhmətəl əytami. Və it`amət-təami. Və ifşa əssəlami və suhbətəl-kirami bitaulikə ya məlcə`əl-amilin.

**9-cü günün duası:** Əllahumməc`əl li fihi nəsibən min rəhmətikəl-vasiəti vəhdini fihi libərahinikəs-satiəti və xuz binasiyəti ila mərzatikəl-camiəti buməhəbbətikə ya əməlәl-muştaqin.

**10-cü günün duası:** Əllahumməc`əlni fihi minəl mutəvəkkilinə əleykə vəc`əlni fihi minəl-faizinə lədəykə vəc`əlni fihi minəl-muqərrəbinə ileykə bi ihsanikə ya ğayətət-talibin.

**11-ci günün duası:** Əllahummə həbbib ileyyə fihil-ihsanə və kərrih ileyyə fihil-fusuqə vəl-isyanə və hərrim əleyyə fihis-səxətə vən-niranə biaunikə ya ğiyasəl-mustəğisin.

**12-ci günün duası:** Əllahummə zəyyinni fihi bis-sitri vəl-əfafi vəsturni fihi bi libasil qunu`i vəl-kəfafi. Vəhmilni fihi ələl-ədli vəl-insafi və aminni fihi min kulli ma əxafu bi ismətikə ya ismətəl-xaifin.

**13-cü günün duası:** Əllahummə təhhirni fihi minəddənəsi vəl-əqzari. Və səbbirni fihi əla kainətil əqdəri və vəffiqni fihi littuqa və suhbətil əbrari biaunikə ya qurrətə əynil məsakin.

**14-cü günün duası:** Əllahummə la tuaxizni fihi bil-əsərati və əqilni fihi minəl-xətaya vəl-həfəvati. Və la təc`əlni fihi ğərəzən lil-bəlaya vəl-afati bi-izzətikə ya izzəl-muslimin.

**15-ci günün duası:** Əllahummər-zuqni fihi taətəl-xaşiinə vəşrəh fihi sədri bi inabətil-muxbitinə bi əmanikə ya əmanəl-xaifin.

**16-ci günün duası:** Əllahummə vəffiqni fihi limuvafəqətil əbrari. Və cənnibni fihi murafəqətəl əşrari və avini fihi birəhmətikə ila daril-qərari bi ilahiyyətikə ya ilahəl-aləmin.

**17-ci günün duası:** Əllahumməhdini fihi lisalihil-əməli vəqzi li fihil-həvaicə vəl-əmələ ya mən la yəhtacu ilət-təfsiri vəs-suəli ya alimən bima fi suduril-aləminə. Səlli əla Muhəmmədin və alihit-tahirin.

**18-ci günün duası:** Əllahummə nəbbihni fihi libərəkati əsharihi və nəvvir fihi qəlbi biziyai ənvarihi və xuz bikulli əza-i ilət-tibai asarihi binurikə ya munəvvirə qulubul arifin.

**19-cü günün duası:** Əllahummə vəffir fihi həzzi min bərəkatihi və səhhil səbili ila xəyratihi və la təhrimni qəbulə həsənətihi ya hadiyən iləl-həqqil-mubin.

**20-ci günün duası:** Əllahumməf-təhli fihi əbvabəl-cinani və əğliq ənni fihi əbvabən nirani və vəffiqni fihi litilavətil-qurani ya munziləs-səkinəti fi qulubil-mu`minin.

**21-ci günün duası:** Əllahumməc`əl li fihi ila mərzatikə dəlilən və la təc`əl lişşeytani fihi əleyyə səbilən vəc`əlil-cənnətə li mənzilən və məqilən. Ya qaziyə həvaicət-talibin.

**22-ci günün duası:** Əllahumməf-təhli fihi əbvabə fəzlikə və ənzil əleyyə fihi bərəkatikə və vəffiqni fihi limucibati mərzatikə və əskinni fihi buhbuhati cənnatikə ya mucibə də`vətil-muztərrin.

**23-cü günün duası:** Əllahumməğ-silni fihi minəz-zunubi və təhhirni fihi minəl-uyubi vəmtəhin qəlbi fihi bitəqva əlqulubi ya muqilə əsəratil-muznibin.

**24-cü günün duası:** Əllahummə inni əs`əlukə fihi ma yurzikə və əuzu bikə mimma yu`zikə və əs`əlukət-təufiqə fihi li ən uti`əkə və la ə`siyəkə ya cəvadəs-sailin.

25-ci günün duası: Əllahumməcəlni fihi muhibbən li auliyaikə və muadiyən liədaikə mustənnən bisunnəti xatəmi ənbiyaikə ya asimə qulubin nəbiyyin.

2**6-ci günün duası:** Əllahumməc`əl sə`yi fihi məşkurən və zənbi fihi məğfurən və əməli fihi məqbulən və eybi fihi məsturən ya əsməəs-sami`in.

**27-ci günün duası:** Əllahummər-zuqni fihi fəzlə leylətəl-qədri və səyyir fihi umuri minəl usri iləl-yusri. Vəqbəl məaziri və huttə ənniz-zənbə vəl-vizrə rəufən bi-ibadihis-salihin.

**28-ci günün duası:** Əllahummə vəffir həzzi fihi minən-nəvafil və əkrimni fihi bi-ihzaril-məsaili və qərrib fihi vəsiləti ileykə min beynil-vəsaili ya mən la yaşğəluhu ilhahul-mulihhin.

**29-cü günün duası:** Əllahummə ğəşşini fihi bir-rəhməti vər-zuqni fihit-təufiqə vəl-ismətə və təhhir qəlbi min ğəyəhibit-tuhməti ya rəhimən bi-ibadihil-mu`minin.

**30-cü günün duası:** Əllahuməc`əl siyami fihi biş-şukri vəl-qəbuli əla ma tərzahu və yərzahur-rəsulu muhkəmətən furu`uhu bil-usuli bihəqqi səyyidinə Muhəmmədin və alihit-tahirin vəl-həmdulillahi Rəbbil-aləmin.

## İftar duası

Ramazan ayında yerinə yetirilməsi tövsiyə olunan bəzi əməllər var ki, onaları nəzərinizə çatdırırıq;

- İftarı şam namazından sonra etmək müstəhəbbdir. Amma zəiflik üz verərsə və ya başqalarının gözləməsinə səbəb olarsa iftarı şam namazından əvvəl etmək müstəhəbdir.
- İftarı xurma, halva, nabat və ya isti su ilə etmək, həmçinin iftar edərkən aşağıdakı duanı oxumaq müstəhəbdir.

*"Əllahummə ləkə sumtu və bikə aməntu və əleykə təvəkkəltu və əla rizqikə əftərtu və lisaumi ğədin nəvəytu".*

## Ramazan ayının müştərək əməlləri

1. Ramazan ayının ən mühüm əməllərindən biri də imkan olduğu qədər Quran oxumaqdır. Əlbəttə ki, onun savabını vəfat edən möminlərin, şəhidlərin və saleh əməlli bəndələrin ruhuna göndərməsi daha yaxşıdır.
2. İmam Cəfəri Sadiq (ə)-ın bu ayda oxuduğu duanı oxumaq:

*"Əllahummə inni bikə və minkə ətlubu hacəti və mən tələbə hacətən ilən-nasi fə inni la ətlubu hacəti illa minkə vəhdəkə la şərikə ləkə və əs`ələkə bifəzlikə və rizvanikə ən tusəlliyə əla Muhammədin və əhli beytihi və ən təc`ələ li fi ami haza ila bəytikəl hərami səbilən hiccətən məbrurətən mutəqəbbələtən zakiyətən xalisətən ləkə təqərru biha eyni və tərfəu biha dərəcəti və tərzuqəni ən əğuzzə bəsəri və ən əhfəzə fərci və ən əkuffə biha ən cəmi`i məharimikə hətta la yəkunə şey`un asərə indi min taətikə və xəşyətikə. Vəl-əməli bima əhbəbtə. Vət-tərki lima kərihtə və nəhəytə ənhu. Vəc`əl zalikə fi yusrin və yəsarin və afiyətin. Və ma ən`əmtə bihi əleyyə və əs`ələkə ən təc`ələ vəfati qətlən fi səbilikə, təhtə rayəti nəbiyyikə mə`ə auliyaikə. Və əs`ələkə ən təqtulə*

*bi ə`daikə və ə`daə rəsulikə. Və əs`əlukə ən tukriməni bihəvani mən şi`tə min xəlqikə. Və la tuhinni bikəraməti əhədin min əuliyaikə. Əllahumməc`əl li mə`ərrəsuli səbilən, həsbiyəllahu maşa`əllah."*

*3.* İmam Cəfəri Sadiq (ə) və İmam Museyi Kazım (ə)-dan nəql olunur ki, Ramazan ayında hər gecə və hər gündüz bu duanı oxuyardılar:

*"Əllahummər-zuqni həccə bəytikəl həram. Fi ami haza və kulli amin. Ma əbzəytəni fi yusrin minkə və afiyətin, və səəti rizqin. Vəla tuxlini min tilkəl məvaqifil kəriməti, vəl məşahidiş-şərifəti. Və ziyarəti qəbri nəbiyyikə sələvatukə ələyhi və alihi. Və fi cəmi`i həvaicid-dunya vəl axirəti fəkun li. Əllahummə inni əs`əlukə fima təqzi və tuqəddiru. Minəl əmril-məhtumi fi leylətil-qədr minəl-qəzail-ləzi la yurəddu və la yubəddəlu. Ən təktubəni min huccaci bəytikəl-hərami, əlməbruri həccuhum, əlməşkuri sə`yuhum, əlməğfuri zunubuhum, əlmukəffəri ənhum səyyiatuhum vəc`əl fima təqzi və tuqəddiru ən tutilə umri və tuvəssiə əleyyə rizqi, və tuəddiyə ənni əmanəti və deyni aminə ya Rəbbəl-aləmin."*

*4.* Ramazan ayında bu duanı oxumaq savabdır:

*"Əllahummə Rəbbə şəhri rəməzanəl-ləzi ənzəltə fihil Quranə vəftərəztə əla ibadikə fihis-siyamə, səlli əla Muhəmmədin və ali Muhəmməd. Urzuqni həccə bəytikəl-hərami fi hazəl-ami və fi kulli amin, vəğfir liyəz-zunubəl-izamə fə innəhu la yəğfiruha ğəyrukə ya zəl-cəlali vəl-ikrami."*

5. Bu duanı oxumaq da savabdır:

*"Əllahummə haza şəhru rəməzanəl-ləzi ənzəltə fihil-Quranə hudən lin-nasi və bəyyinatin minəl-huda vəl-furqani və haza şəhrus-siyami və haza şəhrul-qiyami və haza şəhrul-inabəti və haza şəhrut-taubəti və haza şəhrul-məğfirəti vər-rəhməti və haza şəhrul-itqi minən-nari vəl-fauzi bil-cənnəti və haza şəhrun fihi leylətul-qədril-ləti hiyə xəyrun min əlfi şəhr. Əllahummə fəsəlli əla Muhəmmədin*

*və ali Muhəmməd. Və əinni əla siyamihi və qiyamihi və səllimhu li və səllimni fihi və inni əleyhi bi əfzəli aunik. Və vəffiqni fihi litaətikə və taəti rasulikə və auliyaukə səlləllahu ələyhim. Və fərriğni fihi li ibadətikə və duaikə və tilavəti kitabikə və a`zim li fihil-bərəkəti və əhsin li fihil-afiyəti və əsihhə fihi bədəni. Və ausi` fihi rizqi vəkfini fihi ma əhəmməni. Vəstəcib fihi duai. Və bəlliğni fihi rəca`i. Əllahummə səlli əla Myhəmmədin və ali Muhəmməd. Və əzhib ənni fihin-nuasə vəl kəsələ və səmətə vəl-fətrətə vəl qəsvətə vəl ğəflətə vəl ğirrəh. Və cənnibni fihil-iləlǝ vəl-əsqamə, vəl-humumə vəl-əhzan. Vəl-əğrazə vəl-əmraz. Vəl-xətaya vəz-zunubə vəsrif ənni fihis-su`ə vəl-fəhşa`ə vəl-cəhdə vəl-bəla`ə. Vət-tə`əbə vəl-ənaə innəkə səmiud-duai. Əllahummə səlli əla Muhəmmədin və ali Muhamməd. Və əizni fihi minəş-şəytanir-rəcim. Və həmzihi və ləmzihi və nəfsihi və nəfxihi və vəsvəsətihi və təsbitihi və kəydihi və məkrihi və həbailihi və xudəih. Və əməniyyuhu və ğururihi. Və fitnətihi və şərəkihi və əhzabihi və ətbəihi və əşyaihi və auliyəih və şurəkaihi və cəmi`i məkaidih. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Vərzuqna qiyaməhu və siyaməhu və buluğəl-əməli fihi və fi qiyamih vəstikmalə ma yurzikə ənni səbrən vəhtəsibə və imanən və yəqinən, summə təqəbbəl zalikə minni bil əzafil kəsirəh vəl-əcril-əzimi ya Rəbbəl-aləmin. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Vərzuqnil həccə vəl-umrətə vəl-ictihadə vəl-quvvətə vən-nəşatə vəl-inabətə vət-taubətə vəl-qurbəh. Vəl-xəyrəl-məqbulə. Vər-rəqbətə vər-rəhbətə. Vət-təzərruə vəl-xuşuə vər-riqqətə vən-niyyətəs-sadiqəh. Və sidqəl-lisani vəl-vəc`ələ minkə vər-rəcaə ləkə. Vət-təvəkkulə əleykə vəs-siqətə bikə. Vəl-vərə`ə ən məharimikə mə`ə salihil qauli və məqbulis-sə`yi və mə`rufil-əməli. Və mustəcabid-də`vəti və la təhul-beyni və beynə şey`in min zalikə biərəzin və la mərəzin. Və la həmmin və la ğəmmin və la suqmin. Və la ğəflətin və la nisyanin bəl bit-təahudi vət-təhəffuzi ləkə və*

*fikə. Vər-riayəti lihəqqikə. Vəl-vəfai biəhdikə və və`dikə birəhmətikə ya ərhəmər-rahimin. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Vəqsim li fihi əfzələ ma təqsimuhu li ibadikəs-salihin. Və ə`tini fihi əfzələ ma tu`ti auliyaəkəl-muqərrəbinə minər-rəhməti vəl-məğfirəti. Vət-təhənnuni vəl-icabəh. Vəl-əfvi vəl-məğfirətid-daiməti vəl-afiyəti vəl-muafəti vəl-itqi minən-nar. Vəl-fauzi bil-cənnəti və xəyrid-dunya vəl-axirəti. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Vəc`əl duai fihi ileykə vasilən. Və rəhmətəkə və xəyrəkə ileyyə fihi nazilən. Və əməli fihi məqbulən və sə`yi fihi məşkurən və zənbi fihi məğfura. Hətta yəkunə nəsibi fihil əksərə və həzzi fihil aufər. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Və vəffiqni fihi lileylətil-qədr. Əla əfzəli halin tuhibbu ən yəkunə əleyha əhədun min auliyaik. Və ərzaha ləkə summəc`əlha li xəyrən min əlfi şəhr. Vər-zuqni fiha əfzələ ma rəzəqtə əhədən mimmən bəlləğtəhu iyyaha və əkrəmtəhu biha. Vəc`əlni fiha min utəqaikə min cəhənnəm. Və tuləqaikə minən-nar. Və suədan xəlqikə biməğfirətikə və rizvanikə ya ərhəmər-rahimin. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Vərzuqna fi şəhrina hazəl-ciddə vəl-ictihadə vəl-quvvətə vən-nəşat. Və ma tuhibbu və tərza. Əllahummə Rəbbəl-fəcri və ləyalin əşrin vəş-şəfi vəl-vətr. Və Rəbbə şəhri rəməzan. Və ma ənzəltə minəl-Quran. Və Rəbbə Cəbrailə və Mikail. Və İsrafilə və İzrail. Və cəmi`il-məlaikətil-muqərrəbin. Və Rəbbə İbrahimə və İsmail. Və İshaqə və Yaqub. Və Rəbbə Musa və İsa. Və cəmi`in-nəbiyyinə vəl-mursəlin. Və Rəbbə Muhəmmədin xatəmin-nəbiyyin. Sələvatukə ələyhi və ələyhim əcməin. Və əs`ələkə bihəqqikə əleyhim. Və bihəqqihim əleykə və bihəqqikəl əzimi ləmma səlləytə əleyhi və alihi və əleyhim əcməin. Və nəzərtə ileyyə nəzrətən rəhima. Tərza biha ənni rizən la səhətə əleyyə bədəhu əbəda. Və ətəytəni cəmiə su`li və rəğbəti. Və umniyyəti və iradəti. Və sərəftə ənni ma*

*əkrəhu və əhzər. Və əxafu əla nəfsi və ma la əxaf. Və ən əhli və mali və ixvani və zurriyyəti. Əllahummə ileykə fərərna min zunubina. Fə avina taibina və tub ələynə mustəğfirin. Vəğfir ləna mutə`əvvizin. Və əizna mustəcirin. Və əcirna mustəsliminə və la təxzulna rahibin. Və aminnə rağibin. Və şəffina sailin. Və ətinə innəkə səmiud-duai qəribun mucib. Əllahummə əntə Rəbbi və ənə əbduk. Və əhəqqu mən səələl-əbdu Rəbbəhu və ləm yəsəlil ibadu misləkə kərəmən və cuda. Ya mauziə şəkvəs-sailinə və ya muntəha hacətir-rağibin. Və ya ğiyasəl-mustəğisin. Və ya mucibə dəvətil-muztərrin. Və ya məlcə`əl-haribin. Və ya sərixəl-mustəsrixinə və ya Rəbbəl-mustəz`əfinə və ya kaşifə kərbil-məkrubin. Və ya faricə həmmil-məhmumin. Və ya kaşifəl-kərbil-əzim. Ya Allahu ya Rəhmanu ya Rəhim. Ya ərhəmər-rahimin. Səlli əla Muhəmmədin və ali Muhəmməd. Vəğfirli zunubi və uyubi və isaəti və zulmi və curmi. Və israfi əla nəfsi. Vərzuqni min fəzlikə və rəhmətik. Fəinnəhu la yamlikuha ğəyruk. Və`fu ənni vəğfirli kullə ma sələfə min zunubi. Və`simni fima bəqiyə min umri. Vəstur əleyyə və əla valideyyə və vulədi. Və qərabəti və əhli huzanəti və mən kanə minni bisəbilin minəl-mu`mininə vəl-mu`minati fid-dunya vəl-axirəh. Fə inna zalikə kulləhu biyədikə və əntə vasiul-məğfirəh. Fəla tuxəyyibni ya səyyidi. Və la təruddə duai. Və la yədi ila nəhri. Hətta təfələ zalika bi. Və təstəcibə li cəmi`ə ma sə`əltukə və təzidəni min fəzlik. Fəinnəkə əla kulli şey`in qədirun və nəhnu ileykə rağibun. Əllahummə ləkə əsmaul-husna. Vəl-əmsalul ulya. Vəl-kibriyau vəl-ula. Əs-əlukə bismikə bismillahir-rəhmanir-rəhim. İn kuntə qəzəytə fi həzihil-leyləti tənəzzuləl-məlaikəti vər-ruhi fiha ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd və ən təc`ələni fissuədai və ruhi məəş-şuhədai. Və ihsani fi illiyin. Və isaəti məğfurəh. Və ən təhəbə li yəqinən tubaşiru bihi qəlbi. Və imanən la yaşubuhu şəkkun vərizən bima qəsəmtə li. Və atini fid-dunya həsənəh. Və fil-*

*axirəti həsənəh. Və qini əzabən-nar. Bə in ləm təkun qəzəytə fi hazihil-ləyləti tənəzzuləl-məlaikəti vər-ruhi fiha. Fə əxxirni ila zalikə vərzuqni fiha zikrəkə və şukrəkə və taətəkə və husnə ibadətikə və səlli əla Muhəmmədin və ali Muhəmməd. Bi əfzəli sələvatikə ya ərhəmər-rahimin. Ya Əhədu ya Səmədu ya Rəbbə Muhəmmədin iğzəbil yaumə li Muhəmmədin və li əbrari itrəti. Vəqtul-ə`daəhum bədədə və əhsihim ədədə. Və la tədə əla zəhril-ərzi minhum əhədən və la təğfir ləhum əbəda. Ya həsənəs-suhbəh. Ya xəlifətən nəbiyyin. Əntə ərhəmur-rahimin. Əlbədəul-bədi. Əlləzi leysə kəmislikə şey. Vəd-daimu ğəyrul-ğafil. Vəl həyyul-ləzi ya yəmut. Əntə kullə yaumin fi şə`nin əntə xəlifətu Muhəmmədin və nasiru Muhəmmədin və mufəzzilu Muhəmməd. Əs`əlukə ən tənsurə vəsiyyə Muhəmmədin və xəlifətə Muhəmməd. Vəl-qaimə bil-qisti min ausiyau Muhəmməd. Sələvatukə ələyhi və ələyhim. Ultuf ələyhim nəsrək. Ya la İlahə illa əntə bihəqqi la ilahəl illa əntə. Səlli əla Muhəmmədin və ali Muhəmməd. Vəc`əlni mə`əhum fid-dunya vəl axirəh. Vəc`əl aqibətə əmri ila ğufranikə və rəhmətik. Ya ərhəmər-rahimin. Və kəzalikə nəsəbtə nəfsəkə ya səyyidi billətif. Bəla innəkə lətif. Fəsəlli əla Muhəmmədin və ali Muhəmməd. Vəltuf lima təşau. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmmədin vərzuqnil həccə vəl-umrətə fi aminə haza. Və tətəvvəl əleyyə bicəmi`i həvaicil-axirəti vəd-dunya."*

Ondan sonra üç dəfə bu dua oxumaq müstəhəbdir:

*"Əstəğfirullahə Rəbbi və atubu ileyhi. İnnə Rəbbi qəribun mucib. Əstəğfirullahə Rəbbi və atubu ileyhi. İnnə Rəbbi rəhimun vədud. Əstəğfirullahə Rəbbi və atubu ileyhi innəhu kanə ğəffara. Əllahumməğ-firli innəkə ərhəmər-rahimin. Rəbbi inni əmiltu su`ə. Və zələmtu nəfsi. Fəğfirli innəhu la yəğfiruz-zunubə illa əntə. Əstəğfirullahəl-ləzi la ilahə illa huvəl-həyyul-qəyyum. Əlhəlimul-əzimul-kərimul-*

*ğaffaru liz-zənbil-əzim və ətubu ileyhi əstəğfirullahə innəllahə kanə ğəfurən rəhima.”*

Bundan sonra aşağıdakı duanı oxumaq savabdır:

*“Əllahummə inni əs`əlukə ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd. Və ən təc`ələ fima təqzi və tuqəddiru minəl-əmril-əzim. Əlməhtumi fi leylətil-qədr. Minəl-qəzail-ləzi la yurəddu və la yubəddəlu ən təktubəni min huccaci beytikəl-həraməl-məbruri həccəhumul-məşkuri sə`yuhum. Əlməğfuri zunubuhum. Əlmukəffəri ənhum səyyiatuhum. Və ən təc`ələ fima təqzi və tuqəddiru ən tutilə umri və tuvəssiə rizqi və tuədiyə ənni əmanəti və deyni. Aminə Rəbbəl-aləmin. Əllahumməc`əlli min əmri fərəcən və məxrəcən. Vərzuqni min heysu əhtəsibu və min heysu la əhtəsibu vəhrusni min heysu əhtərisu və min heysu la əhtərisu. Və səlli əla Muhəmmədin və ali Muhəmmədin və səllim kəsira.”*

## Gecə duaları

İmam Cəfər Sadiq (ə)-dan Ramazan ayında hər gecə bu duanı oxumaq nəql olunmuşdur:

*“Əllahummə inni əs`əlukə ən təc`ələ fima təqzi və tuqəddiru minəl-əmri məhtumi fil-əmril-həkim. Minəl-qəzail-ləzi la yurəddu və la yubəddəl. Ən təktubəni min huccəci beytikəl-həramil-məbruri həccuhum. Əlməşkuri sə`yuhum. Əlməğfuri zunubuhum. Əlmukəffəri ən seyyiatihim. Və ən təc`ələ fima təqzi və tuqəddiru ən tutilə umri fi xəyrin və afiyətin və tuvəssiə fi rizqi. Və təc`ələni mimmən təntəsiru lidinikə və la təsdəbdil bi ğəyri amin və səlləllahu əla Muhəmmədin və alihi əcmə`in.*

Seyid ibn Tavus nəql etmişdir ki, hər gecə bu duanı oxuyan şəxsin 40 illik günahı bağışlanar:

*“Əllahummə Rəbbə şəhrə rəmazanəl-ləzi ənzəltə fihil Quranə vəftərəztə əla ibadikə fihis-siyam səlli əla Muhəmmədin və ali Muhəmməd. Vərzuqni həccə bəytikəl*

*hərami fi ami haza və fi kulli amin vəğfirli tilkəz-zunubəl izamə fə innəhu la yəğfiruha ğeyrukə ya Rəhmanu ya Əllam."*

**Ramazan ayında hər gecə bu duanı oxumağln böyük savabı vardır**

**İftitah duası**

*Bismillahir rəhmanir rəhim*

*"Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Əllahummə inni əftətihus sənaə bihəmdik və əntə musəddədun lissəvabi bimənnikə və əyqəntu ənnəkə əntə ərhəmur rahiminə fi məvziil əvfi vər rəhməti və əşəddul muaqibinə fi mauziil nikəli vən nəqiməti və əzəmul mutəcəbbirinə fi mauziil kibriyai vəl əzəməti. Əllahummə əzintə li fi duaikə və məsələtikə fəsmə ya səmiu midhəti və əqil ya ğəffuru əsrati fəkəm ya İlahi min kurbətin qəd fərrəctəha və humumin qəd kəşəftəha və əsratin qəd əqəltəha və rəhmətin qəd nəşərtəha və həlqati bəlain qəd fəkəktəha əlhəmdu lillahil ləzi ləm yəttəxiz sahibətən və la vələda və ləm yəkun ləhu şərikun fil mulki və ləm yəkun ləhu vəliyyun minəz zulli vəkəbbirhu təkbira. Əlhəmdu lillahi bi cəmii məhəmidihi kulləha. Əlhəmdu lillahil ləzi la muzaddə ləhu fi mulkihi və la munaziə ləhu fi əmrih. Əlhamdu lillahil ləzi la şərikə ləhu fi xəlqihi və la şəbihə ləhu fi əzəmətih. Əlhəmdu lillahi əl faşi fil xalqi əmruhu və həmduhu əzzahiri bil kərami məcduhu əl bəsiti bilcudi yədəh. Əlləzi la tənqusu xəzainuhu və la təziduhu kəsrətul ətai illa cudən və kəramən innəhu huvəl əzizul vəhhab. Əllahummə inni əsəlukə qəlilən min kəsirin məə hacətin bi ileyhi əzimətin və ğinakə ənhu qədimun və huvə indi kəsirun və huvə əleykə səhlun yasirun əllahummə innə əfvəkə ən zənbi və təcavuzəkə ən xətiəti və səfhəkə ən zulmi və sətrəkə əla qəbihi əməli və hilməkə ən kəsirin curmi indəma kanə min xətəi və əmdi ətməəini fi ən əsələkə ma la əstaucibuhu minkə əlləzi rəzəqtəni min rəhmətikə və*

*ərəytəni min qudrətikə və ərrəftəni min icabətikə fəsirtu ədukə əminən və əsəlukə mustənisən la xaifən və la vacilən mudillən əleykə fima qəsəttu fihi ileykə fəin əbtaə ənni ətəbtu bicəhli əleykə və la əlləzi əbtaə ənni huvə xəyrun li liilmikə biaqibətil umuri fələm əra mauləyyə kərimun əsbərə əla əbdin ləimin minkə ələyyə ya rəbbi innəkə təduni fəuvəlli ənkə və tətəhəbbəbu iləyyə fə ətəbəğğəzu iləykə və tətəvəddədu iləyyə fə la əqbəlu minkə kə ənnə liyət tətəvvulə ələykə fələm yəmnəkə zalikə minər rəhməti li vəl ihsani iləyyə vət təfəzzuli ələyyə bicudikə və kəramikə fərhəm əbdəkəl cahilə vəcud ələyhi bifəzli ihsanikə innəkə cəvadun kərim. Əlhəmdu lillahi məlikil mulki mucriyəl fulki musəxxirir riyahi fəliqil isbahi dəyyənid dini rəbbil aləmin. Əlhəmdu lillahi əla hilmihi bədə ilmihi vəlhəmdu lillahi əla əfvihi bədə qudrətihi vəlhəmdu lillahu əla tuli ənətihi fi ğəzəbihi və huvəl qədiru əla ma yurid. Əlhəmdu lillahi xaliqil xəlqi bəsitir rizqi fəliqil isbahi zil cəlali vəl ikrami vəl fəzli vəl inam. Əlləzi bəudə fəla yura və qəruba fəşəhidən nəcva təbarəkə və təala. Əlhəmdu lillahil ləzi leysə ləhu munaziun yuədiluhu və la şəbihun yuşakiluhu və la zahirun yuaziduhu qahəra biizzətihil əizzəə və təvazəə li əzəmətihil uzaməu fəbələğə biqudrətiha ma yəşau əlhəmdu lillahil ləzi yucibuni hinə unədihi və yəsturu ələyyə kullə auratin və ənə əsihi və yuəzzimun nimətə ələyyə fəla ucazihi fəkəm min mauhibətin həniyətin qəd ətani və əzimətin məxufətin qəd kəfəni və bəhcətin muniqətin qəd ərani fəusni ələyhi həmidən və əzkuruhu musəbbuhən əlhəmdu lillahil ləzi la yuhtəku hicabuhu və la yuğləqu babuhu və la yurəddu sailuhu və la yuxəyyəbu əmiluhu əlhəmdu lillahil ləzi yuminul xaifinə və yunəccis salihinə və yərfəul mustəzəfinə və yəzəul mustəkbirinə və yuhliku mulukən və yəstəxlifu əxarinə vəlhəmdu lillahi qasimil cəbbarinə mubiriz zaliminə mudrikil haribinə nəkəliz zaliminə sərixil mutəsrixinə mauzii hacətit talibinə mutəmədil muminin.*

*Əlhəmdu lillahil ləzi min xəşyətihi marədus səməu və sukkənuha və tərcuful ərzu və umməruha və təmucul biharu və mən yəsbəhu fi ğəmərətiha əlhəmdu lillahil ləzi hədana lihaza və ma kunnə li nəhmədiə laula ən hədənəllah. Əlhəmdu lillahil ləzi yəxluqu və ləm yuxləq. Və yərzuqu və la yurzəq yutimu və la yutəm və yumitul əhyaə və yuhyil mautə və huvə həyyun la yəmutu biyədihil xəyru və huvə əla kulli şəyin qədir. Əllahummə səlli əla Muhəmmədin əbdikə və rəsulikə və əminikə və səfiyyikə və həbibikə və xiyəratikə min xəlqikə və xəfizi surrikə və mubəlliği risalətikə əfzələ və əhsənə və əcmələ və əkmələ və əzka və ənma və ətyəbə və əthərə və əsna və əksərə və səlləytə və barəktə və tərəhhəmtə və təhənnəntə və səlləmtə əla əhədin min ibadikə və ənbiyaikə və rusulikə və səfvatikə və əhlil kəraməti ələykə mən xəlqikə əllahummə və səlli əla əliyyin əmiril mumininə və vəsiyyi Rəsuli Rəbbil aləminə əbdikə və vəliyyikə və əxi rəsulikə və huccətikə əla xəlqikə və ayatikəl kubra vən nəbəil əzimi və səlli ələs siddiqətit tahirəti Fatimətə seyyidəti nisail aləmin və səlli əla sibtər rəhməti və imameyn hudəl Həsəni vəl Huseyni seyyidə şəbabi əhlil cənnəti və səlli əla əimmətil musliminə əliyyibnil Huseyni və Muhəmməd ibni Əliyyin və Cəfər ibni Muhəmməd və Musa ibn Cəfər və Əli ibn Musa və Muhəmməd ibn Əli və Əli ibn Muhəmməd vəl Həsən ibn Əliyyin vəl xələfil hadil Məhdiyyi hucəcikə əla ibadikə və umənaikə fi biladikə səlatə kəsirətən daimətən əllahummə və səlli əla vəliyyi əmrikəl qaimil muəmməli vəl ədlil muntəzəri və huffəhu bi məlaikətikəl muqərrəbinə və əyyidhu biruhil qudusi ya rəbbəl aləmin. Əllahumməcəl hud daiyə ila kitabikə vəl qaimə bidinikəs təxlifhu fil ərzi kəməstəxləftəl ləzinə min qəblihi məkkin ləhu dinəhul ləzir təyəztəhu ləhu əbdilhu min bədi xaufihi əmnəən yəbudkə la yuşriku bikə şeyə. Əllahummə əuzzəhu və əziz bihi vənsurhu vəntəsir bihi vənsurhu nəsrən əzizə vəftəh ləhu fəthən yəsira. Vəcəl ləhu*

*min lədunkə sultanən nəsira. Əllahummə əzhir bihi dinəkə və sunnət nəbiyyikə hətta la yəstəxfiyə bişeyin minəl həqqi məxafətə əhədin minəl xəlqi əllahummə inna nərğəbu iləykə fi daulətin kərimətin tuizzu bihəl islamə və əhləhu və tuzzilu bihən nifaqə və əhləhu və təcəluna fiha minəd duəti ila taətikə vəl qadəti ila səbilik və tərzuquna biha kəramətəd dunya vəl axirəti əllahummə ma ərrəftəna minəl həqqi fəhəmmilnəhu və ma qəsərna ənhu fəbəlliğnəhu əllahumməlmum bihi şəəsəna vəşəb bihi sadənə vərtuq bihi fətqəna və kəssir bihi qillətəna və əziz bihi zillətəna və əğni bihi əiləna vəqzi bihi ən məğrəminə vəcbur bihi fəqrəna və suddə bihi xəllətəna və yassir bihi usrəna və bəyyiz bihi vucuhəna və fukkə bihi əsrəna və əncih bihi talibətəna və ənciz bihi məvaidəna vəstəcib bihi dəvətəna və ətina bihi suləna və balliğna bihi minəd dunya vəl axirəti əmələna və ətina bihi fauqə rəğbətina ya xəyrəl məsulinə və ausəəl mutinə işfi bihi sudurəna və əzhib bihi ğəyzə qulubina vəhdina bihi liməxtulifə fihi minəl həqqi bi iznikə innəkə təhdi mən təşau ila siratin mustəqim. Vənsurna bihi əla əduvvikə və əduvvina ilahəl həqqi əmina əllahummə inna nəşku iləykə fəqdə nəbiyyina sələvatukə ələyhi və alihi və ğəybətə vəliyyina və kəsrətə əduvvina və qillətə ədədina və şiddətəl fitəni bina və təzahəruz zəməni ələyna fə səlli əla Muhəmmədin və alihi və inna əla zalikə kullihi bifəthin minkə tuəcciluhu və zurri təkşifuhu və nəsrin tuizzuhu və sultani həqqin tuzhiruhu və rəhmətin minkə tucəllilunəha və afiyətin minkə tulbisunəha birəhmətikə ya ərhəmər rahimin.”*

## Duanın tərcüməsi

*Bismillahir rəhmənir rahim*

İlahi, Sənə həmdlə sitayişə başlayıram. Bir halda ki, Sən öz ehsanınla başqalarını doğru yolda möhkəm saxlayırsan. Əminəm ki, güzəşt və mehribanlıqda Sən bütün mehribanlardan mehribansan. Cəzalandırma məqamında bütün cəzalandıranlardan sərtsən. Böyüklükdə isə hakimlərin ən böyüyüsən.

İlahi, mənə Səni çağırmaq, Səndən istəmək icazəsi vermisən. Ey eşidən Allah, mənim həmd-sənamı eşit. Ey mehriban Allah, istəyimi yerinə yetir. Ey bağışlayan Allah, xətalarıma göz yum! İlahi, nə qədər çətinlikləri aradan qaldırdın, nə qədər qəmlərə son qoydun, nə qədər xətalara göz yumdun, nə qədər rəhmətlər göstərdin və bəla zəncirlərini qırdın. Həmd-səna Özünə yoldaş və övlad götürməyən, mülk və hakimiyyətində şəriki olmayan, acizliyindən yardımçıya ehtiyacı olmayan Allaha məxsusdur. Sən də layiqincə (Ona təkbir de və) Onu uca bil. Bütün nemətləri müqabilində bütün təriflər Allaha məxsusdur. Həmd-səna mülk və hakimiyyətində müxalif və düşməni, əmrində qalmaqal olmayan Allaha məxsusdur. Həmd-səna yaratdıqlarında ortağı və böyüklüyündə bənzəri olmayan Allaha məxsusdur. Həmd-səna məxluqat arasında əmri aydın, tərifi aşkar, böyük şövkəti zahir, səxavətli əli açıq, (rəhmət) xəzinələri əskilməz, əta və bəxşişinin çoxluğu yalnız səxavət və böyüklüyünü artıran Allaha məxsusdur.

Həqiqətən, O, izzət sahibi və çox bağışlayandır. İlahi, ehtiyacımın çoxluğuna baxmayaraq, ondan azını istəyirəm, halbuki mənim ona ehtiyacım çoxdur və Sən əzəldən bəri ondan ehtiyacsızsan. Həmin az istəyim də mənim üçün

çoxdur və onun təmin edilməsi Sənə asandır. İlahi, günahımı bağışlamağın, səhvimdən keçməyin, zülmkarlığıma göz yummağın, çirkin əməlimi örtməyin, bilərək və ya bilmədən törətdiyim bir çox cinayətlər və günahlara qarşı səbirli rəftarın məni Səndən layiq olmadıqlarımı istəməyə tamahlandırdı və Sən rəhmətinlə mənə ruzi verdin, qüdrətini mənə göstərdin, razılığını mənə bildirdin ki, Səni arxayın qəlblə səsləyim, qorxub-çəkinmədən rəğbət və ünsiyyətlə Səndən diləyir və istəyimi naz-qəmzə ilə Sənə deyirəm. Hacətlərimi gec verdiyin üçün nadanlıq üzündən Sənə etiraz etdim. Həqiqətdə isə hacətlərimin təxirlə qəbul olması mənim üçün daha yaxşı idi; çünki Sən işlərin sonundan xəbərdarsan. Mən öz alçaq bəndəsinə Səndən çox səbir edən heç bir kəramətli mövla görmədim.

Ey Rəbbim, Sən məni dəvət edirsən, mən isə Səndən üz çevirirəm. Sən həmişə mənim məhəbbətimi soraqlayırsan, mən isə Səninlə düşməncəsinə rəftar edirəm. Sən mehribanlıq göstərirsən, mən isə nadanlıqdan qəbul etmirəm; sanki Sənə minnətim var. Lakin nankorluq və etinasızlığım məni sonsuz rəhmət, ehsan və kərəmindən məhrum etməyinə səbəb olmadı, lütf və mərhəmətini mənə azaltmadı. Beləcə, bu nadan bəndənə rəhm göstər, lütf və mərhəmətinlə onu bağışla. Sən çox bağışlayan və kəramətlisən. Həmd-səna mülkün (kainatın) sahibi, aləmin gəmilərini hərəkətə gətirən, küləkləri ram edən, səhəri qaranlıqdan yarıb çıxaran, qiyamət gününün hakimi və aləmlərin Rəbbi olan Allah məxsusdur. Elmindən sonra helmi olan Allaha həmd olsun. Qüdrətindən sonra güzəşti olan Allaha həmd olsun. Qəzəb halında böyük səbri olan Allaha həmd olsun.

Bir halda ki, O, istədiyi hər bir şeyə qadirdir. Həmd-səna məxluqatı yaradan, ruzi verən, səhəri qaranlıqdan yarıb çıxaran və cəlal, lütf, mərhəmət və nemət sahibi olan Allaha məxsusdur. O Allaha ki, nəzərlərdən uzaq olduğundan görünməzdir, hamıya yaxın olduğundan gizli sirlərin şahididir, böyük və ucadır. Həmd olsun o Allaha ki, Onun müqabilində döyüşə qalxan olmaz, Ona tay olan şəriki olmaz, Ona kömək edən yardımçı olmaz. O, izzəti ilə izzət sahiblərini məğlub etmiş, böyüklər əzəməti müqabilində boyun əymiş və yenilməz qüdrəti ilə istədiyi hər bir şeyə çatmışdır. Həm-səna çağırdığım zaman cavab verən, Ona asi olduğum halda hər eyib və nöqsanımı örtən, şükrünü etmədiyim halda mənə böyük nemətlər bağışlayan Allaha məxsusdur.

Mənə nə qədər qiymətli nemətlər bağışlamış, məni nə qədər qorxunc bəlalardan qorumuş və mənə nə qədər xoş hadisələr göstərmişdir. Belə isə, mən də Ona həmd-səna ilə sitayiş edir və Onu hər bir eyib və nöqsandan uzaq bilərək yad edirəm. Həmd olsun o Allaha ki, pərdəsi götürülməz, dərgahının qapısı bağlanmaz, Onu çağıranı rədd etməz və Ona ümid edənlər naümid olmaz. Həmd olsun o Allaha ki, qorxanlara aman və salehlər nicat verir, zəifləri ucaldır, təkəbbürlüləri xar edir və padşahları həlak edərək, başqalarını onların yerində əyləşdirir.

Həmd olsun o Allaha ki, zorakıların belini qırır, zalımları həlak edir, qaçanları tutur, zülmkarları cəzalandırır, imdad diləyənlərin imdadına çatır, möhtacların sığınacağı və möminlərin dayağıdır. Həmd olsun o Allaha ki, Onun qorxusundan göy və sakinləri ah-nalə edir, yer və əhli titrəyir, dəniz və dərinliklərində

üzənlər çalxalanır. Həmd olsun o Allaha ki, bizi tövhid dininə hidayət etdi və əgər bizi hidayət etməsəydi, biz ona doğru hidayət olunmazdıq. Həmd-səna yaradan və yaranmayan, ruzi verən və ruzi verilməyən, yedirən və yedirilməyən, diriləri öldürən, ölüləri dirildən, Özü isə həmişə diri olan, xeyir və yaxşılıq Öz əlində və hər şeyə qadir olan Allaha məxsusdur.

İlahi, bəndən, peyğəmbərin, əminin, seçdiyin, həbibin, varlıqlar arasından seçib bəyəndiyin, (dostun), sirrini qoruyan və risalətini çatdıran Mühəmmədə salam göndər; elə bir salam ki, bəndələrinə, peyğəmbərlərinə, elçilərinə, seçilənlərə, yaratdıqların içərisində Sənə əziz olanlara göndərdiyin salavat, bərəkət, rəhmət, mərhəmət və salamdan çox, yaxşı, gözəl, kamil, xalis, təsirli, təmiz, pak, uca və çox (böyük) olsun.

İlahi, möminlərin əmri, aləmlərin Rəbbinin Peyğəmbərinin canişini, bəndən, vəlin, Peyğəmbərinin qardaşı, varlıqların üzərində höccətin, böyük nişanən və böyük xəbərin olan Əliyə salam göndər! Dünya qadınlarının xanımı, düz danışan, pak-pakizə olan Fatimeyi-Zəhraya salam göndər. Rəhmət Peyğəmbərinin iki nəvəsi, hidayət imamı və behişt gənclərinin sərvəri olan Həsən və Hüseynə salam göndər. Müsəlmanların imam və rəhbərləri Əli ibn Hüseyn, Mühəmməd ibn Əli, Cəfər ibn Mühəmməd, Musa ibn Cəfər, Əli ibn Musa, Mühəmməd ibn Əli, Əli ibn Mühəmməd, Həsən ibn Əli və onun övladı hidayət edən və hidayət olunan Mehdiyə salam göndər. Onlar Sənin bəndələrinə höccətin və diyarında əmanətdarlarındır. Onlara çoxlu və daimi olaraq salam göndər. İlahi, zəmanənin sahibi həzrət Qaimə – intizarı

çəkilən ədalətli imama salam göndər, onu dərgahına yaxın olan mələklərlə əhatə et, Ruhul-Qudus vasitəsilə təsdiq et, ey aləmlərin Rəbbi! İlahi, onu yer üzündə kitabına dəvətçi və dinini dirçəldən xəlifən et, necə ki, ondan əvvəlkiləri xəlifə etdin, onun üçün razı olduğun dinini onun vasitəsilə bərpa et, qorxusunu əmin-amanlığa çevir ki, Sənə ibadət etsin, heç bir şeyi Sənə şərik qoşmasın.

İlahi, onu əziz et, onun zühuru ilə bizə izzət ver, ona kömək et və bizi ona yardımçı et, ona izzətli zəfər, asan uğur və iqtidar və Öz tərəfindən ona qüdrət və səltənət bağışla! İlahi, onun vasitəsilə dinini və Peyğəmbərinin sünnəsini aşkar et, belə ki, varlıqların qorxusundan heç kimə haqq və həqiqətdən bir şey gizli qalmasın. İlahi, biz elə bir əzəmətli dövlətin arzusundayıq ki, onun sayəsində İslam və müsəlmanlar öz izzətini geri qaytarsın, nifaq və münafiqlər zillətə düçar olsun və həmin dövlətdə bizi itaətə dəvət edənləri öz yolunda rəhbər seçəsən, onun vasitəsi ilə dünya və axirətin böyüklüyünü bizə nəsib edəsən. İlahi, bizə tanıtdığın haqqa dözümümüzü artır et və tanımadığımızı da tanıtdır! İlahi, onun vasitəsilə pərakəndəliyimizi aradan qaldır, ayrılığımızı birləşdir, ixtilaflarımıza son qoy, azlığımızı çoxalt, onun varlığı sayəsində zillətimizi izzətə çevir, ehtiyacımızı təmin et, onun bərəkəti ilə borcumuzu əda et, yoxsulluğumuzu aradan qaldır, nöqsanımızın qarşısını al, çətinliyimizi asanlaşdır, bizi üzüağ et, əsirlərimizi əsarət zəncirindən qurtar, istəklərimizi qarşıla, (onun zühuru ilə bağlı) bizə vəd etdiyin sözü yerinə yetir, dualarımızı qəbul et, istəklərimizi ver, bizi dünya və axirət arzularımıza çatdır və bizə istəyimizdən yaxşısını əta et!

Ey qapısına üz tutulanların ən yaxşısı və əta edənlərin ən səxavətlisi! Onun varlığı sayəsində bizim batini ağrılarımıza şəfa ver, ürəklərimizin hirsini söndür, bütün ixtilaflara baxmayaraq, onun bərəkəti ilə bizi haqqa hidayət et. Şübhəsiz, Sən istədiyini doğru yola hidayət edərsən. Onun zühuru ilə bizi düşmənlərinə və düşmənlərimizə qalib et, ey haqq Allah, kəraminlə dualarımızı qəbul et! İlahi, əziz peyğəmbərlə ayrılıqdan (ona və Əhli-beytinə Sənin salamın olsun), mövlamızın qeybindən, düşmənin çoxluğu və sayımızın azlığından, bizə üz tutmuş üzücü fitnələrdən, dövrümüzün şəraitinin bizim ziddimizə çiyin-çiyinə dayanmasından Sənə şikayət edirik. Belə isə, Mühəmməd və Əhli-beytinə salam göndər, Öz tərəfindən olan təcili bir zəfərlə, çətinlikləri aradan qaldırmaqla, izzətli yardımınla, aşkar etdiyin haqq səltənətlə, bizi əhatə edən geniş rəhmətinlə və bizə geyindirdiyin sağlamlıq libası ilə bizim imdadımıza yet, Sənə Öz rəhmətini and verirəm, ey rəhimlilərin ən rəhimlisi!

## Səhər duası

Əbu Həmzə Sumali "Misbah" kitabında nəql etmişdir ki, İmam Zeynul-abidin (ə) Ramazan ayında hər səhər bu duanı oxuyardı:

*Bismillahir rəhmanir rəhim*

*"İlahi la tuəzzibni biuqubətikə və la təmkur bi fi hiylətikə min əynə liyəl xəyru ya rəbbi və la yucədu illa min indikə və min əynə liyən nəcatu və la tustətau illa bikə ləl ləzi əhsənəs təğna ən aunikə və rəhmətikə vələl ləzi əsaə vəctərəə ələykə və ləm yurzikə xərəcə ən qudrətikə ya rəbbi ya rəbbi ya rəbb bikə ərəftukə və əntə dələltəni ələykə və dəautəni iləykə vəl au la əntə ləm ədri ma əntə əlhəmdu lillahil ləzi əduhu fəyucibuni və in kuntu bətiyən hinə yəduni vəlhəmdu lillahil ləzi əsəluhu fəyutini və in kuntu bəxilən hinə yəstəqrizuni vəlhəmdu lillahil ləzi unadihi kulləma şitu lihacəti və əxlu bihi həysu şitu lisirri bigəyri şəfiin fə yəqzi li hacəti vəlhəmdu lillahil ləzi la ədu ğəyrəhu vəlau dəautu ğəyrəhu lən yəstəcib li duai vəlhəmdu lillahi əlləzi la ilahə ğəyrəhu vəlau rəcautu ğəyrəh ləəxləfə rəcai vəlhəmdu lillahil ləzi vəkələni iləyhi fə əkrəməni və yəkilni ilən nasi fəyuhinuni vəlhəmdu lillahil ləzi təhəbbəbə iləyyə və huvə ğəniyyun ənni vəlhəmdu lillahil ləzi yəhlumu ənni hətta kəənni la zənbə li fərəbbi əhmədu şəyin indi və əhəqqu bihəmdi. Əllahummə inni əcidu subuləl mətalibi iləykə muşrəətən və mənahilər rəcai iləykə mutrəətən vəl istianətə bifəzlikə limən əmmələkə mubahətən və əbvabəd duai iləykə lissarixinə məftuhətən və ələmu ənnəkə lirraci bimauzii icabətin və lil məhufinə bimərsədi icasətin və ənnə fil ləhfi ila cudikə vər riza biqəzaikə ivəzən min mənil baxilinə və mənduhətən əmma fi əydil mustəsirikə və ənnər rahilə iləykə qəribul məsafəti və ənnəkə la təhtəcibu ən xəlqikə illa ən təhcubəhumul əmalu dunəkə və qəd qəsədtu iləykə bitələbəti və təvəccəhtu iləykə bihacəti və cəəltu bikə istiğasəti və biduaikə təvəssuli min ğəyri istihqaqin lis*

*timaikə minni və la istivabin liəfvikə ənni bəl lisəqəti bikərəmikə və sukuni ila sidqi vədikə və ləcai iləl imani bicuhudikə və yəqini bimərifətikə minni ən la rəbbə li ğəyrukə və la ilahə illa əntə vəhdəkə la şərikə lək. Əllahummə əntəl qailu və qaulukə həqqun və vədukə sidqun vəsəlullahə min fəzlihi innəllahə kanə bikum rəhimən və ləysə min sifatikə ya səyyidi ən təmurə bis suali və təmnəəl ətiyyətə və əntəl mənnanu bil ətiyyati əla əhli məmləkətikə vəl aidu ələyhim bitəhənnuni rəfətikə ilahi rəbbəytəni fi niəmikə və ihsanikə səğirən və nəvvəhtə bi ismi kəbirən fə ya mən rəbbani fid dunya bi ihsanihi və təfəzzulihi və niəmihi və əşarə li fil axirəti ila əfvihi və kərəmihi mərifəti ya maulayə dəlili ələykə və hubbi ləkə şəfii iləykə və ənə vasiqun min dəlili bidəlalətikə və sakinun min şəfii ila şəfaətikə ədukə ya səyyidi bilisanin qəd əxrəcəhu zənbuhu rəbbi unacikə biqəlbin qəd aubəqəhu curmuhu ədunə ya rəbbi rahibən racibən raciyən xaifən iza rəəytu maulayə zunubi fəzitu və iza rəəytu kəraməkə təmitu fə in əfautə fə xəyru rahimin və in əzzəbtə fə ğəyru zalimin huccəti ya Əllahu fi curəti əla məsələtikə məə ityani ma təkrəhu cudukə və kərəmukə və uddəti fi şiddəti məə qilləti həyai rəfətukə və rəhmətukə və qəd rəcautu ən la təxibə bəynə zəyni və zəyni munyəti fə həqqiq rəcai vəsmə ya xəyrə mən dəahu dain və əfzələ mən rəcahu racin əzumə ya səyyidi əməli və saə əməli fə ətini min əfvikə bimiqdari əməli və la tuaxizni biəsvai əməli fə innə kərəməkə yəcillu ən mucazatil muznibinə və hilməkə yəkburu ən mukafatil muqəssirinə və ənə ya səyyidi aizun bifəzlikə haribun minkə iləykə mutənəccizun ma vəədtə minəs səfhi əmmən əhsənə bikə zənnən və ma ənə ya rəbbi və ma xətəri həbni bifəzlikə və təsəddəq ələyyə bi əfvikə ya rəbbi cəllilni bisitrikə vəfu ən taubihi bikərəmi vəchikə fələvit tələəl yaumə əla zənbi ğəyrukə ma fəəltuhu vəlau xiftu təciləl uqubəti ləctənəbtuhu la liənnəkə əhvənun nazirinə və əxəfful muttəliin bəl*

*liənnəkə ya rəbbi xəyrus satirinə və əhkəmul hakiminə və əkrəmul əkrəmin səttarul uyub ğəffaruz zunub əllamul ğuyubi təsturuz zənbə bikərəmikə və tuəxxirul uqubətə bihilmikə fələkəl həmdu əla həlmikə bədə ilmikə və əla əfvikə bədə qudrətikə və yəhmiluni və yucərriuni əla məsiyətikə hilmukə ənni və yəduni ila qillətil həyai sitrukə ələyyə və yusriuni ilət təvəssubi əla məharimikə mərifəti bisəəti rəhmətikə və əzimi əfvikə ya həlimu ya kərimu ya həyyu ya qəyyumu ya ğafiruz zənbi ya qabilət taubi ya əziməl mənni ya qədiməl ihsani əynə sitrukəl cəmilu əynə əfvukəl cəlilu əynə fərəcukəl qərib əynə ğiyasukəs səri əynə rəhmətukəl vasiətu əynə əmayakəl fazilətu əynə məvahibukəl həniəh əynə sənaiukəs səniyyətu əynə fəzlukəl əzimu əynə mənnukkəl cəsimu əynə ihsanukəl qədimu əynə kərəmukə ya kərimu bihi fəstənqizni və birəhmətikə fə xəllisni ya muhsinu ya mucmilu ya munimu ya mufzil ləstu əttəkilu fin nəcati min iqabikə əla əmalina bəl bifəzlikə ələyna liənnəkə əhlut təqva və əhlul məğfirəti tubdiu bil ihsani niəmən və təfu əniz zənbi kərəmən fəma ədri ma nəşkuru əcəmilən ma tənşuru əm qəbihə ma təsturu əm əzimə ma əbləytə və auləytə əm kəsirə ma minhu nəccəytə və afəytə ya həbibə ma təhəbbəbə iləykə ya qurrətə əyni in lazə bikə vənqətəə iləykə əntəl muhsinu və nəhnul musiun fə təcavəz ya rəbbi ən qəbihi ma indəna bicəmili ma indəkə və əyyu cəhlin ya rəbbi yəsəuhu cudukə au əyyu zəmanin ətvəlu min ənatikə və ma qədru əmalinə fi cənbi niəmikə və kəyfə nəstəksiru əmalən nuqabilu biha kərəməkə bəl kəyfə yəziqu ələl muznibinə ma vəsiəhum min rəhmətikə ya vasiəl məğfirəti ya basitəl yədəyni bir rəhməti fəvə izzətikə ya səyyidi lau nəhərtəni ma bərihtu min babikə və la kəfəftu ən təməlluqikə liməntəha iləyyə minəl mərifəti bicudikə və kərəmikə və əntəl failu lima təşau tuəzzibu mən təşau bima təşau kəyfa təşau və tərhəmu mən təşau bima təşau kəyfə təşau la tusəlu ən filukə və la tunazəu fi mulkikə və la*

*tuşarəku fi əmrikə və la tuzaddu fi hukmikə və la yətərizu ələykə əhədun fi tədbirikə ləkəl xəlqu vəl əmru təbarəkəllahu rəbbul aləmin ya rəbbi haza məqamu mən lazə bikə vəstəcarə bikərəmikə və əlifə ihsanəkə və niəməkə və əntəl cəvadul ləzi la yəziqu əfvukə və la yənqusu fəzlukə və la təqillu rəhmətukə və qəd təvəssəqna minkə bis səfhil qədimi vəl fəzlil əzim vər rəhmətil vəsiəti əfətərakə ya rəbbi tuxlifu zunubəna au tuxəyyibu amaləna kəlla ya kərimu fələysə haza zənnuna bikə və la haza fikə təmuna ya rəbbi inna ləna fikə əmələn təvilən kəsira inna ləna fika rəcaən əzimən əsəynakə və nəhnu nərcu ən təsturə ələynə və dəaunakə və nəhnu nərcu ən təstəcibə ləna fəhəqqiq rəcaəna maulana fəqəd əlimna ma nəstaucibu biəmalina və lakin ilmukə fina və ilmuna biənnəkə la təsrifuna ənkə və in kunna ğəyrə mustaucibinə lirəhmətikə fə əntə əhlun ən təcudə ələynə və ələl muznibinə bifəzli səətikə fəmnun ələyna bima əntə əhluhu vəcud ələyna fə inna mustacuna ila nəylikə ya ğəffaru binurikəhtədəyna və bifəzlikəs təcəyna və binimətikə əsbəhna və əmsəyna zunubəna bəynə yədəykə nəstəğfiruk. Əllahummə minha və nətubu iləykə tətəhəbbəbu iləyna binniəmi və nuarizukə biz zunubi xəyrukə iləyna nazilun və şərruna iləykə saidun vələm yəzəl və la yəzalu mələkun kərimun yətikə ənna bi əməlin qəbihin fəla yəmnəukə zalikə min ən təhutəna biniəmikə və təfəzzələ ələyna bi alaikə fə subhanəkə ma əhləməkə və əzəməkə və əkrəməkə mubdiən və muidən təqəddəsət əsmaukə və cəllə sənaukə və kərumə sənaiukə və fialukə əntə ilahi ausəu fəzlən və əzəmu hilmən min ən tuqayisəni bifili və xətiəti fəl əfvəl əfvə səyyidi səyyidi səyyidi. Əllahumməş ğəlna bizikrikə və əizna min səxətikə və əcirna min əzabikə vərzuqna min məvahibikə və ənim ələyna min fəzlikə vərzuqna həccə bəytikə və ziyarətə qəbri nəbiyyikə sələvatukə və rəhmətukə və məğfirətukə və rizvanukə ələyhi və əla əhli bəytihi innəkə qəribun mucib vərzuqna əmələn*

*bitaətikə və təvəffəna əla millətikə və sunnəti nəbiyyikə səlləllahu ələyhi və alih əlahumməğfir li və livalidəyyə vərhəmhuma kəma rəbbəyani səğirən iczihima bil ihsani ihsanən və bis səyyiati ğufrəna əllahumməğfir lil mumininə vəl muminatil əhyai minhum vəl əmvati və tabibəynəna və bəynəhum bil xəyrat əllahumməğfur lihəyyina və məyyitina və şahidina və ğaibina zəkərina və unsana səğirina və kəbirina hurrina və məmlukina kəzəbəl adilunə billahi və zəllu zəlalən bəidən və xəsiru xusrarən mubina əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd vəxtim li bixəyrin vəkfini ma əhəmməni min əmru dunyayə və axirəti və la tusəllit ələyyə mən la yərhəmuni vəcəl ələyyə minkə vaqiyətən baqiyətən və la təslubni salihə ma ənəmtə bihi ələyyə vərzuqni min fəzlikə rizqən vasiən həlalən təyyiba əllahumməhrusni bihərasətikə vəhfəzni bihifzikə vəkləni bikəlaətikə vərzuqni həccə bəytikəl hərami fi amina haza və fi kulli amin və ziyarətə qəbri nəbiyyikə vəl əimmətə ələyhimus səlamu və la tuxlini ya rəbbi min tilkəl məşahidiş şərifəti vəl məvaqifil kəriməh. Əllahummə tub ələyyə hətta la əsiyəkə və əlhimnil xəyrə vəl əmələ bihi və xəşyətəkə billəyli vən nəhari ma əbqəytəni ya rəbbəl aləmin. Əllahummə inni kulləma qultu qəd təhəyyətu və təəbbətu və qumtu lissəlati bəynə yədəykə və nacəytukə əlqəytə ələyyə nuasən iza ənə sălləytu və sələbtəni munacətəkə iza ənə nacəytu mali kulləma qultu qəd sələhət sərirəti və qərubə min məcamisit təvvabinə məclisi ərəzət li bəliyyətun əzalət qədəmi və halət bəyni və bəynə xidmətikə səyyidi ləalləkə ən babikə tərədtəni və ən xidmətikə nəhhəytəni au ləalləkə rəəytəni murizən ənkə fəqələytəni au ləalləkə vəcədtəni fi məqamil kazininə fərəztəni au ləalləkə ğəyrə şakirin linəmaikə fərəhəmtəni au ləalləkə fəqədtəni min məcalisil iləman fəxəzəltəni au ləalləkə rəəytəni alifə məcalisil bəttalinə fəbəyni və bəynəhum xəlləytəni au ləalləkə ləm tuhibbə ən təsməə duai fəbaədtəni au ləalləkə bicurmi və*

*cərirəti kafəytəni au ləalləkə biqiləti həyai minkə cazəytəni fəin əfvutə ya rəbbi fətalə ma əfautə ənil muznibinə qəbli mənnə kərəməkə əy rəbbi yəcillu ən mukafatil muqəssirinə və ənə aizun bifəzlikə haribun minkə iləykə mutənəccizun ma vəədtə minəs səfhi əmmən əhsənə bikə zənnən ilahi əntə ausəu fəzlən və əzəmu hilmən min ən tuqayisəni bi əməli au ən təstəzilləni bixətiəti və ma ənə ya səyyidi və ma xətəri həyni bifəzlikə seyyidi və təsəddəq ələyyə biəfvikə və cəllilni bisitrikə vəfu ən taubixi bikərəmi vəchikə səyyidi ənəs səğurul ləzi rəbbəytəhu və ənəl vəziul ləzi rəfətəhu və ənəl xaiful ləzi aməntəhu vəl cayiul ləzi əşbətəhu vəl əttanul ləzi ərvəytəhu vəl aril ləzi kəsautəhu vəl fəqirul ləzi əğnəytəhu vəz zəiful ləzi qəvvəytəhu vəz zəlilul ləzi əzəztəhu vəs səqimul ləzi şəfəytəhu vəs sailul ləzi ətəytəhu vəl muznibul ləzi sətərtəhu vəl xatiul ləzi əqəltəhu və ənəl qəlilul ləzi kəssərtəhu vəl mustəzəful ləzi nəsərtəhu və ənət təridul ləzi avəytəhu ənə ya rəbil ləzi ləm əstəhyikə fil xəlai vələm uraqibkə fil məlai ənə sahibud dəvahil uzma ənəl ləzi əla səyyidihictəra ənəl ləzi əsəytu cəbbarəs səma ənəl ləzi ətəytu əla məasil cəlilir ruşa ənəl ləzi hinə buşşirtu biha xərəctu iləyha əsa ənəl ləzi əmhəltəni fəmərtəvəytu və sətərtə ələyyə fəməs təhyəytu və əmiltu bil məasi fə təəddəytu və əsqəttəni min əynikə fəma baləytu fəbihilmikə əmhəltəni və bisitrikə sətərtəni hətta ənnəkə əğfəltəni və min uqubbatil məasi cənnəbtəni hətta kə ənnəkə istəhyəytəni ilahi ləm əsikə hiynə əsəytukə və ənə birububiyyətikə cahidun və la biəmrikə mustəxiffun və la liuqubətikə mutəərrizun və la livədikə mutəhavinun. Lakin xətiətun ərəzət və səvvələt li nəfsi və qələbəni həvayə və əanəni ələyha şiqvəti və əzzəni sitrukəl murxa ələyyə fəqəd əsəytukə və xaləftukə bicəhdi fəl ənə min əzabikə mən yəstənqizuni və min əydil xusəman ğədən mən yuxəllisuni və bihəbli mən əttəsilu in əntə qətəətə həbləkə ənni fəva sayəta əla ma əhsa kitabukə min əməlil ləzi lau la ma ərcu*

*min kərəmikə və səəti rəhmətikə və nəhyikə iyyayə ənil qunuti ləqənəttu ində ma ətəzəkkəruha. Ya xeyrə mən dəahu dain və əfzələ və mən rəcahu racin. Əllahummə bizimmətil islami ətəvəssəlu iləykə və bihur mətil Qurani ətəmidu iləykə və bihubbin nəbiyyəl ummiyyəl qurəyşiyyəl haşimiyyəl ərəbiyyət təhamiyyəl məkkiyyəl mədəniyyə ərcuz zulfətə lədəykə fəla tuhişi istinasə imani və la təcəl səvabi səvabə mən əbədə sivakə fəinnə qaumən amənu bi əlsinətihim liyəhqinu bihi dimaəhum fə ədrəku ma əmməlu və inna amənna bikə bi əlsinətina və qulubina litəfuvə ənna fə ədrəkna ma əmməlna və səbbit rəcaəkə fi sudurina və la tuzif qulubəna bədə iz hədəytəna və həb ləna min lədunkə rəhmətən innəkə əntəl vəhhab fəvəizzətikə ləvin təhərtəni ma bərihtu min babik. Və la kəfəftu ən təməlluqikə lima ulhimə qəlbi minəl mərifəti bikərəmikə və səəti rəhmətikə ila mən yəzhəbul əbdu illa ila mauləhu və ila mən yəltəciul məxluqu illa ila xaliqihi ilahi lau qərəntəni bil əsfadi və mənətəni səybəkə min bəynil əşhadi və dələltə əla fəzayihi uyunəl ibadi və əmərtə bi illən nar. Və hultə bi və bəynəl əbrari ma qətətu rəcai minkə və masərəftu təmili lil əfvi ənkə və la xərəcə hubbukə min qəlbi ənə la ənsə əyadiyəkə indi və sətrənə ələyyə fi darid dunya. Səyyidi əxric hubbəd dunya min qəlbi vəcmə bəyni və bəynəl mustəfa və alihi xiyərətikə min xəlqik və xatəmən nəbiyyinə Muhəmmədin səlləllahu ələyhi və alih vənqulni ila dərəcətit taubəti iləyk. Və əinni bil bukai əla nəfsi fəqəd əfnəytu bittəsvifi vəl amali umri vəqəd nəzəltu mənzilətəl isinə min xeyri fəmən yəkunu əsvəə halən minni in ənə nuqiltu əla misli hali ila qəbri ləm uməhhidhu lirəqdəti. Və ləm əfruşhu bil əməlis salihi lizəcəti və mali la əbki və la ədri ila ma yəkunu məsiri və əra nəfsi tuxadiuni və əyyami tuxatiluni. Və qəd xəfəqət ində rəsi əcnihətul mauti fəmali la əbki, əbki lixuruci nəfsi, əbki lizulməti qəbri, əbki liziqi ləhdi, əbki lisuali munkərin və nəkirin iyyayə, əbki lixuruci min qəbri uryanən zəlila*

*hamilən siqli əla zəhri ənzuru mərrətən ən yəmini və uxra ən şimali izil xəlaiqu fi şənin ğəyri şəni. Likulli imriin minhum yauməizin şənun yuğnihi vucuhun yauməizin ələyha qəbərəh tərhəquha qətərtun və zilləh səyyidi ələykə muəvvəli və mutəmədi və rəcai və təvəkkuli və birəhmətikə təəluqi tusibu birəhmətikə mən təşau və təhdi bikəramətikə mən tuhibu fələkəl həmdu əla ma nəqqəytə minəş şirki qəlbi və ləkəl həmdu əla bəsti lisani əfəbilisani hazəl kalli əşkurukə əm biğayəti cuhdi fi əməli urzikə və ma qədru lisani ya rəbbi fi cənbi şukrik. Və mən qədru əməli fi cənbi niəmikə və ihsanikə ilahi innə cudəkə bəsətə əməli və şukrəkə qəbilə əməli səyyidi iləykə rəğbəti və iləykə rəhbəti və iləykə təmili və qəd saqərni iləykə əməli və ələykə ya vahidi əkəfət himməti və fima indəkə bəsətət rəğbəti və ləkə xalisu rəcai və xaufi və bikə ənəsət məhəbbəti və iləykə əlqəytu biyədi və bihəbli taətikə mədədtu rəhbətu ya maulayə bizikrikə aşə qəlbi və bimunacətikə bərrədtu ələməl xaufi ənni fə ya maulayə və ya muəmməli və ya muntəha suli fərriq bəyni və bəynə zənbiyəl manii li min luzumi taətikə fəinnəma əsəlukə liqədimir rəcai fikə və əzimit təməi mink. Əlləzi aucəbtəhu əla nəfsikə minər rəfəti vər rəhməh fəl əmru ləkə vəhdəkə la şərikə ləkə vəl xəlqu kulluhum iyalukə və fi qəbzətikə və kullu şəyin xaziun ləkə təbarəktə ya rəbbəl aləmin. Ilahir həmni izənqətəət huccəti və kəlla ən cəvabikə lisani və taşə ində sualikə iyyayə lubbi fəya əzimə rəcai la tuxəyyibni izəş təddət faqəti və la təruddəni li cəhli və la təmnəəni liqilləti səbri ətini li fəqri vərhəmni lizəfi səyyidi ələykə mutəmədi və muəvvəli və rəcai və təvəkkuli və birəhmətikə təəlluqi və bifənaikə əhuttu rəhli və bicudikə əqsidu talibəti və bikərəmikə əy rəbbi əstətihu duai və lədəykə ərcu faqəti və biğinaikə əcburu əyləti və təhtə zilli əfvikə qiyami və ila cudikə və kərəmikə ərfəu bəsəri və ila mərufikə udimu nəzəri fəla yuhriqni bin nari və əntə mauziu əməli və la tuskinnil*

*haviyətə fəinnəkə qurrətu əyni ya səyyidi la tukəzzib zənni bi ihsanikə və mərufikə fə innəkə siqəti və la təhrimni səvabəkə fəinnəkəl arifu bifəqri. Ilahi in kanə qəddəna əcəli vələm yuqərribni minkə əməli fəqəd cəəltul itirafə iləykə bizənbi və sailə iləli. Ilahi in əfautə fəmən aula minkə bil əfvi və in əzzəbtə fəmən ədəlu minkə fil hukm irhəm fi hazihid dunya ğurbəti və indəl mauti kurbəti və fil qəbri vəhdəti və fil ləhdi vəhşəti və iza nuşirtu lil hisabi bəynə yədəykə zullə mauqifi vəğfirli ma xəfiyə ələl ədəmiyyəinə min əməli və ədim li ma bihi sətərtəni vərhəmni səriən ələl firaşi tuqəlli buni əydi əhibbəti və təffəzəl ələyyə məmdudən ələl muğtəsəli yuqəllibuni salihu cirəti və təhənnən ələyyə məhmulən qəd tənavələl əqribau ətrafə cənazəti və cud ələyyə mənqulən qəd nəzəltu bikə vəhidən fi hufrəti vərhəm fi zalikəl bəytil cədidi urbəti hətta əstənisə biğeyrikə ya seyyidi in vəkəltəni ila nəfsi hələktu səyyidi fəbimən əstəğisu in ləm tuqilni əsrəti fə ilə mən əfzəu in fəqədtu inayətəkə fi zəcəti və ila mən əltəciu in ləm tinəffis kubrəti səyyidi mən li və mən yərhəmuni in ləm tərhəmni və fəzlə mən uəmmilu in ədimtu fəzləkə yaumə faqəti və ila mənil firaru minəz zunubi izən qəza əcəli səyyidi la tuəzzibni və ənə ərcukə ilahi həqqiq rəcai və amin xaufi fəinnə kəsrətə zunubi la ərcu fiha illa əfvəkə səyyidi ənə əsələkə ma la əstəhiqqu və əntə əhluttəqva və əhlul məğfirəti fəğfirli və əlbisni min nəzərikə saubən yuğətti ələyyət təbiati və təğfiru hali və la utaləbu biha inniəə zumənnin qədimin və səfhin əzimin və təcavuzin kərimin. Ilahi əntəl ləzi tufizu səybəkə əla mən la yəsələkə və ələl cahidinə birububiyyətikə fəkəyfə səyyidi bimən səələkə və əyqənə ənnəl xəlqə ləkə vəl əmrə iləykə təbarəktə və təaləytə ya rəbbəl aləmin. Səyyidi əbdukə bibabikə əqaməthul xəsasətu bəynə yədəykə yəqrəu babə ihsanikə biduaihi fəla turiz bivəchikəl kərimi ənni vəqbəl minni ma əqulu fəqəd dəautu bihazəd duai və ənə ərcu ən la təruddəni mərifətən minni birəfətikə və*

*rəhmətikə. Ilahi əntəl ləzi la yuhfikə sailun və la yənqusukə nailun əntə kəma təqulu və fauqə ma nəqulu. Əllahummə inni əsəlukə səbrən cəmila və fərəcən qəriba və qaulən sadiqən və əcrən əzima əsəlukə ya rəbbi minəl xəyri kullihi və əlimtu minhu və ma ləm ələm əsəlukə əllahummə min xəyri ma səələkə minhu ibadukəs salihunə ya xəyrə mən suilə və əcvədə mən əta ətini suli fi nəfsi və əhli və validəyyə və vələdi və əhli huzənəti və ixvani fikə və ərğid əyşi və əzhir muruvvəti və əslih cəmiə əhvali vəcəlni mimmən ətəltə umrəh və həssəntə mələhu və ətməmtə ələyhi nimətəkə və rəzitə ənhu və əhyəytəhu həyatən təyyibətən fi ədvəmis sururi və əsbəğil kəraməh və ətəmmil əyşi innəkə təfəlu ma təşau və la təfəlu ma yəşau ğəyrukə. Əllahummə xussəni minkə bixassəti zikrikə və la təcəl şəyən mimma ətəqərrəbu bihi fi anail ləyli və ətrafin nəhari riyaən və la suməh və la əşərən və la bətəra vəcəlni ləkə minnəl xaşiin. Əllahummə ətinis səəti fir rizq vəl əmnə fil vətən və qurrətəl əyni fil əhli vəl mali vəl vələd vəl muqamə fi niəmikə indi vəs sihhətə fil cismi vəl quvvətə fil bədən vəs sələmətə fid dini vəs təmilni bitaətikə və taəti rəsulikə Muhəmmədin səlləllahu ələyhi və alihi əbədən mətəmərtəni vəcəlni min aufəri ibadikə indəkə nəsibən fi kulli xeyrin ənzəl təhu və tunziluhu fi şəhri rəməzanə fi ləylətil qədr. Vəma əntə munziluhu fi kulli sənəh min rəhmətin tənşuruha və afiyətin tulbisuha və bəliyyətin tədfəyha və həsənatin tətəqabbəluha və səyyiatin tətəcavəzu ənha vərzuqni həccə bəytikəl hərami fi amina haza və fi kulli amin vərzuqni rizqən vasiən min fəzlikəl vasii vəsrif ənni ya səyyidil əsvaə vəqzi ənnid dəynə vəz zulumati hətta la ətəəzza bişəyin minhu və xuz ənni biəsmai əzdadi və əbsari ədai və hussadi vəl bağinə ələyyə vənsurni ələyhim və əqirrə əyni və fərrih qəlbi vəcəl li min həmmi və kərbi fərəcən və məxrəca vəcəl mən əradəni bisuin min cəmii xəlqikə təhtə qədəməyyə vəkfini şərrəş şəytani və şərrəs sultani və səyyiati əməli və təhhirni minəz*

*zunubi kulliha və əcirni minən nari biəfvik və ədxilnil cənnətə birəhmətikə və zəvvicni minəl huril əyni bifəzlik və əlhiqni biauliyaikəs salihinə Muhəmmədin və alihil əbrarit təyyibinət tahirinəl əxyar sələvatukə ələyhim və əla əcsadihim və ərvahihim və rəhmətullahi və bərəkatuh ilahi və səyyidi və izzətikə və cəlalikə ləin tələbtəni bizunubi liutalibənnəkə bikərəmikə və ləin ədxəltənin narə ləyx birənnə əhlən nari bihubbi lək ilahi və səyyidi in kuntə təğfiru illa liauliyaikə və əhli taətik fə ila mən yəfzəul muznibun və in kuntə la tukrimu illa əhləl vəfai bikəə fəbimən yəstəğisul musiunə. Ilahi və in ədxəltənin narə fəfi zalikə sururu əduvvikə və in ədxəltənin cənnətə fəfi zalikə sururu nəbiyyik. Və ənə vallahi ələmu ənnə sururə nəbiyyikə əhəbbu iləykə min sururi əduvvik. Əllahummə inni əsəlukə ən təmləə qəlbi hubbən lək və xəşyətən mink və təsdiqən bikitabik və imanən bikə və fərəqən minkə və şauqən iləyk ya zəl cəlali vəl ikrami həbbib iləyyə liqaəkə və əhbib liqai vəcəl li fi liqaikər rahətə vəl fərəcə vəl kəraməh. Əllahummə əlhiqni bisalihi mən məza vəcəlni min salihi mən bəqiy və xuzbi səbiləs salihin və əinna əla nəfsi bima tuinu bihis salihinə əla ənfusihum vəxtim əməli biəhsənihi vəcəl səvabi minhul cənnətə birəhmətikə və əinni əla salihi ma ətəytəni və səbbitni ya rəbbi və la təruddəni fi suin istənqəztəni minhu ya rəbbəl aləmin. Əllahummə inni əsəlukə imanən la əcələ ləhu dunə liqaik əhyini ma əhyəytəni ələyhi və təvəffəni iza təvəffəytəni ələyh vəbəsni iza bəəstəni ələyh və əbri qəlbi minər riyai vəş şəkki vəs suməti fi dinikə hətta yəkunə əməli xalisən lək. Əllahummə ətini bəsirətən fi dinik və fəhmən fi hukmik və fəqhən fi ilmik və kifiəyni min rəhmətikə və vərəən yəhcuzni ən məasik və bəyyiz vəchi binurik vəcəl rəğbəti fima indəkə və təvəffəni fi səbilik və əla millətti rəsulikə səlləllahu ələyhi və alih. Əllahummə inni əuzu bikə minəl kəsəli vəl fəşəli vəl həmmi vəl cubni vəl buxli vəl ğəfləh vəl qəsvəti vəl*

*məskənəti vəl fəqri vəl faqəh və kulli bəliyyətin vəl fəvahiş ma zəhərə minha vəma bətən və əuzu bikə min nəfsin la təqnə və bətnin la yəşbə və qəlbin la yəxşə və duain la yəsmə və əməlin la yənfə və əuzu bikə ya rəbbi əla nəfsi və dini və mali və əla cəmii ma rəzəqtəni minəş şəytanir rəcim innəkə əntəs səmiul əlim. Əllahummə innəhu la yuciruni minkə əhəd və la əcidu min dunikə multəhəda fəla təcəl nəfsi fi şəyin min əzabik və la təruddəni bihələkətin və la təruddəni biəzabin əlim. Əllahummə təqəbbəl minni və əin zikri vərfə dərəcəti və huttə vizri və la təzkurni bixətiəti vəcəl səvabə məclisi və səvabə məntiqi və səvabə duai rizakə vəl cənnəh və ətini ya rəbbi cəmiə ma səəltuk və zidni min fəzlik inni iləykə rağibun ya rəbbəl aləmin. Əllahummə innəkə ənzəltə fi kitabikə ən nəfuvə əmmən zələməna və qəd zələmna ənfusəna fəfu ənna fə innəkə aula bizalikə minna və əmərtəna ən la nəruddə sailən ən əbvabinə və qəd citukə sailən fəla təruddəni illa biqəzai hacəti və əmərtəna bil ihsani ila ma mələkət əymənuna və nəhnu əriqqaukə fə ətiq riqabəna minən nar ya məfzəi ində kurbəti və ya ğausi ində şiddəti iləykə fəzitu və bikəs təğəstu və luzt la əluzu bisivakə və la ətlubul fərəcə illa mink fə əğisni və fərric ənni ya mən yəfukkul əsir və yəfu ənil kəsir iqbəl minnil yəsir vəfu ənnil kəsir innəkə əntər rəhimul ğəfur. Əllahummə inni əsəlukə imanən tubaşiru bihi qəlbi və əqinən həttə ələmə ənnəhu lən yusibəni illa ma kətəbtə li və rəzzini minəl əyşi bima qəsəmtə li ya ərhəmər rahimin.”*

## Duanın tərcüməsi

*Bismillahir rəhmanir rəhim*

Ey mənim Allahım, məni Öz əzablarınla ədəbləndirmə və möhkəm tədbirlərinlə cəzalandırma. Ey mənim Pərvərdigarım, Səndən başqa kimdir mənə xeyir verən? Bu yalnız Sənin yanındadır, başqa yerdə tapılmaz və mənim

üçün nicat yolu hardadır? Buna Səndən başqa heç kəsin qüdrəti yoxdur. Sənin rəhmət köməyindən ehtiyacsız olmaq heç yaxşı iş deyil. O kəs ki, cürət edib Sənə qarşı günah edir və Sənin fərmanından çıxıb, Səni narazı edir, o kəs çox pis iş görür.

Ey Pərvərdigar, ey Pərvərdigar, ey Pərvərdigar!!! Mən Səni Sənin vasitən ilə tanımışam, Sən mənə yol göstərmisən və məni Öz tərəfinə dəvət eləmisən. Əgər Sən olmasaydın, bilməzdim ki, Sən kimsən.

Həmd edirəm o Allaha ki, Onu çağıraram, məni qəbul edib cavab verir, hərçənd O məni çağıranda mən tənbəllik edirəm.

Həmd edirəm o Allaha ki, Ondan sual edib istəyirəm. O da mənə əta edib, bəxşiş verir, hərçənd O məndən borc istəyəndə mən simiclik edirəm.

Həmd edirəm o Allaha ki, istədiyim vaxtda Onu öz hacətim üçün çağırıram, hər bir sirrimi xəlvətdə vasitəsiz olaraq ona açıram, O da mənim hacətimi rəva edir.

Həmd edirəm o Allaha ki, yalnız Onu çağırıram. Ondan qeyrisini çağırmıram, əgər qeyrisini çağırsam, mənim hacətimi rəva etməz.

Həmd edirəm o Allaha ki, Ona ümid edirəm, Ondan qeyrisinə ümid etsəm, ümidimə xilaf olar.

Həmd edirəm o Allaha ki, mənə pənah verib möhtərəm elədi və məni xəlqin pənahına göndərmədi, yoxsa məni xar edərdilər.

Həmd edirəm o Allaha ki, mənimlə dostluq edir, halbuki O, məndən ehtiyacsızdır.

Həmd edirəm o Allaha ki, mənimlə yumşaq və həlim rəftar edir, belə ki, guya mənim heç günahım yoxdur. Odur ki, mənim Pərvərdigarım mənim yanımda ən çox və böyük tərifə layiq bir vücuddur və buna da onun haqqı var.

Ey mənim Allahım, mən bütün mətləblər yolunu Sənə tərəf açıq, ümidlər məkanını dolu, Sənin fəzilətinə görə

Səndən kömək istəyən kəslərin amalını aşkar bilirəm və Səndən kömək istəyənlər üçün dua qapılarını açıq görürəm. Bilirəm ki, Sənə ümidvar olanlar üçün cavab verən məkanındasan. Məzlumların fəryadına yetişən məqamındasan. Həqiqətən, məzlumluqda Sənin qəza və qədərinə razı olmaq və Sənin bəxşişinə göz dikmək xəsis kəslərin rədd cavabına əvəzdir və sahibkarların verdiyi sıxıntı əvəzində Sənin yaratdığın vüsətdir. Həqiqətən, Sənə tərəf gələnlər üçün məsafə yaxındır və Sən Öz xəlqindən ğərdəli və gizlin deyilsən. Amma amal və arzular onları Sənin yanında pərdəli edib. Mən öz hacətlərim və mətləblərim üçün Sənə tərif üz tutub qəsd etmişəm, Səni öz fəryadıma çağırıram və məni layiq bilməsən də məni eşitməyini istəyirəm, mənim duamı Öz bəxşişinlə müstəcəb etməyini nəzərdə tuturam. Çünki Sənin kəreminə etimadım var, Sənin vədinin doğruluğuna etiqadım, Sənin vəhdətinə iman gətirdiyimə görə Sənə pənahım və Səni tanıdığım üçün Sənə yəqinim var. Səndən başqa mənim Pərvərdigarım yoxdur, Səndən başqa digər Allahım yoxdur. Sən təksən, Sənin şərikin yoxdur.

Ey mənim Allahım, Sən danışansan, danışdıqların haqqdir, vədələrin də doğrudur. Allahdan sual edib Onun fəzlinə görə mətləblərinizi istəyin, həqiqətən, Allah sizə mehribandır. Ey mənim Ağam, Sənin sifətlərindən deyil ki, sual etməyə əmr edəsən, sonra da əta və bəxşiş etməyəsən. Halbuki Sən Öz məmləkətin əhlinə ən böyük bəxşiş verənsən və onlara mükafat verməyin də Sənin mehriban olmağın səbəbinədir.

Ey mənim Allahım, kiçik vaxtımda Öz ehsanın və nemətlərində məni pərvəriş verdin və mənim adımla məni şöhrətləndirib böyütdün. Ey o Kəs ki, məni dunyada Öz ehsanı, Öz təfəzzülü və neməti ilə pərvəriş verdi və axirətdə Öz əfvi və kərəmini mənə işarə eləyib göstərdi. Ey mənim o Ağam ki, Sən tərəfə mənə yol göstərdi, mənim

məhəbbətimin Sənə yetişməsi üçün vasitə oldu, Sənə yol göstərən dəlildə mən möhkəməm və Sənə vasitəçilik edən vasitəyə sakin varam.

Ey mənim Ağam, Səni çağırıram bir dil ilə ki, günahlarım onu Sənin qarşında lal edib. Ey mənim Pərvərdigarım, sirrimi Sənə bir qəlblə açıram ki, günahlar onu həlak edib. Ey mənim Pərvərdigarım, Səni bir halda çağırıram ki, Səndən qorxuram, həm də Sənə rəğbətim var, Səndən ümid gözləyirəm və xovfluyam. Ey mənim Ağam, günahlarımı görəndə nalə çəkirəm, Sənin kəramini görəndə tamah edirəm. Bəs əgər bağışlasan, ən yaxşı rəhm edənsən, yox əgər əzab versən, zalim deyilsən. Ey Allah, cürət qılıb Səndən sual etməkdə mənim bürhanım budur ki, mən Sənin səxavətinə və kəraminə arxalanıram, yoxsa öz günahlarımdan xəcalət çəkirəm.

Ey çətin vaxtlarda mənim fəryadıma yetişən, az həyalı olduğum halda Sənin rəhmətinə və mehribanlığına arxalanıram. Ümid edirəm ki, mənim həyamın azlığı və Sənin kəraminin çoxluğu arasında məni naümid etməzsən. Bəs mənim ümidimi layiq bil, duamı eşit. Ey o Kəs ki, ona dua olunanların ən yaxşısı və ümid edilənlərin ən fəzilətlisidir, mənim ümidim çox böyük, əməlim isə çox pisdir. Sən ümidim qədər məni əfv et, əməlim qədər məndən tələb etmə. Çünki Sənin kəramin günahkarları cəzalandırmaqdan çox yüksəkdir və Sənin həlimliyin müqəssirləri tənbih etməkdən çox böyükdür.

Ey mənim Ağam, mən Sənin fəzilətinə pənah gətirmişəm, Səndən qaçib yenə də Sənə tərəf gəlirəm. Sənə husni-zənn edənlərin günahlarından keçəcəyini vədə etdiyini yerinə yetirməyi istəyirəm.

Ey mənim Allahım, məni bağışlamağınla Öz fəzilətini və vədini doğruluğunu aşkar elə. Ey mənim Pərvərdiğarım, Öz örtüyünlə mənim günahlarımı ört, Öz zatın kəramiylə mənə tənə vurmağı bağışla. Əgər bu gün mənim

günahlarımdan Səndən qeyrisinin xəbərdar olmasını və Sənin təcili surətlə məni cəzalandıracağını bilsəydim, o günahlardan uzaqlaşardım. Bu günahları edəndə Səni mən öz qarşımda xar və zəif saymamışam və mənim halıma bələd olanların ən yüngülü kimi hesab etməmişəm. Bəlkə səbəb bu olub ki, Səni eyb örtənlərin ən yaxşısı, hakimlərin ən möhkəmi, kərəm sahiblərinin ən kərəmlisi, eybləri örtən, günahları bağışlayan, qeyb işləri bilən hesab etmişəm. Bilmişəm ki, günahları Öz kərəminlə örtürsən, günahkarlara cəza verməyi Öz həlimliyinlə təxirə salırsan. Bəs Sənə həmd olsun ki, elminlə bərabər həlimliyin də var. Odur ki, günah etməkdə Sənin həlimliyin məni cürətləndirir və mənim eyblərimin Sən tərəfdən örtülməsi, mənim həyamın az olmasına səbəb olur, Sənin rəhmətinin genişliyini və əfv etməyini böyüklüyünü bildiyim üçün haram işlərə sürətlə əl atmaq meylini məndə artırıb.

Ey Həlim, ey Kərim, ey Diri, ey həmişə bərqərar, ey günahları bağışlayan, ey tövbələri qəbul edən, ey böyük nemət sahibi, ey qədim ehsan edən! Haradadı Sənin eybləri və günahları örtən gözəl örtüyün? Hardadır Sənin böyük əfvin? Hardadır Sənin yaxındakı fərəcin? Hardadır Sənin fəryada tez çatmağın? Hardadır Sənin qeniş rəhmətin? Hardadır Sənin bol bəxşişlərin? Hardadır Sənin ləzzətli hədiyyələrin? Hardadır Sənin bəyənilmiş sifətlərin? Hardadır Sənin əzəmətli fəzilətin? Hardadır Sənin böyük nemətlərin? Hardadır Sənin qədim yaxşılıqların? Hardadır Sənin kərəmin? Ey Kərim, Özün xatirinə, Mühəmməd və onun övladı xatirinə, mənə nicat ver, Öz rəhmətinlə məni xilas et.

Ey yaxşılıq edən, ey Yaxşı, ey nemət verən, ey fəzilət sahibi, Öz əməllərimə görə verəcəyin cəzadan nicat tapmağa yox, Sənin bizə təfəzzül və güzəşt edəcəyinə təvəkkül və etimad edirəm. Çünki Sən parhizkarlıq və bəxşiş etməyə layiq bir vücüdsan. Nemət verərək yaxşılığa

başlayırsan, Öz kərəminlə günahları bağışlayırsan. Bilmirik nəyə görə Sənə şükr edək, yaxşı işlərimizi aşkara cıxarıb yaydığına görə, ya ki, pis işlərimizi örtüb gizlətdiyinə görə? Layıq olduğumuz böyük bəlalarla imtahan olduğumuza görə, ya ki, bu cür çoxlu sınaqlardan afiyətlə nicat verdiyinə görə? Ey Səninlə dostluq edən kəsin dostu, ey Sənə pənah gətirən və Sənə tərəf gələn kəsin gözünün işığı, Sən yaxşılıq edənsən, bizik günah edən.

Ey mənim Pərvərdigarım, Sən Öz yaxşılığınla bizim pisliyimizdən və günahlarımızdan keç. O hansı nadanlıqdır ki, Sənin bəxşişin onu əhatə edə bilməsin? Yaxud o hansı zamandır ki, Sənin bizimlə müdara etdiyin zamandan uzun olsun? Sənin nemətlərin yanında bizim əməllərimizin nə qədr-qiyməti ola bilər? Öz əməllərimizi necə böyüdə bilərik ki, Sənin kərəminlə bərabər olsun? Sənin rəhmətinə vüsət verməklə günahkarlara necə tənk tutmaq olar? Ey geniş bəxşişli, ey “əlləri” rəhmətlə açıq və səxavətli, and olsun Sənin izzətinə, ey mənim Ağam, əgər məni qovsan, mən Sənin rəhmət qapından ayrılmaram və Sənə kiçiklik etməkdən qalmaram. Çünki Sənin səxavətin və kərəminlə Səni tapmaq mənə müyəssər olub yalnız Sənsən ki, istədiyin kimi edirsən, istədiyin kəsə istədiyin kimi əzab verirsən və istədiyin kəsə istədiyin kimi rəhm edirsən. Sənin işlərin barəsində Səndən sual olunmaz, Sənin padşahlığında mübahisə və mübarizə olmaz, Sənin əmrlərində bir şərik, hökmündə ziddiyyət, tədbirində Sənə hec bir kəsin etirazı yoxdur. Xəlq və onların işi Sənə məxsusdur, aləmlərə pərvəriş verən bir mübarək vücüdsan.

Ey mənim Pərvərdigarım, bu o kəsin məqamıdır ki, Sənə pənah gətirib, Sənin kərəminə bel bağlayıb, Sənin yaxşılıqların və nemətlərinə ülfət bağlayıb. Sən elə bir səxavət sahibisən ki, Sənin əfvin hec vaxt tənk olmaz, fəzilətin naqis olmaz və rəhmətin azalmaz. Bizim etibarımız var ki, Sən günahlardan keçən bir Qədimsən,

fəzilətin çox böyük, rəhmətin genişdir. Ey mənim Allahım, istəyirmisən bizim günahımız xilaf olsun? Ya ki, bizim ümidlərimizi boşa çıxarasan? Yox qəti sürətdə belə deyil, ey Kərim, bizim Sənə olan zənnimiz belə deyil və Sənə olan tamahımız da bu deyil.

Ey bizim Pərvərdigarımız, bizim Səndən çoxlu və uzun arzularımız var, həqiqətən, Sənə böyük ümidlərimiz var. Sənin fərmanından çıxıb günah etmişik, ümid edirik ki, duamızı müstəcab edərsən. Bəs gəl bizim ümidlərimizi həqiqətə çevir.

Ey bizim Ağamız, biz bilirik ki, öz əməllərimizin müqabilində əzaba layiqik. Lakin Sən bizim hər fikrimizi və işimizi bilirsən. Onu da bilirsən ki, bizi Sənə olan rəğbətdən döndərə bilməzsən. Əgər biz Sənin rəhmətinə layiq olmasaq da, Sən bizi və bütün günahkarları Öz geniş rəhmətinlə bağışlamağa layiqsən. Məhz buna layiq olduğun üçün bizə minnət qoy və bizi bağışla, çünki biz Sənin rəhmətinə möhtacıq.

Ey Bağışlayan, Öz nurun xatirinə bizi düz yola salıb hidayət elə, Öz fəzilətinlə bizi ğəni elə. Biz Sənin nemətlərinlə günləri axşam, gecələri səhər eləmişik. Günahlarımız Sənin qabaqındadır, Sənə tərəf qayıdıb, Səndən istəyirik ki, bizi bağışlayasan.

Ey mənim Allahım, Sənin hüzuruna gəlib tövbə edirik. Sən Öz nemətlərinlə bizimlə dostluq edirsən, biz günahlarla Sənə etiraz edirik. Sənin xeyrin bizə nazil olur, lakin bizim şərrimiz Sənin tərəfinə ucalır. Sən həmişə olmuş və həmişə də olacaq bir kərim padşahsan. Hər gün bizdən Sənə tərəf pis əməllər gəlir, lakin bunlar Sənin nemətlərinin və bəxşişlərinin bizim tərəfə gəlməyinə mane olmur. Sənə təsbih və təqdis olsun! Sən necə də həlimsən, Sən necə də böyüksən və kərəm sahibisən! Yaxşılıqları başlayıb, sonra da təkrar və nadə edənsən! Pak və müqəddəsdir Sənin

adların! Sənin tərifin böyük, işlərin və sənətlərin çox yaxşıdır!

Ey mənim Allahım, Sənin fəzilətinin vüsəti və həlimliyinin böyüklüyü mənim əməlimin və günahlarımın böyüklüyü ilə müqayisə oluna bilməz. Odur ki, mənim günahlarımı bağışla, bağışla, bağışla, ey mənim Ağam, ey mənim Ağam, ey mənim Ağam!

Ey mənim Allahım, bizi öz zikrinlə məşqul et, Öz qəzəbindən bizə pənah ver, Öz əzabından bizə əman ver, Öz bəxşişlərindən bizə ruzi elə, Öz fəzlindən bizə nemətlər ver, Sənin evin – Kəbənin ziyarətini və Sənin Peyğəmbərinin qebrinin ziyarətini bizə qismət elə. Sənin səlamın, bəxşişin, rəhmətin, bərəkətin və razılığın o Cənaba və onun Əhli-Beytinə olsun. Həqiqətən, Sən duaları ən yaxında müstəcab edənsən. Sənə itaət etmək əməllərini bizə ruzi qıl, bizi Öz Peyğəmbərinin təriqəsində öldürüb dünyadan apar, o Həzrətə və övladlarına salam olsun.

Ey mənim Allahım, məni və ata-anamı bağışla, onlara rəhm et, necə ki, onlar kiçik vaxtımda mənə pərvəriş verdilər, onlara yaxşılıqla mükafat ver, günahlarını bağışda. Ey mənim Allahım, mömin kişiləri və mömin qadınları, onların dirilərini və ölülərini bağışda, bizimlə onun arasında xoş təbəiyyət yarat. Ey mənim Allahım, bizim dirilərimi, meyyitlərimizi, hazırda olanlarımızı və qaiblərimizi, kişilərimizi, qadınlarımızı, kiçiklərimizi, böyüklərimizi, azadlarımızı və qullarımızı bağışla. Allaha tərəf qeyri-səmimi qayıdanlar yalan dedilər, yollarını azdılar və aşkar surətdə ziyan çəkdilər.

Ey mənim Allahım, Muhəmmədə və Muhəmməd övladına rəhmət göndər, mənim işlərimi yaxşılıqla xətm elə, mənim dünya və axirət üçün zəruri olan işlərimə səhman çək, mənə rəhm etməyən kəsləri mənə müsəllət etmə, mənə Öz tərəfindən bir himayədar göndər ki, həmişə baqi qalsın, mənə verdiyin layiqli nemətləri məndən alma,

Öz fəzlindən mənə pak, halal, firavan ruzi ver. Öz qorumağınla məni qoru, Öz hifzinlə məni mühafizə et, Öz müdafiənlə məni müdafiə elə, Sənin evin olan Kəbənin ziyarətini, Sənin Peyğəmbərinin və İmamların qəbrinin ziyarətini bu il və hər il mənə qismət elə, onların hamısına səlam olsun. Ey mənim Pərvərdigarım, məni bu şərafətli və kəramətli yerlərdən xali etmə.

Ey mənim Allahım, tövbə ver mənə ki, Sənin fərmanından çıxmayım, xeyir işləri və onlara əməl etməyi qəlbimə ilham elə, həmçinin gecə-gündüz, həmişə, nə qədər varamsa, Səndən qorxmağı mənim qəlbimə sal, ey Pərvərdigar.

Ey mənim Allahım, hər vaxt ki, deyirəm hazırlaşım, Sənin qabağında durub namaz qılım, Səninlə raz-niyaz edim, namaz əsnasında mənə yuxunu dücar edirsən və Səninlə münacat etmək istədikdə, onu mənə qismət etmirsən. Hər vaxt ki mənim batinim islah olur və məclisim tövbə edənlər məclisinə yaxınlaşır, o zaman mənə bir maneçilik ariz olur və mənim qədəmlərimi zail edib, Səninlə mənim aramda hayil əmələ gətirir ki, Sənin xidmətinə yetişə bilmirəm. Ey mənim Ağam, olmaya məni Öz qapından qovursan və Öz xidmətindən məni uzaqlaşdırırsan? Olmaya mənə Sənin həqqini yüngül saymış kimi baxırsan və məni Özündən kənar edirsən? Olmaya məni, Sənə etiraz etmiş kimi hesab edib, Özünə düşmən tutursan? Olmaya məni yalançılar məqamında tapıb Öz yanından qovursan? Olmaya Sənin nemətlərinə şukr etmədiyimi görüb, məni bu feyzlərdən məhrum edirsən? Olmaya alimlər məclisində olmağıma görə məni düşmən tutursan? Olmaya məni qəflətdə olanlar zümrəsində görüb, Öz rəhmətindən məhrum edirsən? Olmaya məni puç əməl sahiblərinin məclisinə meylli görüb Öz ülfətindən xali edirsən? Olmaya mənim duamı eşitmək istəməyib, Özündən uzaqlaşdırırsan? Olmaya bəd

əməllərimə və günahlarıma görə mənə cəza verirsən? Olmaya Səndən az həya etdiyim üçün məni cəzalandırırsan? Əgər əfv edəcəksənsə, məndən qabaq əfv etdiklərinə nisbətən bu əfv nə uzaqdır? Axı ey Pərvərdigar, Sənin kərəmin günahkarların cəzasından çox böyükdür, Sənin həlimliyin müqəssirlərin tənbehindən daha çox böyükdür. Mən Sənin fəzlinə pənah aparıram, Səndən qaçıb yenə də Sənə tərəf gəlirəm, çəkilirəm o kəslər tərəfinə ki, günahlardan keçmek barəsində Sənə hüsni-zəni edirlər.

Xudaya, Sənin fəzlin o qədər geniş və həlimliyin o qədər əzəmətlidir ki, günahlarıma görə məni xar etmək və əməllərimə görə məni cəzalandırmaq Sənin bu keyfiyyətlərinə yaraşmır. Ey mənim Ağam, qəlbimdən keçən nalayiq fikirlər üçün məni bağışla və Sənin əfv etməyin barəsində olan fikri doğrult. Öz pərdənlə mənim eyblərimi ört və Öz kərəminlə bu günahlardan ötrü mənə tənə vurma.

Ey mənim Ağam, mən o kiçik uşaq idim ki, ona pərvəriş verdin, mən o nadan idim ki, ona elm öyrətdin, mən o azğın idim ki, ona hidayət edib yol göstərdin, mən o alçaq idim ki, onu ucaltdın, mən o qorxaq kəs idim ki, ona əmin-amanlıq verdin, mən o ac idim ki, onu doydurdun, mən o susuz idim ki, sirab etdin, o çilpaq idim ki, geyindirdin, o fəqir idim ki, ğəni etdin, o zəif idim ki, qüvvətləndirdin, o zəlil idim ki, əziz elədin, o naxoş idim ki, şəfa verdin, o sail idim ki, ona bəxşiş verdin, o günahkar idim ki, günahlarımı örtdün, o xətəkardım ki, dürüstləşdirdin və mən o az idim ki, çoxaltdın o zəif və bacarıqsız kəs idim ki, kömək elədin, mən o qovulmuş idim ki, çağırıb yer verdin.

Ey mənim Pərvərdigarım, mən o kəsəm ki, xəlvətdə Səndən utanmadım, aşkarda da Səni nəzərdə tutmadım. Mən böyük bir hadisəyə düçar olmuşam, mən öz Ağam qarşısında cürət etmişəm. Mən asimanların Cəbbarı

fərmanından boyun qaçırmışam. Mən o kəsəm ki, böyük günahlar sahibinə rişvətlər vermişəm, mən o kəsəm ki, rişvətlə ələ gətirdiyim şeyin müjdəsini mənə verəndə xaricə çıxmağa tələsmişəm, mən o kəsəm ki, mənə möhlət verdin, mən isə ona riayət etmədim, mənim günahlarımı örtüb gizlətdin, amma heç utanmadım, yenə də pis əməllərlə günahlarımı artırdım, mənə öz nəzərindən atdın, amma mənim heç vecimə gəlmədi. Sən Öz həlimliyinlə mənə möhlət vermisən, Öz örtüyünlə mənim günahlarımı pərdələmisən, hətta belə ki, guya məndən qafil olmusan, günahlarımın cəzasından məni uzaqlaşdırmısan, hətta belə ki, guya məndən utanırsan.

Ey mənim Allahım, mən günah edən vaxtda Sənin Allahlığını danmamışam, Sənin əmrlərini yüngül saymamışam, Sənin cəza verəcəyinə etiraz etməmişəm və Sənin Cəhənnəm, Behişt vədələrinə laqeyd olmamışam. Lakin nəfsimin hiyləsi nəticəsində bu xətalar məndən baş verib, nəfsimin istəkləri mənə qələbə edib, Öz cəhdimlə Sənə müxalifət etmişəm. Pəs indi Sənin əzabından məni kim xilas edə bilər? Sabah düşmənlərin əlindən mənə kim nicat verə bilər? Əgər Sənə bağlandığım əlaqə ipini kəssən, vay mənim halıma. Əgər Sənin kəramin və rəhmətinin genişliyinə ümidim və Sənin Öz rəhmətindən məyus olmağı mən etməyin olmasaydı, yazılan əməllərimi yadıma saldıqda tamamilə naümid olardım.

Ey o yaxşı kəs ki, dua edənlər onu çağırır və ey fəzilətli kəs ki, ümid edənlər ona ümid bağlayırlar.

Ey mənim Allahım, mən islamın şərafətilə Sənə əl atıb, Səndən yapışmışam. Quranın hörmətilə Sənə təkyə edib söykənirəm, ümmi Qurəşiy, Haşimi, ərəbi, Təhami, Məkki, Mədini Peyğəmbərin məhəbbətilə Sənə yaxın olmağa ümid edirəm. Mənim imanımın ünsiyyətini vəhşətə salma, mənim səvabımı Səndən qeyri sitayiş edənin səvabına çevirmə. Həqiqətən, o qövm ki, qanları tökülməmək üçün

dildə iman gətiriblər, ümid etdiklərini tapmırlar, biz isə öz dilimizlə və qəlbimizlə iman gətirmişik ki, bizi əfv edəsən. Ümid etdiyimizi bizə yetir, ümidimizi sinəmizdə sabit elə və bizi düz yola hidayət etdikdən sonra qəlbimizi başqa tərəfə meyl etdirmə, Öz tərəfindən bizə rəhmət bəxş elə, Sən böyük bəxşiş sahibisən. Sənin əzəmətinə aid olsun ki, əgər məni qovsan, qapindan ayrılmaram və Sənə kiçiklik etməkdən əl çəkmərəm. Çünki Sənin kərəmin və geniş rəhmətinlə mənim qəlbimə mərifət ilham olunub. O mərifət ki, bəndəni öz ağasına tərəf aparar və məxluqu Öz xaliqinin pənahına göndərər.

Ey mənim Allahım, əgər məni zəncirləyib bəndə salasan, camaat arasında məndən Öz bəxşişini kəsəsən, xəlqin gözü qarşısında məni rüsva edəsən, məni odda yandırmağı fərman verəsən, pakizə bəndələrlə mənim aramda hayil olub, məni onlardan ayırasan, yenə də Səndən ümidimi kəsmərəm və əfv üçün ümid üzünü Səndən döndərmərəm. Sənin məhəbbətin mənim qəlbimdən çıxmaz, Sənin mənə verdiyin nemətləri və dunyada etdiyim günahlara Sənin pərdə çəkməyini heç vaxt yaddan çıxarmaram.

Ey mənim Ağam, Muhəmmədə və Muhəmməd övladına rəhmət göndər və dünya məhəbbətini mənim qəlbimdən çıxar. Məni sonuncu Peyğəmbər həzrəti Muhəmmədil-Mustafa (səlləllahu ələyhi və alih) cənablarına və onun xəlq içində seçilib ayrılmış övladına yaxınlaşdır. Məni tövbə dərəcəsinə nəql edib, Özünə tərəf yönəlt, Öz nəfsimə ağlamaq üçün mənə kömək elə. Həqiqətən, arzu və amala yetişmək məqsədilə yaxşı əməlləri sabaha ata-ata, ömrümü fənaya vermişəm, indi xeyir işlərdən məyus olmaq dərəcəsinə gəlmişəm. Əgər bu halda, yatmaq üçün hamarlamadığım və salih əməllərlə döşəmədiyim bir qəbrə köçürülsəm, məndən pis halda olan bir kəs tapılarmı? Bəs indi mən necə ağlamayım? Bilmirəm

ki, Qiyamətdə qayıdacaq yerim haradır? Görürəm ki, nəfsim mənə hiylə qurur, ruzgarım mənə məkr edir. Başım üstündə ölüm qanadlarının sədaları gəlir. Pəs mən necə ağlamayım? Ağlayıram canımın bədəndən çıxmağı üçün, ağlayıram qəbrimin zülməti üçün, ağlayıram ləhədin darısqallığı üçün, ağlayıram Nəkir və Münkərin məndən sual etməkləri üçün, ağlayıram ki, Qiyamətdə qəbrimdən çılpaq və zəlil halda çıxacağam, günahların ağırlığını belimdə aparacağam, bir sağa baxacağam, sonra bir sola baxacağam ki, camaat hər biri mənim şüğlümdən ğeyri şüğl ilə məşğuldur. O gün hər kişinin bir məşğuliyyəti olacaq və onun digər kəslərdən ehtiyacı olmayacaq. O gündə bəzi üzlər nurlu, xəndan və şad, bəzi üzlər isə tozlu, qara və zəlil olacaq.

Ey mənim Ağam, Sənə arxalanıram və Sənə etibar edirəm, ümidim Sənədir, Sənə təvəkkül edirəm, Sənin rəhmətinə əlaqə bağlamışam. Sən Öz rəhmətini istədiyi kəsə yetirirsən və məhəbbət bəslədiyin kəsə hidayət edib dürüst yola salırsan. Sənə həmd edirəm ki, çirkdən mənim qəlbimi pak etmisən, Sənə həmd edirəm ki, dilimi açmısan. Aya mən kimi yorğun kəs eləcə bu dillə Sənə şükr edim? Ya ki, son dərəcə cəhd edib öz əməllərimlə Səni razı salım? Ey mənim Pərvərdigarım, Sənə şükr etmək üçün mənim dilimin nə qüdrəti var? Sənin ehsanın və nemətlərin müqabilində mənim əməlimin nə qiyməti var? Ancaq Sənin bəxşişin məni öz arzularıma çatdırar və Sənə şükr etməklə əməllərim qəbul olunar. Ey mənim Ağam, rəğbətim Sənədir, Səndən ümid gözləyirəm, amalım Sənə yetişməkdir, həqiqətən, arzularım məni Sən tərəfə qovur.

Ey mənim Yeganəm, himmətim Sənə tərəf iqbal edib və Səndə olan keyfiyyətə görə Sənə rəğbətim artıb. Mənim xalis ümidim və eləcə də qorxum Səndəndir. Mənim məhəbbətim Səninlə ünsiyyət qurub. Odur ki, əlimi Sənə tərəf uzadıram, öz qoxumu Sənə itaət etmək ipi ilə çəkirəm.

Ey mənim Ağam, qəlbim Sənin zikrinlə diridir, qorxu dərdinin hərarətini Sənə münacat etməklə soyuduram. Ey mənim Ağam, ey ümidim və ey mənim sualımın nəhayəti, Muhəmmədə və Muhəmmədin övladına rəhmət göndər və Sənə itaət etmək cəhətinə mənimlə mənim günahlarım arasına ayrılıq sal. Səndən öz köhnə arzularımı istəyirəm, həm də Səndən qorxuduğumu bildirirəm. Sən mehribanlığı və mərhəməti Özünə vacib qıldığın üçün Sənə təməim də böyükdür. Işlər Sənin əlindədir, Sən vahid və yeganəsən, şərikin yoxdur, bütün xəlq Sənin əhləyalındadır və Sənin qüdrət əlindədir. Bütün şeylər Sənə təvazökardır, Sən mübarəksən, ey aləmlərin Pərvərdigarı.

Ey mənim Allahım, dəlil-bürhanım kəsilən vaxtda (yani Qiyamətdə) Sənə cavab verməkdə dilim tutulanda və Sənin sualın qarşısında əqlim başımdan gedəndə mənə rəhm elə. Ey mənim böyük ümidim, fəqirliyim şiddət etdikdə məni naümid etmə, nadanlığıma görə məni rədd etmə, səbrimin azlığına görə məni Özündən uzaqlaşdırma, fəqirliyimə görə mənə bəxşiş ver, zəifliyimə görə mənə rəhm elə.

Ey mənim Ağam, etimadım, etiqadım, ümidim və təvəkkülüm yalnız Sənədir, Sənin rəhmətinə əlaqəmənd olub bağlanmışam, Sənin fənaya verməyinlə dəvəmi oturduram, Sənin səxavətinə görə öz tələbimi qəsd edirəm. Ey Pərvərdigar, Sənin kəraminlə duaya başlayıb Səni çağırıram, Sənin yanında öz fəqirliyimə çarə axtarıram, Sənin qəniliyinlə öz yoxsulluğumu aradan qaldırmaq istəyirəm. Yalnız Sənin əfv kölqənin altında ayaq üstə dura bilərəm, Sənin bəxşişin və hərəmin tərəfinə gözümü qaldırıram, həmişə Sənin ehsanına nəzərimi tikmişəm. Məni odda yandırma, sən ki, mənim gözümün işığısan.

Ey mənim Ağam, Sənin yaxşılıqlarına və ehsanına olan zənnimi yalana çıxarma ki, Sən mənim etimadım və ümidimsən, məni Öz savabından məhrum eləmə, Sən ki, mənim fəqirliyimdən xəbərdarsan. Ey mənim Allahım, əgər

